**İmran Verdiyev**

# YAQUBLU KƏNDİ
# və
# ONUN MƏKTƏBİ

(Təkmilləşdirilmiş təkrar nəşr)

Mingəçevir – 2022

Redaktor: Qurbanova Vəfa Heydər qızı,
Oğuz rayonundakı Yaqublu kənd
T.Babayev adına tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllimi

Rəyçilər: Çələbiyev Nuralı Zərbalı oğlu,
pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun
Şəki filialının elmi-metodiki işlər üzrə
direktor müavini, dosent

Camıyev Sahib Camı oğlu,
kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoru,
Oğuz rayonundakı Kərimli kənd A.Əfəndiyev
adına tam orta məktəbin direktoru

Hüseynli Nazim İsa oğlu,
Azərbaycan Yazıçılar və Jurnalistlər
Birliklərinin üzvü, Oğuz rayonunda çıxan
"Oğuz yurdu" qəzetinin redaktoru

Əlfiyev Vüsal Dünyabir oğlu (Vüsal Oğuz),
yazıçı, Prezident təqaüdçüsü. AYB-nin Oğuz
bölməsinin sədri, Oğuz rayonundakı Xaçmaz
kənd M.F.Axundov adına tam orta məktəbin
direktor müavini



Verdiyev İmran Allahverdi oğlu

# SPONSORLAR



İsayev Alay Novruz oğlu



İsayev Gündüz Süleyman o.



Kazımov Rəhim Əvəz o.



İsayev Tarel Məmmədəli o.



İsayev Səhhət Süleyman o.

Bu kitabda yeni tarixi mənbələr və konkret faktlar əsasında Azərbaycan Respublikasının Oğuz rayonundakı Yaqublu kəndinin coğrafi mövqeyi və təbiəti, kəndin tarixi və adının etimologiyası, kənd əhalisinin tarixi və say dinamikası, kəndin iqtisadiyyatı, sosial-mədəni həyatı, yaradıcı şəxsiyyətləri, yaqublulularn müstəqillik uğrunda mübarizə illərində, I və II Qarabağ müharibələrində göstərdikləri fədakarlıqlarından; kənd məktəbinin tarixi, burada işləmiş müəllimlər və onların qabaqcıl iş təcrübəsi, təlim-tərbiyə sahəsində görülmüş işlər, əldə edilmiş nailiyyətlər və məzunların uğurlarından bəhs olunur. Kitab geniş oxusu kütləsi üçün nəzərdə tutulmuşdur.

In this book, based on new historical sources and concrete facts, the geographical position of Yagublu village of Oguz region of the Republic of Azerbaijan, history and population dynamics, ethymology of the history and name of the village, economy, socio-cultural life, creative personalities, victims of villagers in the struggle for independence and Karabakh wars.The history of the village school, the teachers who worked here and their best practices, the work done in the field of education, the achievements and successes of graduates are discussed. The book is intended to a wide readership.

## Müəllifdən

Hörmətli oxucu !

Oğuz rayonunun Yaqublu kəndi və onun məktəbi haqqında ilk kitablarımızın çap olunmasından təxminən 20 ilə yaxın bir vaxt keçmişdir. Yəqin ki, Sizi yenidən bu mövzuya qayıtmağımızın səbəbləri maraqlandırır.

Ona görə nəzərinizə çatdırırıq ki, ötən dövr ərzində Yaqublunun tarixi, onun adının etimologiyası, əhalisinin tarixi və say dinamikası, məktəbinin tarixi və keçdiyi inkişaf yolu barədə xeyli yeni tarixi mənbələr və faktlar aşkar olunmuş, kənddin iqtisadiyyatında, sosial-mədəni həyatında, kənddə təhsilin inkişafında önəmli hadisələr baş vermişdir. Qeyd etdiklərimiz bizi yenidən hamımıza doğma olan Yaqublu kəndi və onun məktəbi barədə yazmağa, olub-bitənləri tarixin yaddaşına köçürməyə və bu barədə möhtərəm oxuculara, yəni sizlərə informasiyalar çatdırmağa sövq etdi.

Ümid edirik ki, "Yaqublu kəndi və onun məktəbi" kitabı Sizin üçün maraqlı olacaqdır.

Kitabın araya-ərsəyə gəlməsində bizə yardımçı olmuş hörmətli alimlərimiz pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun Şəki filialının elmi-metodiki işlər üzrə direktor müavini, dosent Çələbiyev Nuralı Zərbalı oğlu və kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoru, Oğuz rayonundakı Kərimli kənd A.Əfəndiyev adına tam orta məktəbin direktoru Camıyev Sahib Camı oğluna; Prezident təqaüdçüsü, Azərbaycan Yazıçılar Birliyinin Oğuz bölməsinin sədri, Oğuz rayonundakı Xaçmaz kənd

M.F.Axundov adına tam orta məktəbin direktor müavini Əlfiyev Vüsal Dünyabir oğluna (Vüsal Oğuza), Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Oğuz rayonunda çıxan "Oğuz yurdu" qəzetinin redaktoru Hüseynli Nazim İsa oğluna, AMİ-nin məzunu, tarix-coğrafiya müəllimi, Yaqublu kənd sakini İsayev Səid Şahin oğluna, ADPU-nun filologiya fakültəsinin tələbəsi Verdiyeva Sevda İmran qızına, Türkiyənin İstanbul, Ankara və Bilkent Universitetlərində kompüter elmləri, latın və ingilis dilləri ixtisasları üzrə təhsil almış, hazırda BNE IntelliNews xəbər agentliyinin Azərbaycan üzrə reportyory, "Daily Caucasian Albanian" həvəskar araşdırma layihəsinin yaradıcısı Cavidan Ağayevə (Cavid Ağaya); Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə Sosial-Psixoloji Xidmət ixtisasını bitirmiş, hazırda SABAH magistratura proqramı çərçivəsində Tədrisin və Təlimin Təşkili və Metodikası ixtisası üzrə magistratura təhsili alan, həmçinin "Oğuz Historical həvəskar araşdırma" layihəsinin yaradıcısı S.Nəsibzadəyə; Oğuz rayonundakı Yaqublu kənd T.Babayev adına tam orta məktəbin hörmətli müəllimləri İradə Vahabovaya, Aygün Atakişiyevaya və Xalidə Heydərovaya; kitabın çap olunmasında bizə yardımçı olmuş fədakar və təəssübkeş şagirdlərimiz Alay İsayevə, Tarel İsayevə, Rəhim Kazımova, Gündüz İsayevə və Səhhət İsayevə dərindən təşəkkür edirik.






**Yaqublu kəndinin qərbdən görünüşü - fevral 2022-ci il**

# I HİSSƏ

# YAQUBLU KƏNDİ – DÜNYAYA AÇILAN QAPIMIZ

## Kəndin coğrafi mövqeyi və təbiəti

Yaqublu kəndi Azərbaycan Respublikasının Oğuz (keçmiş Vartaşen) rayonunun cənubunda Oğuz – Mingəçevir – Yevlax – Gəncə şosse yolunun kənarında; Oğuz rayonunun mərkəzindən, o cümlədən Böyük Qafqaz sıra dağlarından təxminən 20 km. məsafədə Alazan-Əyriçay çökəkliyində yerləşir.

Bəzi mənbələrdə kəndin keçmiş adı "Qayabaşı" kimi qeyd edilir. Bu isə tamamilə yanlışdır. Bunlar müxtəlif yaşayış məntəqələri olub. XVIII – XIX əsrlərdə aparılmış kameral təsvirlərdə də bu kəndlər ayrı-ayrı yaşayış məntəqələri kimi qeydə alınıb. Qayabaşı kəndi Yaqublu kəndinin cənubi-qərb istiqamətində olub, kənddən təxminən 7-8 km. uzaqlıqda yerləşir və hazırda Şəki rayonunun tərkibindədir.

Yaqublu kəndi isə Oğuz Rayon İcra Hakimiyyəti Başçısının Yaqublu İnzibati Ərazi Dairəsi (İƏD) üzrə nümayəndəliyinin mərkəzidir. Dairəyə Yaqublu kəndi ilə yanaşı Yenikənd, Top və Zərrab kəndləri də daxildir.

Kənd şimaldan rayonun Kərimli (keçmiş Vardanlı), şimali-şərqdən Padar, şərqdən Yenikənd, qərbdən Top, cənubdan isə Şəki rayonunun ərazisinə daxil olan Sarıca sinklinal düzənliyində yerləşən Bolludərə, Sarıca və

yuxarıda haqqında bəhs etdiyimiz Qayabaşı kəndləri ilə həmsərhəddir.

Kəndin şimal-qərbində qədim kurqanlar, cənubunda isə “Quşlar kəndi” adlı dərələr var. (Bəzən “Quşlar kəndi” düzəngah və yaşayış məntəqəsi kimi təqdim olunur, lakin tarixi mənbələr bunu təsdiq etmir. Deyilənə görə, bura çöl quşlarının çox olduğu kolluq bir ərazi olub, adı da burdan götürülüb.)

Oğuz - Gəncə, Oğuz - Mingəçevir, Oğuz - Bərdə, Xaçmaz (kənd) - Mingəçevir və s. avtobus marşrutları Yaqubludan keçir. Müntəzəm olaraq Yaqublu– Oğuz– Yaqublu avtobus marşurutu işləyir.

Kəndin inzibati ərazisi 1112,54 hektardır. Torpaq fondunun 400 hektara yaxınını əhalinin pay torpaqları, 30 hektardan çoxunu fərdi həyətyanı torpaqlar, 600 hektardan çoxunu isə Bələdiyyə torpaqları təşkil edir.

Burada adi bərkimiş və karbonatlı, dağ qara (meşə altından çıxmış) torpaqlarla yanaşı, bəzi kiçik sahələrdə tünd-şabalıdı və şabalıdı torpaqlar yayılmışdır. İllik rütubətlənmə əmsalı 0,14 – 0,47 arasında dəyişir. Ən yağıntılı, çiskin havalı dövr aprel-may, qismən də sentyabr-oktyabr aylarıdır. Həmin dövrlərdə illik yağıntının təxminən 50%-i yağır. Ən isti ayda (iyulda) 10 dərəcədən yuxarı temperatur cəmi 3800-4100 arasında dövr edir. Ümumi günəş radiasiyası 126 kkal/kv.metrdir. Yaqublu kəndi dəniz səviyyəsindən 440 metr yüksəklikdədir.(1,səh:47-50,63-64,84) Yeraltı sular dərində olduğuna görə burada suya, o cümlədən içməli suya ciddi ehtiyac vardır.

Evlərin xarabalıqları və xarabalıqlardan tapılan məişət əşyaları göstərir ki, Yaqublu kəndi Güllüdağın ətəyindən Kərimli (Vardanlı) kurqanlarının 300-400 metrliyinə kimi uzanan bir ərazini əhatə etmişdir. Kənd özünün təbii gözəllikləri ilə seçilir. "Bizim başı ərşə yüksələn dağların öz aləmi var. Güneylərdə maralotu küləyin nəğməsi ilə xəfif-xəfif yırğalanır.Hündür otlar – inciçişəyi, əməköməçi gülləri arasından torağaylar pırıltı ilə uçuşur. Güllüdağda nə vaxtsa əllə əkilmiş qızılgül kolluğu hələ yazın əvvəllərindən dağı bərbəzəkli kənd gəlinlərinə bənzədir. Bu güllüklərin yaşı hələ heç kimə bəlli deyil. Bu sarılı, qırmızılı örpək kəndin ən qoca sakinlərindən də yaşlıdır. Sarı kövşənlər boyu uzanan bostanlar...Yamyaşıl tütün plantasiyalarında işləyən, axşamlar su daşıyan rəngbərəng geyimli gəlinlər, qızlar. Əyri kərəntilərlə ot biçən başı dolaqlı, sifəti mis kimi qara, sağlam kişilər, oğlanlar. Bütün bunlar ən parlaq rənglər çilənmiş tablolara bənzəyirdi". (2,səh:9-10)

Burada çoxlu sayda faydalı bitki (yovşan, yulğun, inciçiçəyi, əməköməci, üzərlik, qantəpər, qatırquyruğu, qızılgül, əvəlik, bağayarpağı, baldırqan, gülxətmi, vəhşi keşniş, növruzgülü, kəklikotu, quşəppəyi, pişik otu, qızılgül, cincilim, yemlik, danaqıran, kəvər, reyhan, çaşır, quşqonmaz (mərəçöyüt), çiyələk, pərpərtöyün və s.) bitir ki, onların da əksəriyyəti dərman bitkisidir – min bir dərdin dərmanıdır. Kəndin saf, təmiz və oksigenlə zəngin havasının olduğunu isə hər kəs (xüsusən qonaqlar) bilir və etiraf edir.

Meşə ərazisi, demək olar ki, yoxdur. Yaxınlıqdakı dağlarda (xüsusən Güllüdağda) seyrək şəkildə enliyarpaqlı ağac növlərindən qarağac və onların arasında cırmeyvə və giləmeyvə ağacları bitir. Qaratikan kolluqları geniş yayılmışdır.

Ərazidə ən çox təsadüf olunan çöl heyvanları dovşan, tülkü, çaqqal, porsuq, tısbağa, kirpi, sincab, canavar, çöldonuzu və digərləridir.

Çöl quşlarından isə qaratoyuq, göyərçin, sərçə, kəklik, qırqovul, qartal, qarğa, bülbül, sarıköynəyə və digərlərinə rast gəlmək olur.

Kəndin ərzisində qiymətli süxur və minerallara da təsadüf olunur. Bol əhəng daşları vardır. Bir zamanlar bu daşlardan əhəng istehsal olunurdu.



## Kəndin adının etimologiyası haqqında

Araşdırmalar göstərir ki, 2020-ci ildə “Yaqublu” sözünün işlənmə tezliyi 7,3 (Bu rəqəm bir milyon söz arasında həmin sözün neçə dəfə meydana gəlməsini göstərir.)  təşkil edir. Əsasən ad, soyad və toponim kimi işlənir.

Hələlik, toponim kimi həmin adla yazılı mənbələrdə ilk dəfə “Yakublu” (ruscaya tərcümədə belə göstərilir) formasında Quba rayonunun Xınalıq kəndində anadan olmuş, XIV-XV əsrlərdə yaşamış tarixçi Mahmud Xınaluqinin “XIV-XV əsrlərdə Dağıstan və Şirvan hadisələri” adlı əlyazmasında rastlaşırıq.(3,səh:17)

Qeyd edək ki, bu toponimə folklor nümunələrində də təsadüf olunur. Məsələn, çoxvariantlı bayatıların birində oxuyuruq:

Corabın ağına bax,
Çöyürüf sağına bax.
Yar yadına düşəndə
Yaqublu dağına bax. (4,səh:15)

Hazırda Azərbaycan Respublikasında “Yaqublu” toponiminə Oğuz və Gədəbəy rayonlarında rast gəlirik. Lakin konkret tarixi mənbələr göstərir ki, vaxtı ilə İrəvan quberniyasının Zəngəzur və Eçmədzin qəzalarında, Tiflis quberniyasının Dmanisi rayonunda da həmin adda kəndlər olmuşdur.

Toponimin etimologiyası barədə müxtəlif maraqlı və ziddiyyətli fikirlər vardır. A.Paşayev və A.Bəşirovanın birgə tərtib etdikləri “Azərbaycan şəxs adlarının izahlı lüğəti”ndə, B.Əhmədovun “Azərbaycan dilinin qısa etimoloji lüğəti”ndə, O.Mirzəyevin “Adlarımız” əsərində və digər bəzi tədqiqat əsərlərində “Yaqublu” toponiminin tərkibindəki “Yaqub” sözü yəhudi adı olan Yakovun (İakovun) ərəb forması hesab edilir. Mənası “ardınca, dabanbasdı, izi ilə gələn” kimi izah olunur.

Qeyd edək ki, son vaxtlar tədqiqatçılar arasında yəhidi dilindəki “Yakov” və ya “İakov”un, onun ərəb forması “Yaqub”un özünün də türk mənşəli qədim bir sözdən törəməsi barədə fikirlər dolaşmaqdadır. Əsli “Yaqub” olan bu sözü yəhudilər və digər xalqlar öz danışıq tərzlərinə uyğun olaraq “Yakov” və ya “İakov” kimi tələffüz etmişlər.

Bizcə, haqqında bəhs etdiyimiz toponimin tərkibindəki “Yaqub”un da “Yakov”la və ya “İakov”la heç bir əlaqəsi yoxdur.

Bir zamanlar kənddə udilərin yaşaması (burda yəhudilərin də yaşamasını təsdiq edən konkret heç bir fakt yoxdur), qonşu Vardanlı (indiki Kərimli) kəndinin adının udi mənşəli olmasının “əsas gətirilməsi” (bu absurddur), bölgədə yaşayan udilərin içərisində Yakov adının geniş yayılmasına və yayğın olmasına görə kəndin adının da Yakov adlı udi adı ilə əlaqələndirilməsi bəhs etdiyimiz toponimin yəhudi və ya udi mənşəli olması anlamına gələ bilməz. Bu, ancaq iddia ola bilər.

Tarixi mənbələr göstərir ki, Yaqubluda udilər heç vaxt say etibarı ilə üstünlük təşkil etməmişlər. Təsadüfi deyil ki, nuxalı İ.Muradxanov və M.Tarasanov tərəfindən 1815-ci ildə qələmə alınmış və Bütün Rusiyanın ermənilərinin arxiyepiskopuna göndərilmiş məktubda Nuxa xanlığının ərazisində udinlərin say etibarı ilə ancaq 3 kənddə-Calut, Vartaşen və Nicdə üstünlük təşkil etdikləri göstərilmişdir.

XX əsrin 80-cı illərinə kimi yazılı tarixi mənbələrin (o cümlədən, məşhur udi ziyalıları M.Bejanov, S.Silikov, S.Bejanov, V.Quqasyan, E.F.Ceyranaşvili, J.Keçaari, R.Mobilli və b. əsərlərinin) heç birində kəndin adının yəhudi və udi mənşəli olması barədə qeyd və məlumatlarla rastlaşmırıq. Hazırda udilərin vətəni sayılan Qəbələ və Oğuz rayonlarında, həmçinin köç edərək Rusiya (xüsusən daha yığcam yaşadıqları Dağıstan Respublikasında və Rostov vilayətində), Ukrayna, Gürcüstan və Qazaxıstanda kompakt şəkildə məskunlaşdıqları ərazilərdə də "Yakov", "İakov", "Yaqub","Yaqublu" toponimlərinin paralelliyinə, onlara oxşar digər başqa toponimlərə təsadüf etmirik.

Biz Yaqublu toponimini türk mənşəli hesab edirik. Bu baxından sözün Onkin və Orxon abidələrində, M.Qağanqatlının "Alban tarixi" əsərində işlənmiş "Yabğu" ("Yabqu"), "Kitabi-Dədə Qorqud"dakı "yapaqlu", "yavuq" və yavuqlu", Altay dillərindəki "yaq" və "qu", Oğuz (yabğululuğu) Yabgu dövləti, Oğuz dövlətinin rəhbərlərindən olan yabğu (titul bildirirdi, xaqandan sonrakı şəxs), tədqiqat əsərlərində rastlaşdığımız "sağ və sol yabqular" ifadələri, tayfa adları Yaqublu və

Yoloqlu; Ermənistandakı tirə adı Babayaqublu, Ş.İ.Xətainin mürşidi Miskin Abdalın doğma kəndi Sarıyaqub və nəvəsi Sarıyaqub (Şadmanın oğlu), həmçinin Ermənistan və Gürcüstandakı məşhur Şadmanlı, Kosalı, Oğuz-türkmən və avşar tayfalarının bir qolu olan "yaqublular"; kənd adları Yaqubkənd, Yaquboğlu (qışlağ), Yaquboba, Yaqupi, Yaqub,Yolqulu və s. kimi onlarla belə titul, şəxs, yer, tayfa, oymaq və tirə adları ilə səsləşməsini təsadüflərə bağlamaq mümkün deyil.

Əvvələn, bu şəxs, titul, yer, tayfa, oymaq və tirə adlarının heç biri xəyali deyil, realdırlar - tarixən mövcud olublar. İkincisi, həmin şəxs, titul, yer, tayfa, oymaq, qol və tirə adları Azərbaycan dilindədir, daşıyıcıları hamısı azərbaycanlılardır, onlara Azərbaycan xalqının yaşadığı və Azərbaycan dövlətlərinin idarə etdiyi məmləkətdə rast gəlirik. Üçuncüsü, həmin şəxs, yer, tayfa, oymaq və tirə adları həm tarixilik, həm də müasirlik baxımından Azərbaycan dilinin fonetik, morfoloji və leksik-semantik xüsusiyyətlərini tam əks etdirir.

Dilçi alimlərimizin əksəriyyətinin tədqiqatları da bir mənalı olaraq göstərir ki, "Yaqublu" qədim arxaik sözlərimiz əsasında formalaşmış türk-Azərbaycan mənşəli soyad və toponimdir. Təsadüfi deyil ki, Akademik A.Qurbanov onu "keçmişin izlərini özündə bariz şəkildə saxlayan" toponimlərin sırasına aid edir.(5,səh:209) Filologiya elmləri doktoru A.Paşayev də "Yaqublu" sözünün dilimizin morfoloji xüsusiyyətlərini tam əks etdirdiyini və türk mənşəli qədim oykonim (yaşayış

məntəqəsinin adını bildirən xüsusi isim) olduğunu qeyd edir.(6,səh:60,78) Gürcüstan MA-nın həqiqi üzvü, professor Ş.Məmmədli də həmin sözü "osmanlı kökənli" hesab edir.

Akademik, coğrafiya elmləri doktoru B.Ə.Budaqov və Azərbaycan Respublikası Milli Məclisinin toponomiya komssiyasının tanınmış üzvlərindən, tarix elmləri doktoru Q.Ə.Qeybullayevin "Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti"ndə "Yaqublu" adının qədim türk dillərində "şahzadə" və "başçı" mənalarında işlənən "yabğu"("yağbu") sözündən yarandığı göstərilir.(7) Filologiya elmləri doktoru M.Çobanlı və filologiya elmləri namizədləri M.Borçalı və H.Çobanova da bu fkirlə razılaşırlar. Maraqlıdır ki,"Türk folkloru dünya alimlərinin gözü ilə" tədqiqat toplusunun I hissəsinin 157 və 165-ci səhifələrində də "Yabqu" ("Yabğu") həm toponim, həm də şəxs adı kimi göstərilir. (Qeyd edək ki, bu sözün mənşəyi barədə digər fikirlər də mövcuddur)

Başqa bir mənbədə isə Yaqublu toponimi "Kitabi-Dədə Qorqud"dan bizə tanış olan, Ş.İ.Xətainin əsərlərində də rastlaşdığımız "yavuq" və "yavuqlu" (yaxın, yaxınlıq) sözləri ilə əlaqələndirilir; "yavuq" sözü ilə "-lu" şəkilçisindən formalaşdığı və sonralar "Yaqublu" kimi sabitləşdiyi (yavuqlı – yavıqlı – yavıxlı – yaquplu-yaqublu) qeyd olunur.(8) Türkiyəli araşdırmaçı, doktor Rəcəb Albayraq Hacaloğlu "Borçalı toponimləri" əsərində bu fikri təsdiq edir.(səh:67)

Şair-araşdırmaçı Y.Rzayev 10 yanvar 2018-ci il tarixdə "Mingəçevir işıqları" qəzetində dərc olunmuş "Günəş doğanda da gözəldir, qürub edəndə də..."adlı məqaləsində dilin mənşəyi haqqında monogenezis nəzəriyyəsinə istinad edərək yazır ki, Yaqub sözü maq-oğuz-Azərbaycan sözüdür. Mənası "qürub edən Günəş kimi parlaq" deməkdir. Bir başqa mənbədə də Yaqub sözünün qədim türk sözü olub, "ya" (günəş anlamında) və "qürub" komponentlərindən formalaşdığı qeyd olunur.

Akademiklərdən A.Qurbanov, tədqiqatçı alimlər O.T.Molçanova, S.Cəfərov, T.Əhmədov və başqaları qeyd edirlər ki, "-lu$^4$" şəkilçisi həm də şəxs, tayfa, nəsil, tirə adlarına qoşularaq, onlara mənsub (törəmə, yaxın, qohum) mənası ifadə edən düzəltmə etnonimlər (xalqların, millətlərin, qəbilələrin, qəbilə və etnik birliklərin adı)əmələ gətirir. Onu da qeyd edək ki, bəzi tədqiqat əsərlərində (məsələn, İ.İbrahimov: "Qərbi Azərbaycanın türk mənşəli toponimləri", Bakı-2002, səh:168) "Yaqublu" sözünün quruluşca sadə olduğu göstərilir.

Biz də "Yaqublu" oykoniminin xalqımızın etnogenezinin formalaşmasında ciddi və əhəmiyyətli rol oynamış şəxs, tirə, qol, boy, nəsil və tayfa adları ilə sıx bağlılığı qənaətindəyik. Antrotoponim (şəxs adlarından əmələ gələn coğrafi ad) əsasında əmələ gəldiyi açıq-aşkar görünür. "Yaqub nəslinə məxsus, Yaqub nəslindən, tirə, qol, boy, oymaq və tayfasından olanlar" anlamındadır.

H.Çobanova öz dissertasiyasında göstərir ki, osmanlı idarəçiləri tərəfindən 1728-ci ildə tərtib edilmiş "Tiflis

əyalətinin müfəssəl dəftəri” və “İrəvan əyalətinin müfəssəl dəftəri”ində 2 və 3 Yaqublu oymağının adı çəkilir. Hər iki sənəddə qeyd edilir ki, Yaqub adlı şəxs Kosalı tayfasının yaqublular qoluna mənsub olub. O qeyd edir ki, yaqublular XVIII-XIX əsrlərdən Gürcüstana və bütün Azərbaycana səpələnmiş və məskunlaşdıqları yerləri əvvəlki yaşayış yerinin adı ilə adlandırmışlar.(9,səh:97-98)

Toponimin müxtəlif mikro və makroareallarda təkrarlanmasının əsas səbəbi eyni yer, tayfa, oymaq və tirədən çıxmış nümayəndələrin yeni saldıqları yaşayış məntəqələrinə əvvəlki məntəqələrin adlarını vermək cəhdindən irəli gəlir. Buna biz də şübhə etmirik. Bu, artıq toponimikada əsaslandırılmışdır.

Yaqublu areal (birdən çox coğrafi obyektin adını bildirən) toponimdir. Bu kənd yuxarıda qeyd etdiyimiz şəxs, yer, tayfa, oymaq, qol və tirə nümayəndələri (bəlkə də, Yaqub adlı şəxsin təşkilatçılığı ilə) tərəfindən düşərgə, köç və ya qışlaq yeri kimi salınmış, sonralar isə daimi yaşayış məntəqəsinə çevrilmişdir. İlk sakinlər kəndə ya çıxdıqları əvvəlki yaşayış məntəqəsinin, ya onları bu əraziyə gətirən şəxsin, ya da mənsub olduqları tayfa, oymaq, qol, boy və tirənin adını – Yaqublu adını vermişlər. Beləliklə, hansı məntəqə və tayfa, oymaq, qol, boy və tirədən olduqlarını nəzərə çatdırmaq istəmişlər. Bunlar toponim yaradıcılığında daha qanunauyğun hal sayılır.

Məntəqələrarası məsafəni uzaq hesab edib, dediklərimizə şübhə ilə yanaşanların nəzərinə Səfəvilərin

böyük ideoloqu, Sarıyaqub kəndindən olan Miskin Abdalın bir müddət Vartaşenin (Oğuzun) Xaçmaz kəndində yaşaması və onun 20-yə qədər tərəfdarının qəbirlərinin burda olması barədə məlumatı çatdırmaqla müvafiq nəticə çıxarmağı öz öhdələrinə buraxırıq.(10)

Bir zamanlar biz də Oğuz rayonunun Yaqublu kəndinin Ermənistandan deportasiya olunanlar tərəfindən XIX-XX əsrlərdə salındığını iddia edirdik. Lakin əldə olan son tarixi mənbələr göstərir ki, haqqında bəhs olunan kənd yuxarıda göstərilmiş şəxs, yer, tayfa, oymaq, qol, boy və tirə nümayəndələri tərəfindən həmin dövrlərdə yox, cox əvvəllərdən salınmışdır.

Onu da qeyd etməyi vacib bilirik ki, kəndin ərazisində sırf Azərbaycan dilində olan çoxlu digər toponimlər də mövcuddur. Bunlara Güllüdağ, Şorbulaq, Quşlar kəndi, Ağdaş yolu, Sarıca, Yekə dağ, Öküzölən, Mustafa yıxılan dərə, Ağdərə, Sarıqaya, Balaca dağ, Almanın dərəsi, Çaqqal armudu, Silikovun yeri, Quru kəhriz, Göl yeri, Zarağan dərəsi, Abdurahman yeri, Sarayın yeri, Seyidin yeri, Ər dağı, Boz dağ, Alma dərəsi, Xırman yeri, Mehdi kişinin dik yeri, Pirəlinin qəbri, Yedditəpə (Kərimli kurqanları), Padar yeri, Topun dağı, Calğalıq, Qumqazan və s. Bu yer adlarının bir çoxu tarixi hadisələrlə, rəvayət, əfsanə və real hadisələrlə bağlıdır. Maraqlıdır ki, onların çoxuna ya olduğu kimi, ya da azacıq fərqli şəkildə Azərbaycan Respublikasının, Qərbi (Ermənistan) və Cənubi Azərbaycanın, o cümlədən Gürcüstan Respublikasının müxtəlif bölgələrində də rast gəlmək mümkündür.



**Kəndin yaxınlığındakı qədim kurqanlar** **(Kərimli kurqanları)**



**Yekə dağ və Ağdərə. Uzaqdan görünən Güllü dağdır.**

## Kəndin keçmişinə qısa səyahət

Kəndin 300-400 metrliyindəki qədim kurqanlar (Vardanlı (Kərimli) kurqanları nəzərdə tutulur) və qazıntı zamanı oradan tapılmış son tunc dövrünə aid eksponatlar bu ərazinin çox qədimdən yaşayış məskəni olduğunu sübut edir.

Hələlik bizə məlum olan və Yaqublunun yaşayış məskəni kimi adının çəkildiyi son mənbə kəndin ən azından 600 ildən artıq yaşı olduğunu göstərir. Belə ki, Quba rayonu Xınalıq kəndində anadan olmuş, XIV-XV əsrlərdə yaşamış tarixçi Mahmud Xınaluqi "XIV-XV əsrlərdə Dağıstan və Şirvan hadisələri" adlı əlyazmasında qeyd edir ki, Şirvanşah Sultan Gerşasp Vardanlı, Yaqublu və Söyüdlü kəndləri müstəsna olmaqla, Ağdaş mahalını qohumu Qaytaq əmrinin oğluna (bacısı oğlu – İlçav Əhməd bəyə) öz məişətini təmin etməsi üçün vermişdi. Əlyazmanın təhlili və hadisələrin Əmir Teymurun dövrünə təsadüf etməsindən belə məlum olur ki, Xınaluqi Sultan Gerşasp dedikdə İbrahim Dərbəndini (1382-1417) nəzərdə tutmuşdur.(3,səh:17)

Digər bir mənbədə də kəndin yuxarıda göstərilən dövrdə mövcud olduğunu görürük. Belə ki, rayon ərazisindəki Calut monastırının tarixindən də bəhs olunmuş bu mənbədə adı çəkilən monastırın katolikoslarından birinin, etnik udi olan Aristakesin (1511-1516-cı illərdə katolikosluq edib) 1516-ci ildə Oğuz

rayonunun indiki Yaqublu kəndində (“svoey rodine”) vəfat etdiyi və burada dəfn edildiyi göstərilir.(11,səh:248)

Başqa bir tarixi mənbədə də Yaqublu kəndinin adına rast gəlirik. 1701-ci ilə aid olan və erməni kilsə arxivində saxlanılan, Səfəvi Şahı Sultan Hüseynə ünvanlanmış bu sənəddə görürük ki, 1701-1728-ci illərdə katolikosluq etmiş udi Yesai Həsən Cəlalyan Şəki və Şirvandakı qriqoryanlaşdırılmış udi və tat əhalisinin mənsub olduğu Şirvan yeparxiyasını Eçmədzin (Üçkilsə) kilsəsinin əlindən almaq istəyirmiş. Bu məqsədlə şaha ünvanlanmış həmin ərizəyə öz möhürünü basanların içərisində Yaqublu udiləri - kəndin kəndxudası Simeonun və keşişi Nerses Bəynəzərin adlarını da oxuyuruq. Maraqlıdır ki, həmin ərizədə göstərilənlərin həqiqiliyi Padar və Ərəş mahalının məliyi Məlik Şəhabəddin tərəfindən də təsdiq edilmişdir.(12)

1819-cu ilə aid olan “Şəki vilayətinin təsviri” adlı başqa bir mənbədə də Yaqublu kəndinin Şəki mahalında yaşayış məntəqəsi kimi mövcud olduğunu görürük.

M.Barxudaryantsın 1893-cü ildə yazdiği "Albaniya (Alyank) ölkəsi və onun qonşuları" kitabında da Yaqublu haqqında məlumat verilir .

Bizim eranın əvvəllərindən Qafqaz Albaniyasının tərkibində olduğu ehtimal edilən Yaqublu kəndi IX əsrdən XVI əsrin ortalarınadək Şirvanşahlar və XVI – XVIII əsrlərdə Səfəvilər dövlətlərinin, XVIII əsrin sonlarından XIX əsrin 30-cu illərinədək Şəki xanlığının, Azərbaycan

çar Rusiyası tərəfindən işğal olunandan sonra – 1840-cı ildən Kaspi vilayətinin Nuxa əyalətinin, 1846-ci ildən Şamaxı quberniyasının, 1859-cu ildən Bakı quberniyasının, 1867-ci ilin sonlarından isə Yelizavetpol quberniyasının Nuxa və Ərəş qəzalarının tərkibində olmuşdur.

1824-cü ildə aparılmış siyahıyaalmada kənd Nuxa qəzasının Nuxa mahalına, sonrakı dövrlərdə isə qəzanın Xaçmaz sahəsinə aid edilmişdir.

Vartaşen (Oğuz) məktəbinin keçmiş müdiri, tədqiqatçı M.Bejanovun 1896-cı ildə Tiflisdə çap etdirdiyi "Xlebopaşestva v Nuxinskom i Areşskom uezde" məqaləsindən ("Kafkazskoye selskoye xozyaystvo", 1986, №146) və Qafqaz Statistika Komitəsinin statistika şöbəsinin baş redaktoru D.D.Paqirevin 1914-cü ildə Tiflisdə çap etdirdiyi "Alfavitnıy ukazatel k pyativerstnoy karte Kavkaza"(səh:305) əsərindən Yaqublu kəndinin bu illərdə də mövcudluğunun şahidi oluruq.

XIX əsrin sonlarından XX əsrin əvvəllərinə kimi Yaqublunun Nuxa yox, Ərəş qəzasının tərkibində olduğunu görürük.(13,səh:70) Lakin 1920-1921-ci illərdən kənd yenidən Nuxa qəzasının tərkibinə qaytarılmışdır.

Kəndin Nuxa qəzasının tərkibində olması 1930-cu ilə kimi davam edib. Qəzanın

Vartaşen sahəsində 1921-ci ildə 4, 1926-cı ildə 9 kənd şurası (sovetlik) olsa da, Yaqublu kəndinin 1920-ci illərdə hansı kənd şurasına (sovetliyə) daxil olması və əhali sayı

barədə rəsmi məlumat tapmaq mümkün olmamışdır. Yaşlı sakinlərin söylədiklərinə görə, həmin illərdə kəndin Padar sovetliyinin tərkibində olmasını güman edirik.

1930-cu ildə Oğuz (Vartaşen) rayonu təşkil edilərkən Yaqublu kəndi onun tərkibinə daxil edilmiş və Padar Zəhmətkeş Deputatlar Sovetinin (ZDS) idarəçiliyinə verilmişdir.

Oğuz (Vartaşen) rayon ZDS-nin 28 iyun 1946-ci il tarixli qərarı ilə Yaqubluda ilk dəfə Sovetlik (ZDS) həmin ildə yaradılmış və 1954-cü ilə kimi fəaliyyət göstərmişdir. (18,səh:26)

(Maraqlı olduğunu nəzərə alaraq qeyd edək ki, kənd 03 aprel 1952-ci il – 23 aprel 1953-cü il tarixlərində mövcud olmuş Gəncə vilayətinin Vartaşen rayonunun tərkibində olmuşdur, lakin özünü doğrultmadığına görə bu vilayət SSRİ Ali Sovetinin 1953-cü il 23 aprel tarixli qərarı ilə ləğv edilmişdir.)

1954-cü ildə Yaqublu kəndi yenidən Padar Sovetliyinin tərkibinə verilmişdir.

1960-cı ildə kənddəki mövcud kolxozun Kərimli (Vardanlı) kəndindəki "Qələbə" kolxozuna birləşdirilməsi ilə əlaqədar Yaqublu (həmçinin Yenikənd, Top və Zərrab) kəndi Padar Sovetliyinin tərkibindən çıxarılaraq Kərimli (Vardanlı) Sovetliyinin tərkibinə daxil edilmişdir. Kənd 1966-cı ilə kimi həmin sovetliyin tərkibində olmuşdur.

1966-cı ildə kənddə yenidən inzibati mərkəzi Yaqublu olmaqla Yenikənd, Top və Zərrab kəndlərini də əhatə edən Sovetlik təşkil edilmişdir.(14,səh:148)

1991-ci ildə ölkədə Prezident institutunun yaradılması ilə əlaqədar kənd Sovetinin (XDS) fəaliyyətinə xitam verilmiş, Oğuz Rayon İcra Hakimiyyəti Başçısının Yaqublu İƏD-si üzrə nümayəndəliyi yaradılmışdır.

Ölkə Konstitusiyasına uyğun olaraq 12 dekabr 1999-cu il tarixdə kənddə ilk dəfə Bələdiyyə seçkiləri keçirilmiş və bələdiyyə orqanı formalaşdırılmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin 29 may 2009-cu il tarixli qərarına uyğun olaraq ərazi icra nümayəndəliyində müstəqil fəaliyyət göstərən Top, Zərrab və Yenikənd bələdiyyələri həmin ildən Yaqublu Bələdiyyəsinə birləşdirilmişdir.

## Kənd əhalisinin tarixi və say dinamikası

Aparılmış araşdırmalar, tarixi faktlar və kəndin adının türk mənşəli olması göstərir ki, əsrlər boyu Yaqubluda azərbaycanlılar, idilər və ləzgilər birlikdə yaşamışlar.

Təəssüf ki, XVIII əsrin sonlarına kimi kənddə əhalinin tarixi və say dinamikası barədə əlimizdə konkret məlumatlar yoxdur.

Lakin tarixi mənbələrə istinadən deyə bilərik ki, vaxtı ilə burada udilər də yaşamışlar. Calut monastırının katolikoslarından mənşəcə udi olan Aristakesin 1516-cı

ildə indiki Yaqublu kəndində vəfat edərək dəfn edilməsini, 1701-ci ilə aid başqa bir mənbədə kənd rəhbərinin (kəndxudanın) və keşişin mənşəcə udi olmalarını, XIX əsrdə və XX əsrin əvvəllərində bu ərazilərin çar ordusunun generalı, mənşəcə udi olan S.Silikovun xüsusi torpaq sahələri olduğunu nəzərə alaraq belə güman etmək olar ki, kənd sakinlərinin içərisində azərbaycanlılardan sonra çoxluq təşkil edənlər udilər olmuşlar. Onların burada ayrıca bir məhəllədə yığcam şəkildə yaşadıqları ehtimal edilir.

Baki Dövlət Universitetinin böyük elmi işçisi, Alban-udi Xristian İcması sədri Robert Mobili "Dədə Qorqud Milli Fondu-Azərbaycan Dünyası" jurnalının 18 iyul 2018-ci il tarixli nömrəsində çap etdirdiyi "Qafqaz Albaniyasının müstəqil apostol kilsəsinin birbaşa dini varisi: alban-udi xristian icması" adlı məqaləsində yazır: "XX əsrin əvvəllərinədək udilər Nic, Vartaşen (Oğuz), Mirzəbəyli, Vardanlı (Kərimli), Sultan-Nuxa, Corlu, Yaqublu, Malıx, Yenikənd, Talış və Kirzan kəndlərində kompakt şəkildə yaşayıblar."

Udi mənşəli M.Bejanov SMOMPK-ın ("Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun) XIV buraxılışında "Vartaşen və onun sakinləri haqqında qısa məlumat" adlı məqaləsində göstərir ki, o dövrdə Nuxa qəzasında udilər daha çox olmuşlar, qəzanın çox kəndlərində udilər yaşayırdılar.

Məhz bu səbəbdən də müasirlərin qeyd etdiyi kimi burada hər yerdə köhnə kilsələrin xarabalıqlarına rast gəlinir.

Xarabalıqları yaxın vaxtlara kimi qalan belə kilsələrdən ikisi Yaqublu kəndində olub. M.Barxudaryants da XIX əsrin sonlarında Yaqubluda iki kilsənin olduğunu qeyd edirdi. Tiflisdə dərc olunmuş "Nor-Dar" qəzetinin 7 sentyabr 1887-ci il tarixli 151-ci sayında yer alan məlumatda göstərilir ki, kilsələrdən biri təpəlikdə (Güllüdağın ətəyində) yerləşirmiş və hər gün ora getmək yorucu imiş. Buna görə də Yaqublu kənd sakini etnik udi H.Silikyan tərəfindən kəndin şimalında – aşağı hissəsində başqa bir kilsə tikdirilmişdir.

İndi bəzilərinin erməni kilsəsi hesab etdikləri həmin kilsələr əslində IV əsrdən xristianlığı qəbul etmiş; VII əsrdən başlayaraq etnik ermənilərin də qızışdırması ilə ərəb xəlifəsi tərəfindən zorla qriqorianlaşdırılmış və Eçmədzin kilsəsinə tabe etdirilmiş etnik udilərin kilsələri idi.

1855-cü ildə Azərbaycanın Qax rayonunda inqloy ailəsində anadan olmuş etnoqraf və tarixçi İ.(M).Canaşvili 1903-cü ildə yazdığı "Heretinin təsviri" adlı məqaləsində Vartaşendəki (Oğuzdakı) udi kilsələrinin erməniləşdirilməsindən bəhs edərkən yazırdı: "...əslində bu torpaqlarda heç vaxt erməni kilsələri olmamışdı." Erməni kilsələri olmamışsa, deməli, etnik ermənilər də olmamışdır, yaxud rus tədqiqatçılarından olan N.N.Şavrovun da yazdığı kimi"...erməni əhalisi cüzi idi." Ona görə də həmin

kilsələri etnik erməni kilsələri kimi tanımaq kökündən səhvdir.

Bu sətrlərin müəllifi 1970-ci illərin sonlarına kimi Vartaşendə (Oğuzda) və Qəbələ rayonunun Nic kəndində yaşayan udilərin xarabalığı qalmış, kəndin şimal hissəsində yerləşən (udi H.Silikyanın tikdirdiyi) həmin kilsə yerini ziyarətə gəlmələrinin və burda dini ayinlər keçirmələrinin canlı şahididir. Yaşlı kənd sakinləri onların çoxunu şəxsən tanıdıqlarını və udi olduqlarını söyləyirdilər.

Güman edirik ki, XIX əsrin əvvəllərində kənddə məsçid binası da olub. Belə ki, filologiya elmləri doktoru Ə.Cəfərzadə 1826-cı ildə Yaqublu kəndində anadan olmuş şair Ə.Salami barədə qeyd edir ki, o, mollaxana təhsili alıb. Uşaqların mollaxanaya ən azı 6-7 yaşlarında getdiklərini, Yaqublu ilə qonşu kəndlərin arasındakı məsafənin 7-8 km. olduğunu, azyaşlı uşağın mollaxanaya getmək üçün mütamadi olaraq bu yolu gedib-gəlməsinin inandırıcı olmadığını və mollaxanaların məsçidlərin nəzdində fəaliyyət göstərdiyini nəzərə alsaq, onda belə iddia etmək olar ki, Ə.Salami elə öz kəndində - Yaqublu məsçidindəki mollaxanada təhsil alıb. Əslən İrəvan quberniyasının Üçkilsə (Eçmədzin, sonralar Talin rayonu adlanmışdır) qəzasının Quldərviş kəndindən olan Kərimov Hüseyn Alı oğlu da söyləyirdi ki, kəndin şimal-qərb istiqamətində kiçik bir binanın xarabalıqları varmış. Onlar

qonşu kəndlərin sakinlərindən buranın nə olduğunu soruşanda “məscid yeridir” deyirmişlər.

Tarixi faktlar və arxiv materialları sübut edir ki, etnik ermənilərin bu ərazilərə kütləvi gəlişi çox-çox sonralar – XIX əsrin əvvəllərindən başlanmışdır. Bu fikri rus ordusunda xidmət edən, Şirvana gedərkən rayonun Zərrab kəndindən keçən (Şirvana atla gedən şəxsin Zərrabın şərqində yerləşən Yaqubludan keçməməsi inandırıcı deyil.) ispan general Xuan Van Haleni Sarti də öz xatirələrində təsdiq edir. Belə ki, o, 1820-ci ildə burdan keçərkən qeyd edir ki, "...Ermənilər bu ərazilərə yeni köçürülüb, sənaye və ticarətlə məşğul olurlar."(15) Tarixi faktlar da bunu sübut edir.

Ermənilər əsasən XIX əsrin əvvəllərindən – Rus-İran, Rus-Türk müharibələrindən sonrakı dövrdə (xüsusən Şəki xanı Səlim xanın 1805-ci ildə ruslara məğlub olmasından sonra və 1806-cı ildə İrandan üz döndərib Rusiya tərəfinə keçən və Şəki xanı təyin olunan keçmiş Xoy hakimi Cəfərqulu xanın dövründə) rusların himayəsilə kütləvi şəkildə İran və Türkiyədən köçürülərək Bakıya, Qarabağa və Azərbaycanın şimal bölgələrinə (o cümlədən Nuxa qəzasının Vartaşen (Oğuz) sahəsinə) yerləşdiriliblər. Hətta tarixi mənbələrdən Cəfərqulu xanın Xoydan özü ilə gətirdiyi erməniləri bu ərazilərdə yerləşdirmək üçün rus çarına müraciət etdiyi də məlumdur.

Təsadüfi deyil ki, rus tədqiqatçılarından N.N.Şavrov Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasəti

haqqında yazırdı ki, «Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-1828-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində -1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə erməniləri köçürmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi.”

Yaqubluda da ermənilərin kütləvi məskunlaşdırılması bu dövrlərdən başlanmışdır. Güllüdağın ətəyində və kəndin cənub istiqamətindəki dərənin kənarında olan qəbiristanlıqlardakı baş daşlarının üzərində qeyd edilmiş doğum və ölüm tarixləri də göstərir ki, ermənilər bura əsasən XIX əsrin əvvələrindən başlayaraq köçürülmüşlər. Təsadüfi deyil ki, başdaşlarının üzərindəki doğum və ölüm tarixləri ancaq XVIII əsrin ikinci yarısından XX əsrin əvvələrinə (1916-1917-cı illərə) kimi olan dövrü əhatə edir.

Həmin dövrdən ermənilərin intensiv olaraq Yaqubluya yerləşdirildiyini əhalinin say dinamikası da aydın göstərir. Belə ki, müxtəlif illərdə aparılmış kameral təsvirlərdən (kameral təsvir ekspedisiya əsasında və yaxud bəlli məkandan əyani formada toplanmış materiallardır) məlum olur ki, kənddə 1824-cü ildə 13 evdə 71nəfər yaşadığı halda 1863-cü ildə 91 evdə 822 (382 nəfəri qadın), 1873-cü ildə 133 evdə 982 (459 nəfəri qadın), 1886-ci ildə isə 106 evdə 1142 (539 nəfəri qadın) nəfər yaşamışdır.

Şubhəsiz ki, əhali sayındakı kəskin artım həm də köçürmə siyasətinin nəticəsində baş vermişdir.

Həmin dövrlərdə kənddə ermənilərlə yanaşı azərbaycanlı, ləzgi və udi millətindən olanların yaşaması isə danılmaz faktdır. Məsələn, XVIII əsrin sonlarında və XIX əsrdə Yaqublu kəndində Abdurahman, Mustafa, Hacı, Məcnun, Qurban, Yaqub, Silikovlar, Rüstəm, Dilənçi, Murad, Alı adlı şəxslərin və 1826-cı ildə həmin kənddə anadan olmuş Əsgər Hacı oğlu Salami adlı şairin yaşaması və ana dilində şeirlər yazması, 1794-cü ildə buraya Şəki xanı Məhəmmədhəsən xanın zamanında Dağıstandan hərbi məqsədlə - hərbi yürüşlərdə iştirak etmək üçün atlı ləzgi dəstələrinin gətirilməsi, elatların (onlar əsasən türksöylu xalqlara aid edilir) və ləzgilərin burdan qışlaq yeri kimi istifadə etməsi, məscid xarabalığının olması da dediklərimizi təsdiq edir.

1886-cı ildə aparılmış kameral təsvirdən o da məlum olur ki, həmin dövrdə kəndin yaxınlığında Yaqublu kənd icmasına daxil olan və cəmi 16 nəfərin yaşadığı Duruca adlı kiçik yaşayış məntəqəsi mövcud olmuşdur. Qeyd edək ki, bu adda Türkiyədə, Azərbaycanın Qəbələ rayonunda kəndlər, Oğuz rayonunda dağ da var. Məntəqənin adının sırf türk mənşəli olmasından belə anlaşılır və güman olunur ki, burada əsasən müsəlman xalqların nümayəndələri yaşamışlar. Amma nədənsə, kameral təsvirlərdə kənddə yaşayan müsəlmanların, o cümlədən ali müsəlman silkinə aid ruhanilərin sayı göstərilməyib. (?) Görünür, burda da erməni barmağı olub.

Şahidlərin ifadələri və faktlar göstərir ki, XIX əsrin II yarısında kəndə Rusiyadan malakanlar, Qarabağdan isə yeni erməni ailələri köçürülmüşdür.

Ermənilərin əraziyə köçürülməsi başlayandan az sonra onlar yerli xalqların nümayəndələrinə - azərbaycanlılara, ləzgilərə, udilərə, onların məscid və kilsələrinə qarşı təcavüzə başlamışdılar. Daşnaklar tezliklə etnik udilərin kilsələrində hökmranlığı ələ almışdılar. Çox güman ki, yuxarıda haqqında bəhs etdiyimiz məsçid də ya müsəlmanlar kəndi məcburən tərk etdiyi üçün baxımsız qalaraq xarabalığa çevrilmiş, ya da burada məskunlaşdırılmış ermənilər tərəfindən dağıdılmışdır.

Ermənilər yerli əhalini evlərindən çıxarır, onlara məxsus olan əmlakı mənimsəyir, talançılıq edir, əhalini soyur və incidirdilər. Nəticədə azərbaycanlılar, ləzgi və udilər tədricən kəndi tərk etməyə başlamışdılar. 1886-cı ildə aparılmış kameral təsvirdən də göründüyü kimi, XIX əsrin sonlarında burada - Yaqublu kəndində Azərbaycan, ləzgi və udi xalqlarının nümayəndələrindən cəmi 10-15 nəfər qalmışdı.

Beləliklə, köçürmədən sonra kənddə əhalinin etnik tərkibi sünii şəkildə kəskin dəyişdirilmiş, burada ermənilər sayca üstünlük təşkil etməyə başlamışlar. S.Z.Quliyeva 2014-cü ildə "Bakı Universitetinin Xəbərləri"nin (Humanitar fənlər seriyası) 2-ci sayında dərc etdirdiyi "Vartaşen (Oğuz) rayonunun milli tərkibi (1930-1999-cu illər)" adlı məqaləsində yazır ki, XX əsrin əvvəlində

Yaqublu (o cümlədən Top və Zərrab) kəndində ermənilər sayca üstünlük təşkil ediblər.

Ermənilərin qeyri millətlərin nümayəndələrinə qarşı təcavüzləri isə bitib tükənmək bilmirdi. AXC-nin yaratdığı "Fövqəladə Təhqiqat Komissiyası"nın 1918-ci ilin yazında və yayında ermənilərin etdikləri vəhşiliklər barədə topladığı materiallarda oxuyuruq: "Qəbələdən aşağı Vartaşen kəndində baş qərargahı (qərargahın rəisi latış Bredis olub, onlar dağlıq erməni kəndlərini nəzarətə götürmüşdülər -İ.V.) Qayabaşı kəndində olan bütöv qarnizon yaradılmışdı...Nuxaya gedən yolda ermənilər biçindən evə qayıdan və heç bir günahı olmayan 23 nəfər azərbaycanlı biçinçini öldürmüşlər.", Bundan başqa Savalan yaxınlığındakı Palantökəndə 7 nəfər ləzgini vəhşicəsinə qətlə yetirmişdilər. (16,səh:96-114)

1918-ci ilin fevral ayında Nuxa (Şəki)-Vartaşen (Oğuz) bölgəsində Yaqublu erməniləri ilə də sıx əlaqə saxlayan, Vartaşen qarnizonun zabitlərindən Ter Qriqoryants (mənbələrdə onun üzdəniraq S.Şaumyanın qohumu olduğu göstərilir) adlı bir daşnak baş qaldırmışdı. Qayabaşıdakı baş qərargahla sıx əlaqə saxlayan Ter Qriqoryants Nuxa və Ərəş qəzalarının erməni milli şuralarının üzvü, sonralar sədri olmuş, özünü hər iki qəzanın komissarı elan etmişdi. Bu quldur erməni kəndlərini, o cümlədən Yaqublunu gəzərək əhalini silahlanmağa və alaylar təşkil etməyə çağırırdı. Oz dəstəsi ilə müsəlman kəndlərinin əhalisinə hücum çəkərək qətl və

qarətlər törədirdi. O, qısa müddətdə 20 müsəlman kəndini viran qoymuşdu. AXC yarandıqdan sonra da bu daşnak bölgədə hökumətlə əlaqəni kəsmək, özü başda olmaqla erməni çoxluğundan ibarət hökumət yaratmağa çalışırdı.(16,səh:96-114)

Qətliamlarda Yaqubluda məskunlaşmış ermənilər də çox fəal iştirak edirdilər. Daşnaklar Qayabaşıdakı qərargahla sıx əlaqə saxlayır, onlara hər cür maddi-mənəvi köməklik edir, silahlanır və aldıqları əmrləri yerinə yetirir, Bakıya və Tiflisə böhtan dolu məktublar göndərirdilər. Yaqublu ermənilərinin bəziləri Qayabaşıdakı qərargahın və Vartaşendəki (Oğuzdakı) qarnizonun qeyri-rəsmi üzvləri idilər. Ermənilər zorla qriqorianlaşdırdıqları udi kilsələrində müsəlmanların hər cür qətlə yetirilməsini təbliğ edirdilər.

Ermənilərin kənddə yaşayan digər xalqların nümayəndələrinə qarşı aqressiv münasibəti gücləndiyinə görə XX əsrin əvvələrində azlıqda qalan azərbaycanlılar, ləzgilər və udilər buranı birdəfəlik tərk etməyə məcbur oldular. Yuxarıda Alban-udi Xristian İcmasının sədri, etnik udi Robert Mobilidən gətirilmiş iqtibasdakı "XX əsrin əvvəllərinədək ..." ifadəsi də dediklərimizi sübut edir. Ermənilər kəndi məcburən tərk etmiş azərbaycanlı, udi və ləzgilərin geri qayıtmaq ehtimalını nəzərə alaraq onların evlərini talan edib yandırmışdılar.

Söyləntilərə görə, kənddə yaşayan udilərin xeylu hissəsi Qəbələ rayonun Nic kəndinə, Vartaşenə (Oğuza) və

Gürcüstana köç etmişlər. Alban-udi Xristian İcmasının sədri, Baki Dövlət Universitetinin böyük elmi işçisi Robert Mobilinin bu sətrlərin müəllifinə dediyinə görə, hazırda Nic kəndinin Dəlləkli məhəlləsində yaşayan dallarilərin bəziləri həmin udilərin nəvə-nəticələridir.

1918-ci ilin yazında çox yerdə olduğu kimi, Yaqubluda da erməni silahlı dəstələri müsəlman xalqların nümayəndələrinə qarşı qırğınlara başlamışdılar. Onlar adətən səhərlər, hava tam açılmamış müsəlman kəndlərinə silahlı hücumlar edir, qətl və qarətlər törədir, hava işıqlanan kimi çəkilib gedirdilər. Amma yalandan Bakıya və Tiflisə müsəlmanların təzyiq və təqiblərinə məruz qalmaları barədə məktublar göndərir, “imdad” diləyirdilər.

Ermənilərlə, onların rəhbərləri ilə aparılan söhbətlər, qaçqınların yerləşdirilməsi və kəndlərin qarşılıqlı dəyişdirilməsi barədə edilmiş təkliflər, köməkliklər, güzəştlər və xəbərdarlıqlar da heç bir nəticə vermirdi. Erməni mənbələrində də (“Proqrammı armyan v Bakinskoy i Elizavetpolskoy qubernie” sənədlər və materiallar məcmuəsi) qeyd olunduğu kimi, 3 may 1918-ci il tarixdə Padar və Yaqublu kəndləri arasında neytral zonada Zaqafqaziya müftisi Mustafa Əfəndizadənin; Nuxa və Ərəş qəzalarının rəhbər şəxslərinin, 32 kəndin rəsmi nümayəndələrinin (müsəlman və ermənilərin) iştirakı ilə keçirilmiş geniş sülh konfransında kəndlərin qarşılıqlı dəyişdirilməsi, ədavətə son qoyulması və dinc-yanaşı yaşamaq barədə razılıq əldə olunsa da, sonralar erməni

daşnakları tərəfindən bu razılaşmalar pozulmuşdu. (16,səh:110) Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın qaçqın düşmüş ermənilərin ərazidəki müxtəlif kəndlərə, o cümlədən Yaqubluya yerləşdirilməsi təklifi də erməniləri qane etməmiş, onlar öz murdar əməllərini davam etdirmişdilər.(16,səh:113)

Özünü Nuxa və Ərəş qəzalarının komissarı elan etmiş Ter Qriqoryants da baş verən erməni vəhşiliklərini dana bilmir, məcburiyyət qarşısında qalıb, ermənilər tərəfindən müsəlmanlara qarşı müxtəlif quldurluq hərəkətlərinin baş verdiyini təsdiq edirdi.(16,səh:101)

1918-ci ildə Batum müqaviləsinə əsasən köməyə gəlmiş türk hərbi qüvvələri yerli qüvvələrlə birlikdə Miralay Süleymanovun komandanlığı altında qısa müddət ərzində Qayabaşıdakı terror yuvasına çevrilmiş erməni qərargahını ləğv edərək, 1918-ci ilin iyul ayının altısında oradan "8 vers" şimal-şərqdə yerləşən Yaqublu kəndini də erməni daşnaklarından təmizləmişdi. Ermənilərdən müsəlmanları qətl etmək üçün istifadə etdikləri yüzlərlə müxtəlif növlü odlu silahlar–pulemyot, tüfəng, tapança, bomba, çoxlu sayda patron və başqa soyuq silahlar toplanmışdı. (16,səh:111)

Onu da qeyd etmək maraqlı olardı ki, kənd sakinlərindən K.Qafaroğlu, Qurban və Əkbər Qurbanov qardaşları da bir müddət türk hərbi qüvvələrinin tərkibində daşnaklara qarşı mübarizə aparmış, rayondakı digər kəndlərin də erməni quldurlarından azad olunmasında

iştirak etmişdilər. Yaqublu sakinləri ölənə kimi onlara fəxrlə “türkün saldatı” deyirdilər.

Etdikləri qanlı cinayətlərə görə ciddi cəzalanacaqlarını bilən ermənilər qəsdən öz evlərini yandırıb viran qoyaraq buranı birdəfəlik tərk edib, meşələrdə, Nic, Böyük Söyüdlü, Calud, Vartaşen və digər kəndlərdə, böyük bir hissəsi isə Gürcüstanda – ruslar tərəfindən salınmış “Sarskiy Kolodsı” hərbi şəhərciyində gizləndilər. Yeni fürsətlər gözləməyə başladılar.

Yalan və böhtan dolu “Proqramı armyan v Bakinskoy i Elizavetpolskoy qubernie” sənədlər və materiallar məcmuəsi ilə tanışlıq göstərir ki, sonralar daşnaklar evlərin viran edilməsi, yandırılması, su mənbələrinin və ev heyvanlarının məhv edilməsi, kilsələrin uçurulması, uşaqların, qadınların və qocaların öldürülməsi, var-dövlətlərinin talan olunması və s. barədə nağıllar uydurmuş, törətdikləri əməlləri türk əsgərlərinin və yerli müsəlmanların üstünə atmış, onları şərləyərək özlərini məzlum və günahsız göstərib, Bakı və Tiflisə iftiralarla dolu məktublar göndərmiş, saxta sənədlər düzüb-qoşmuşlar. Bunlar isə erməni xislətindən doğan təbii hallar idi.

1921-ci ildə Azərbaycan kənd təsərrüfatı siyahıyaalma materiallarında həmin dövrdə rayon ərazisində olan 9 kəndin - Axpilakənd, Salabəyli, Cucamış, Məclis, Qozlu, Zərrab, Top, Yenikənd, o cümlədən Yaqublunun ermənilər tərəfindən dağıdılıb viran qoyulduğu qeyd edilmişdi.

Tarixi mənbələrdə qeyd edilir ki, yuxarıda adları göstərilən dağıdılmış kəndlərdən Yaqublu və Zərrabda müsəlman əhalinin yenidən məskunlaşması daha tez başlamışdır.

Faktlar göstərir ki, 1918-ci ilin sonlarından Yaqubluda azərbaycanlıların sayı tədricən artmağa başlamışdı. Artım əsasən İrəvan quberniyasının Üçkilsə (Eçmədzin, sonralar Talin rayonu adlanmışdır) qəzasının Ağcaqala, Eşnək, Dian, Quldərviş, Əkərək və Yuxarı Kolanı (Qərbi Azərbaycandakı həmin kəndlərdə 1918-1919-cu illərdə ev və əhali sayı müvafiq olaraq belə olmuşdur: Ağcalalada-72/420; Eşnəkdə-145/677; Dianda-92/432; Quldərvişdə-48/357; Əkərəkdə-99/629; Yuxarı Kolanıda-159/768) kəndlərindən deportasiyaya məruz qalaraq gələnlərin hesabına olmuşdur. Bu barədə Yaqublu kəndinə ilk gələnlərdən ağcaqalalı Q.Abbasov "şeirlərində" acı-acı söyləyirdi:

Dağıstanın dağı qardı,
Qaşqınlar yapa-yalqızdı.
Daşnak İrəvandan qalxızdı,
Yurdu talan bizik dedim...

Bu görükən Bayan düzü,
Qaşqınlar kəvərə süzü,
Ya əllisi, ya da yüzü,
İsitmə olacaq dedim...

İki çalğaynan burda bənd olduq,
Altmış kənd yığıldıq bircə kənd olduq.
Az qala acından məzara dolduq,
Şikayət eylərəm halımdan sizə...

Azərbaycan SSR Xalq Təsərrüfatı Uçotu İdarəsi (AzNHU) tərəfindən 1933-cü ildə hazırlanmış "ASSR-in inzibati bölgüsü" nəşrinə əsasən 1933-cü il yanvarın birinə olan vəziyyətə görə kənddə 43 fərdi təsərrüfatda 65 nəfəri qadın olmaqla cəmi 134 nəfər yaşadığı halda (17,səh:169), 1934-cü ildə 55 fərdi təsərrüfatda 206 nəfər yaşayırmış. (18,səh;144) Bir il ərzində əhali sayındakı artım miqrasiyanın davam etdiyini göstərirdi.

Çünki yuxarıda adı şəkilən kəndərdən qaçqın düşən soydaşlarimız bir müddət Türkiyə Respublikasında, Azərbaycanın Gəncə şəhərində, Qazax rayonunda, Goranboy rayonunun Dəlməmmədli və Nəriman, Şəki (Nuxa) rayonunun Cəyirli və Qayabaşı, Qəbələ rayonunun Nic və Mıxlıqovaq, Oğuz (Vartaşen) rayonunun Oğuz-qışlaq və Bayan kəndlərində qısa bir müddət yaşadıqdan sonra, sonrakı illərdə tədricən, qohum-əqrabalarını və həmkəndlilərini axtara-axtara gəlib Yaqubluya yerləşmişdilər. 1940-cı ilə kimi miqrasiya, demək olar ki, başa çatmışdı.

Artıq Qərbi Azərbaycanının (Ermənistanın) adı çəkilən kəndlərindən deportasiya olunanların Yaqubluda məskunlaşmasından 100 ildən çox vaxt keçir.

Arzu edən oxucular həmin illərdə Qərbi Azərbaycandan deportasiya olunmuş həmkəndlilərimizin bəzilərinin adları ilə aşağıda göstərilmiş saytdan tanış ola bilərlər: shttp://deportasiya.az/az/DeportInfo

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1941-1945-ci illərdə (müharibə dövründə) kəndə Rusiya, Ukrayna və Belorusiyanın işğal olmuş ərazilərindən az sayda (11 ailə) rus, ukrayna və belorus ailələri köçürülmüşdür. Müharibə qurtarandan bir neçə il sonra onların əksəriyyəti kənddi tərk etmişdilər. 1960-ci illərin sonlarında köçüb gedən İvan kişinin ailəsi isə kəndi tərk edən sonuncu rus ailəsi idi.

1947-ci ildən sonra kəndə Cənubi Azərbaycandakı inqilabi hərəkatın iştirakçıları, İran şahının təqibindən canını qurtarmış və 1948-1951-ci illərdə Ermənistandan köçürmə adı ilə yenidən deportasiya olunmuş soyadaşlarımız da gələrək burada məskunlaşmışlar.

Müxtəlif illərdə bura Dağıstandan və qonşu kəndlərdən də ailələr köçmüşdür.

1988-1993-cü illərdə Yaqubluya Ermənistandakı yurd-yuvalarından, Azərbaycanın erməni quldurları tərəfindən işğal olunmuş Kəlbəcər, Laçın, Ağdam, Cəbrayıl, Şuşa və Xocalı rayonlarından qovulmuş və didərgin salınmış soydaşlarımızın yeni axını başlamışdır. 2003-cü ildə kənddə 1991-1993-cü illərdə işğal olunmuş Kəlbəcər, Laçın, Ağdam, Cəbrayıl, Şuşa və Xocalı rayonlarından

gələn 140 nəfər yaşayırdı. Onlar üçün kəndin cənub-qərbində beynəlxalq humanitar təşkilatın vəsaiti ilə 25 ailəlik yaşayış məntəqəsi salınmışdı. (Onların çoxu bir müddətdən sonra köçərək ölkənin digər kənd və şəhərlərinə getmişlər.)

1990-cı illərdə kəndə Özbəkistandakı qarşıdurma nəticəsində evlərini tərk etmiş bir neçə mesxeti türk və Gürcüstan Respublikasının Marnauli rayonundan bir neçə azərbaycanlı ailəsi pənah gətirmişdilər.

Şübhəsiz ki, əhalinin tarixinin və say dinamikasının müəyyənləşdirilməsində bu amillər nəzərə alınmalıdır.

Statistik rəqəmlər göstərir ki, 1978-ci ildə kənddə 68 fərdi təsərrüfatda 369, 1994-cü ildə 158 təsərrüfatda 511, 2000-ci ildə 166 fərdi təsərrüfatda 587 nəfər yaşamışdır.

Oğuz Rayon İcra Hakimiyyəti Başçısının Yaqublu İƏD üzrə nümayəndəliyinin məlumatına görə, 01.01.2022-ci il tarixi vəziyyətinə kənddə 198 fərdi təsərrüfatda 332 nəfəri kişi, 328 nəfəri qadın olmaqla cəmi 660 nəfər əhali yaşayır. Əhalinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edir. Burada çox az sayda ləzgi və digər millətlərin nümayəndələri yaşayır ki, onlar da qarışıq nigahda olanlardır və ailə başçılarının hamısı azərbaycanlılardır. Kənd əhalisinin hamısı müsəlmandır.



**Kolxozun keçmiş malikanəsi (hazırda Yaqublu Bələdiyyəsinin binası)**




**Yaqublu kəndinin poçtu - 2022-ci il**

## Kəndin iqtisadiyyatı haqqında

Yaqublu kəndinin coğrafi mövqeyi əkinçilik və heyvandarlığın inkişafı üçün geniş imkanlar açır. Ona görə də kəndin əsası qoyulandan bəri buranın əhalisinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıq olmuşdur.

Kənddə iri tut bağlarının (tut bağının bir hissəsi hələ də qalır) və kiçik üzüm bağlarının olması isə XIX əsrdə burda ipəkçiliyin və şərabçılığın da inkişaf etdiyini göstərir.

XIX əsrdə çar Rusiyası tərəfindən aparılmış kameral təsvirləri tədqiq etdikdə, əhalinin sosial-zümrə quruluşunu da müəyyən etmək olur. Siyahıyaalmaya əsasən demək olar ki, həmin dövrdə hakim təbəqəni bəylər və ruhanilər, aşağı təbəqəni isə kəndlilərin müxtəlif kateqriyaları – dövlət kəndliləri, sahibkar kəndlilər və rəncbərlər təmsil etmişlər.

XIX əsərdə kənd camaatının sosial tərkibində sahibkar kəndlilər üstünlük təşkil etmişlər. (19,səh:149 və 169) Onlar istifadə etdikləri torpağın müqabilində vergi verir və müəyyən mükəlləfiyyətlər daşıyırdılar.

Tiflisdə dərc olunmuş "Nor-Dar" qəzetinin 7 sentyabr 1887-ci il tarixli 151-ci sayında Yaqublu kəndinin Silikovların mülki olduğu göstərilir. İlk dəfə bura kənd təsərrüfatı texnikasını da onlar gətirib. Lakin kəndlilər həmin texnikaları işlədə bilmədikləri üçün tezliklə sıradan çıxarmışdılar. M.Bejanov 1896-cı ildə yazırdı ki,

“...Yaqublu kəndinin sakinləri Stepan Silikovun (udi mənşəlidir-İ.V.) torpaqlarında yaşayırlar. O, hərbi qulluqçu olmasına baxmayaraq, öz torpaqlarını icarəyə verir, bu yolla geniş sahələrini əkib becərtdirir. Onun kiçik qardaşı Rüstəm isə hər il Yaqublu kəndinə gələrək yetişdirilmiş məhsulun toplanmasında iştirak edirdi. Belə ki, o, 1895-ci ildə 10000 put buğda, 3000 put arpa, bir o qədər darı, 10000 araba ot və 400 araba saman toplamış və üstəlik 2000 manat qışlaq haqqı pul almışdı.”(20,səh:96-97)

Göründüyü kimi, kənd həm də qışlaq yeri olub. Burdan qışlaq kimi istifadə edənlər əsasən elatlar və ləzgilər olub.

Yuxarıda göstərilən mənbədən həmçinin məlum olur ki, kəndlilər istehsal etdikləri məhsulun onda biri qədər icarə haqqı verirlərmiş. Bir nəfər kəndli öz gücü ilə 60 puta qədər buğda əkməyə qadir olub. Arpa və buğdanın məhsuldarlığı 15-20 sentner, darı isə bundan artıq məhsul verirmiş.

1901-ci ildə Vartaşendən (Oğuzdan) Bayana, oradan isə Yaqublu kəndinə qədər çəkilən qumlu-çınqıllı yol kənddə iqtisadiyyatın və ticarət əlaqələrinin inkişafına öz müsbət təsirini göstərirdi.(16,səh:70)

1900-1930-cu illərdə də kəndin iqtisadiyyatında əsasən əkinçilik və heyvandarlıq aparıcı sahə olaraq qalırdı.

1920-ci ildən sonra xırda kəndli təsərrüfatları yaradılmış, bütün torpaqlar əhaliyə paylanmışdı. Vergi mükəlləfiyyətləri xeyli yüngülləşdirilmişdi. Arxiv

sənədləri göstərir ki, 1933-cü ilin yazında xırda kəndli təsərrüfatları tərəfindən 37 hektar sahədə arpa, 70 hektar sahədə buğda, bundan başqa xeyli sahədə payızlıq taxıl və çovdar əkilmişdir. Həmin dövrdə şəxsi təsərrüfatlarda 123 baş inək, 88 baş camış, xeyli sayda qoyun-keçi, at və quş bəslənilirdi.(21,səh:144)

1934-cu ildə Yaqubluda kollektivləşmə aparılmış - xırda kəndli təsərrüfatları məcburən ümumi təsərrüfatda birləşdirilmişdi. 1934-cü ilin sentyabr ayında kənddə kolxoz (rusca "кollektivnoe xozyaystvo" sözlərinin ixtisarı) - kollektiv təsərrüfat təşkil edilmişdi. Kolxoz əvvəlcə S.Rəhmanovun adını daşıyırmış, sonralar isə "Komsomol" adlandırılmışdır. Kolxoz yaranarkən lik dəfə ora cəmi 14 nəfər təktəsərrüfatçı daxil olmuşdur. Kolxozun cəmi 30 baş mal-qarası vardı. Əkin planı isə 35 hektar idi.(18)

İllər keçdikcə "Komsomol" kolxozunun iqtisadi göstəriciləri də yüksəlirdi. Əldə edilmiş nəticələrə görə kolxoz 1940 və 1941-ci illərdə Ümumittifaq kənd təsərrüfatı sərgisində iştirak etmək hüququ qazanmışdı. Həmin illərdə qabaqcıl kolxozçulardan bir qrupu Moskvada Ümumittifaq kənd təsərrüfatı sərgisində iştirak etmişdi. 1940-ci ildə rayonda çıxan "Varlı həyat" qəzeti yazırdı ki, "Komsomol" kolxozu 1940-cı ildə Ümumittifaq kənd təsərrüfatı sərgisində iştirak etmişdir. Bu il taxıl sahələrindən 12 sentner əvəzinə 18 sentner buğda və 18 sentner arpa götürülmüşdür."(22) 1940-cı ildə kolxozun fermalarında 118 baş inək, xeyli sayda qoyun-keçi bəslənilirdi.(18, səh:32)

1941-1945-ci illərdə - müharibə dövründə "Komsomol" kolxozu rayonun qabaqcıl və varlı, bütün tədarük planlarını artıqlaması ilə yerinə yetirən kolxozlarından biri idi.

"Aclıq illərində" kolxoz qonşu kəndlərdən və Dağıstandan gəlmiş yüzlərlə imkansıza kömək etmiş, geridə qalan digər kolxozlara yem və toxumla yardım göstərmiş, müdafiə fonduna küllü miqdarda vəsait köçürmüşdü. Məsələn, kolxoz tank istehsalı üçün 100 min rubl vəsait köçürmüşdür.(18,səh:69)

Kolxozun vəsaiti hesabına tikintisinə 1940-cı ilin əvvəlindən başlanmış və 1946-ci ildən istismara verilən kənd dəyirmanı əhalinin un və çəltik məhsulları ilə təminatını xeyli yaxşılaşdırmışdı. Bu vaxta kimi buğda üyütmək üçün qonşu, o cümlədən Şəki rayonunun kəndlərinə gedən və günlərlə vaxt itirən kənd sakinlərinin işi xeyli yüngülləşmişdi. Dəyirmanın işə salınması və burada elektrik enerjisi almaq üçün "Komsomol" kolxozunun 24 mart 1946-ci il tarixli ümumi yığıncağının qərarı ilə bölünməz fondundan 15000 manat vəsait xərclənmişdi. Sonralar burada çəltiyi qılafdan təmizləmək üçün ding, 1968-ci ildə isə taxta istehsal edən sex qurulmuşdu. 1940-ci illərdə dəyirmanın yaxınlığında əhəng sexi də fəaliyyət göstərirdi.(18,səh:35,145)

Kolxozun əsas nəqliyyat vasitələri kəl və at arabaları (furqonlar) idi.

Arxiv materialları göstərir ki, 1949-cu ildə kolxozda 150 ha sahədə payızlıq buğda, 40 ha sahədə arpa, 25 ha sahədə darı, 40 ha sahədə paxlalı bitkilər əkilmişdir. 1950-

ci ildə kolxozun balansında 81850 manat dəyərində mal-qara, 60 baş at, arı ailəsi və quş bəslənilirdi.(18,səh:38) Həmin illərdə emal sexləri də fəaliyyət göstərilirdi. Burada fermalarda istehsal olunmuş süddən qatıq, yağ, şor, pendir və digər məhsullar hazırlanır, kolxozçuların əmək gününə bölünürdü.(18,səh:35)

1950-ci illərdə kolxozda baramaçılığın da inkişafına başlanmışdır. Baramaqurdu indiki Yevlax rayonunun Qaradeyn (Kürün sahilində yerləşir) kəndində bəslənilirdi. Təsərrüfata ziyanla başa gəldiyinə görə qısa müddətdən sonra baramaqurdu bəslənməsi dayandırılmışdı.

1950-ci ilin sentyabr ayında Yenikənd, Top və Zərrab kəndlərindəki kolxozlar da Yaqublu kəndindəki kolxoza birləşdirilmişdi.(18,səh:146-147) On ildən sonra -1960-cı ildən isə həmin kolxoz qonşu Kərimli (Vardanlı) kəndindəki “Qələbə” kolxozunun tərkibinə verilmişdi.

1965-ci ildə kənddə Yaqublu, Yenikənd, Top və Zərrab kəndlərini də əhatə edən “Azərbaycan” adlı yeni kolxoz yaradılmışdır. Kolxoza dövlət aktı ilə 2481 hektar torpaq sahəsi təhkim olunmuşdur.(18,səh:147)

“Azərbaycan” kolxozunun iqtisadiyyatının əsasını əkinçilik, heyvandarlıq və tütünçülük təşkil edirdi. Əkinçiliyin əsasını dənli və dənli-paxlalı bitkilər (buğda, apra, qarğıdalı, darı, vələmir, günəbaxan və s.), heyvandarlığın əsasını isə iribuynuzlu mal-qara, qoyunçuluq və quşçuluq təşkil edirdi. Kolxozun qoyun sürüləri qış aylarında Sarıca və Ağdib düzlərindəki yataqlarda, yaz-yay aylarında isə Böyük Qafqazın yüksəkliklərindəki səfalı Tülkülər, Ağızlar, Yastıdaş,

Çuxadurmaz, Ağbulaq, Qarayataq və Tayaqoşun yaylaqlarında bəslənilirdi.

Tütünçülüyn inkişafı üçün "Azərbaycan" kolxozunun öz vəsaiti ilə kəndlərdə subartezian quyuları qazılmış, su anbarları (göllər) və quruducu sexlər (saraylar) tikilmişdi. Sonralar tütün saraylarındakı həmin sexlər hamısı mexanikləşdirilmiş və avtomatlaşdırılmışdı.

Kolxoz 1965-ci ilin avqust ayından Vartaşen (Oğuz) rayonundakı kolxozlararası tikinti idarəsinin üzvü olmuşdur.(18,səh:174)

1966-cı ildə "Azərbaycan" kolxozu dövlətə plandan artıq 40 ton taxıl, 50 ton süd, 10 ton tütün, 500 kq. yun; 1967-ci ilin 6 ayı ərzində isə 30 min 600 ədəd əvəzinə 57 min ədəd yumurta satmışdır.

Qeyd edilənərlə yanaşı, həm kolxoz təsərrüfatında, həm də şəxsi təsərrüfatlarda meyvə və bostan-tərəvəz bitkiləri də becərilir, arı ailələri bəslənilirdi. Bu illərdə şəxsi təsərrüfatlar da inkişaf edirdi. Məsələn, 1967-ci ildə şəxsi təsərrüfatlardan ehtiyacdan artıq olan 5 tondan çox ət, bir tondan artıq yun və 17000 ədəddən çox yumurta tədarük edilərək dövlətə satılmışdı.

1970-ci illərin əvvəlində kolxozda pambıqçılığın inkişafına da cəhd göstərilmiş, sınaq əkini aparılmışdır. Lakin perspektivsizliyi nəzərə alınaraq imina edilmişdir.

1971-ci ildə kolxoz 999,4 ton dənli və dənli-paxlalı məhsul, 166,1 ton tütün, 31,1 ton diri çəkidə ət, 235,9 ton süd və 162700 ədəd yumurta istehsal etmişdi.

"Azərbaycan" kolxozunun 04 may 1978-ci il tarixli 4 saylı 361 nəfərin iştirak etdiyi ümumi yığıncağında

kolxozun üzümçülük sovxozuna çevrilməsi məqsədəuyğun hesab olunmuş və qərarın icrası rayon XDS İK-dən xahiş edilmişdir.(18,səh:149) Üzümçülük sovxozu yaradıldıqdan sonra tütünçülüyün inkişafına son qoyulmuş, kənddə smeta dəyəri 328 min manat olan 10 min dekalitr gücündə üzümün ilkin emalı zavodunun inşasına başlanmışdı.1979-cu ildə 380 ha, 1980-cı ildə isə 210 ha, o cümlədən 20 ha sahədə süfrə üzümü əkilməsi, 1983-cü ildə kəndlər daxilində 5 km. uzunluğunda qaz kəmərinin çəkilişi nəzərdə tutulmuşdu.(18,səh:149)

1980-cı illərin əvvəllərində Azərbaycan Respublikası Üzümçülük və Şərabçılıq Komutəsinin sədri Y.Rzayev kəndə gəlmiş, üzümçülüyün inkişafı üçün görülən işlərlə tanış olmuş, kənd sakinləri ilə görüşüb onların tələb və təkliflərini öyrənmişdir.

İntensiv üzüm istehsalına 1980-cı əvvəllərindən başlanmışdı. Belə ki, sovxozda 1983-cü ildə 2853 ton, 1987-ci ildə 2676 ton üzüm istehsal olunmuşdur.(18, səh:41,152) Məhsulun emalı isə kənddəki üzümün ilkin emalı zavodunda həyata keçirilirdi. Bu zavod kənddə tikilmiş ilk sənaye müəssisəsi sayılırdı. Burada əsasən üzüm şirəsi, spirtli içkilər, sirkə, konserv məhsulları və “Oğuz-2” mineral su istehsal olunurdu.

Ədalət naminə deməliyik ki, 1950-ci ildən sonra kolxozun və sovxozun iqtisadi göstəricilərinin yüksəlməsində yaqublulularla yanaşı, qonşu Yenikənd, Top və Zərrab kəndlərinin sakinlərinin də böyük əməyi olmuşdur.

1990-cı ildən etibarən yenidən kolxoz təsərrüfatına qayıdılmışdı.1995-ci ildə kolxoz üzümün ilkin emalı zavoduna birləşdirilmişdi.

1997-ci ildə həyata keçirilən aqrar islahatlarla əlaqədar kənddəki kolxozun fəaliyyətinə son qoyulmuş, əmlak və torpaq sahələri, o cümlədən üzüm bağları təsərrüfatın özünün üzvləri arasında bölüşdürülmüşdü. Zavod isə sahibkarlıq obyektinə - səhmdar cəmiyyətə çevrilmişdi.

Şəxsi torpaq sahələrindən 1998-ci ildə 107, 2002-ci ildə isə 400 tondan çox taxıl istehsal edilmişdir.

2003-cü ildə kənd əhalisinin sərəncamında xüsusi mülkiyyət kimi əkin sahəsinin cəmi 390 hektardan, həyətyanı torpaq sahələrinin cəmi isə 30 hektardan çox idi.

Qısa müddətdən sonra üzüm bağları sıradan çıxmışdır. Bu gün kənd əhalisinin əsas məşğuliyyəti yenə də heyvandarlıq, əkinçilik və qismən tütünçülükdür.

Oğuz Rayon İcra Hakimiyyəti Başçısının Yaqublu İƏD-si üzrə nümayəndəliyinin rəsmi məlumatına görə, 01.01.2022-ci tarixi vəziyyətinə kənd əhalisinin şəxsi təsərrüfatlarında 379 baş mal-qara, 690 başdan çox qoyun-keçi, xeyli sayda arı ailəsi, ev quşları və s. bəslənilir. 2021-ci ildə 257 ha sahədə buğda, 300 ha sahədə arpa əkilmişdir. 822 ton buğda, 870 ton arpa və vələmir istehsal olunmuşdur. Buğdanın məhsuldarlığı 32, arpanın məhsudarlığı isə 29 sentner olmuşdur.

Son 100 ildə kənddə öz işinin ustası olan onlarla, yüzlərlə əkinçi, heyvandar, bağban və bostançı, mexanizator və sürücü, dəmirçi və qaynaqçı, dəyirmançı, bənna və dülgər, üzümçü və tütünçü, müəllim və həkim,

aqronom, baytar, çayçı, bərbər və dərzi, poçtalyon, ali təhsilli digər müxtəlif peşə sahibləri və iş adamları yetişmişdir. Onlar əhalinin sifariş, tələb və təkliflərinin yerinə yetirilməsində, həyati tələbatlarının ödənilməsində böyük rol oynamış və oynamaqdadırlar.

Son illər isə sahibkarların, ailə-fermer və xırda kəndli fermer təsərrüfatlarının sayı artmaqdadır. İqtisadi islahatlar başlanandan sonra kənddə "Könül", "Bəhruz", "Parket", "Təranə", "Səma", "Şiraslan", "Lalə", "Elman" və s. sahibkarlıq subyektləri fəaliyyətə başlamışdı. Sahibkarlar kəndin sosial-iqtisadi, mədəni həyatının canlanmasında, iqtisadiyyatın inkişafında xüsusi fərqlənirlər.

Kənddə sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilir. Hələ 2015-ci ilin may ayında Yaqubluda İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığın İnkişafına Dövlət Dəstəyi Fondunun işgüzar forumu keçirilmişdi. Forumda ixtisaslaşmış "yaşıl marketin" yaradılması; cins heyvandarlıq, taxılçılıq və bağçılıq təsərrüfatının; çörək və plastik qapı-pəncərə istehsalı müəssisəsinin yaradılması üçün investisiya layihələrinə güzəştli kreditlərin ayrılması qərara alınmışdır. Yığıncaqda Sahibkarlığın İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru cənab Ş.Abdullayev, Oğuz rayon İH-nin Başçısı cənab E.Qurbanov və 80 nəfər iş adamı iştirak etmişdi.

Sevindirici haldır ki, son illər kənddə xeyriyyəçilik işləri ilə məşğul olanların da sayı artmaqdadır. Elinə, obasına bağlı olan həmin insanlar Yaqubluda tikinti və abadlıq işlərinin görülməsində yaxından iştirak edirlər.

Belə işlərdə kənd sakinlərindən Alay İsayevin, Tarel İsayevin, Səhhət İsayevin, Ceyhun Kazımovun, Rəhim Kazımovun, Gündüz İsayevin, Kamil Süleymanovun və Elçin Hüseynovun fəaliyyətləri təqdirə layiqdir. Bunu onların doğma kəndlərinə, onun sosial-iqtisadi tərəqqisinə, sosial-mədəni həyatının yüksəlişinə diqqəti, əhalinin rifah halının yaxşılaşmasına qayğısı, kənd sakinlərinə olan ehtiramı kimi qiymətləndirilməlidir. Onu da qeyd edək ki, yuxarıda adları qeyd olunan gənclər (onlar hələ də nəzərimdə şagird kimi qalıblar) bir zamanlar bizim ən yaxşı şagirdlərimiz olublar. Hələ o vaxtlar bu gənclər böyük arzularla yaşayır, öz ədəb-ərkanları, işgüzarlıqları, cəsarətləri, təşəbbüskarlıqları və təəssübkeşlikləri ilə fərqlənirdilər. Xalq üçün, Vətən üçün, el-oba üçün bütün fədakarlıqlara hazır olan belə gənclərin əməyi hər cür alqışa layiqdir. Onlar yeniyetmələrimizə ən gözəl nümunədirlər.

Bir sözlə, yaqublulular öz çörəklərini daşdan çıxarmağı bacaran adamlar olublar. Onlar halallığı sevmiş və süfrələrinə həmişə min bir əziyyətlə, alın təri ilə qazandıqları çörəyi qoymuşlar.

Saf qəlbli bu insanları yaşadan da əməksevərlik, halallıq, torpağa və el-obaya bağlılıq olmuşdur. Yaqublulluların qapısı qonaq-qara üzünə həmişə açıq olub. Buna görə də süfrələrinin duzu-çörəyi heç vaxt əskik olmamışdır.



Üzümün ilkin emalı  müəssisəsi.  (inzibati bina)



Üzümün ilkin emalı müəssisəsi. (istehsal sexi)



**Baytarlıq məntəqəsi**



**Güllü dağın ətəkləri - 2014-cü il**



Köhnə kənd dəyirmanı. (XX əsrin 40-50-ci illəri)
100 yaşlı tut ağacı



Mağaza binası. XX əsrin 40-50-ci illəri

## Kəndin sosial-mədəni həyatı barədə

Yaqublu kəndinin sakinləri yaxşı işləməyi bacardıqları kimi, milli-mənəvi dəyərlərə, adət-ənənələrimizə sadiq qalmağı, onu qorumağı və yaşatmağı, elm və mədəniyyətə sahiblənməyi, özlərinin ümumi mədəni səviyyələrini yüksəltməyi, asudə vaxtlarını səmərəli təşkil etməyi də yaxşı bacarırlar.

Qonşu bağlı-bağatlı kəndlərin adamlarının dilində həmişə bu kəndin camaatının güzəranı, işi-gücü, xeyir-şər işləri əfsanəyə, söz-söhbətləri zərb-məsələ dönmüşdür.

Kənddə ən yüksək səviyyədə qeyd edilən bayram Novruz bayramı olardı. 1928-ci ildən qadağan olunmasına baxmayaraq, Novruz bayramı hər il coşqu və təntənə ilə qeyd edilirdi. Bayram ərəfəsində rəhmətə gedənlərin yad olunması, kolxozda istehsal olunan və kənd dəyirmanında üyüdülmüş buğdanın unundan şirniyyat və bayram xörəklərinin hazırlanması, kasıblara əl tutmaq və bayram payı göndərmək, gözəl-göyçək yumurtalar boyamaq, "yumurta döyüşdürmək", "papaq atmaq", gənclərin "Kosa-kosa" tamaşası göstərməsi, qapı pusmalar, suya iynə sallamaq, göyə yandırılmış lopa (şar) atmaq və s. yazılmamış ənənələrdən idi. Nə yaxşı ki, bu adətlər indi də davam edir.

Aşıqların şəxsi evlərdə təşkil olunan məclisləri hələ də yaşlı kənd sakinlərinin xatirələrində yaşayır. Onların səhərə kimi söylədikləri dastanlar, nağıllar, qaravəllilər,

ustadnamələr, deyişmələr, saz havaları, balabanın iniltisi günlərlə, aylarla camaatın yaddaşından silinmirdi.

Əvvəlcədən ciddi hazırlıq görülən kənd toyları 2-3 gün davam edirdi. Qara zurnanın və kosun səsi kəndi başına götürürdü. Gənclərin "Zorxana" sədaları altında küştü tutmaları, şabaş vermək, şah bəzəmək, "bəy durma" mərasimi, "bəy oğurlamaq", gəlin arabasının (maşınının) qarşısını kəsib pay almaq, gəlinin qonaq çağrılması, bəy və gəlinin tərifi, bəy və gəlinin üzəçıxma mərasimi, gəlinin bulaq başına getməsi, şirniyyat paylamaq və s. bir ayrı aləm idi. V.Musayevin rəhbərlik etdiyi çalğıçılar dəstəsinin; zurna, balaban və klarnet ustası A.Nağıyevin iştirak etdiyi toylar xüsusi təntənə ilə keçirdi.

Camaat kəndə aşıqların, ilan və ayı oynadanların, simdə oynayan pəhləvanların, gözbağlayıcıların gəlişini həsrətlə gözləyirdi. Çox vaxt Calğalıqda və Xırman yerində təşkil olunan bu xalq tamaşalarında bir konfet üçün "mişkanın" dombalaq aşması, pəhləvanların sim üstündəki təhlükəli tryukları və yalançı pəhləvanın məsxərələri, meymunun meymunluğu, torbadan çıxan ilanın vahiməsi onları həyəcanlandırır və qəhqəhələrə boğurdu.

1934-cu ildə açılmış ibtidai məktəb əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, savadsızlığın aradan qaldırılmasına öz təsirini göstərməyə başlamışdı. 1945-1946-cı dərs ilində natamam, 1971-1972-ci dərs ilində orta

(tam orta) məktəbə çevrilmiş kənd məktəbini yüzlərlə şagird bitirmişdir.

1946-ci ildə "Komsomol" kolxozunun vəsaiti ilə qurulan kənd dəyirmanının istifadəyə verilməsi isə əhalinin un məhsulları ilə təminatında dönüş yaratmışdı.

1947-ci ilin yanvarında kənddə qiraətxana (kitabxana) açılmışdı.(18,səh:146) Kitabxana mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilmiş və əhalinin mütaliə mədəniyyətinin formalaşmasında, onların Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri və mətbuatla tanış edilməsində böyük rol oynayırdı. Qiraət komaları fəaliyyət göstərirdi. 1950-1960-ci illərdə kitabxana müdirlərinin təşkilatçılığı ilə C.Cabbarlının "Sevil","Almaz" və "Solğun çiçəklər"; M.F.Axundzadənin "Hacı Qara"; Ü.Hacıbıyovun "O olmasın, bu olsun" və N.V.Qoqolun "Müfəttiş" əsərlərinin tamaşaya qoyulması böyük marağa səbəb olmuşdu.

1948-ci ildən etibarən kənddə səhiyyə müəssisəsi fəaliyyətə başlamış və məntəqə üçün bina tikilmişdi. "Azərbaycan" kolxozunun 07 dekabr 1965-ci il tarixli 7 saylı ümumi yığıncaq qərarına əsasən Yaqublu kəndində doğum evi açılmışdı. Beləliklə, əhaliyə göstərilən səhiyyə xidmətləri xeyli dərəcədə yaxşılaşmışdı.

2013-cü ildə kənddə Yaponiya hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində layihə dəyəri 106,699 min ABŞ dolları olan və tibb heyətinin 2030 insana xidmət göstərə biləcəyi

poliklinika istifadəyə verilmişdir. Layihənin əsas məqsədi Yaqublu kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər üç kəndin sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaq idi. Poliklinikanın açılışında Oğuz RİH-nin Başçısı E.Qurbanovla yanaşı, Yaponiyanın Azərbaycandakı səfiri Şuşuki Vatanabe də iştirak etmişdir.(24)

1961-ci ildə kolxozun vəsaiti ilə elekrik xəttinin çəkilməsi böyük sevincə səbəb olmuşdur. Bu insanların məişət şəraitini xeyli yaxşılaşdırmışdı. Sonralar kolxozun 06 noyabr 1968-ci il tarixli 4 saylı ümumi yığıncaq qərarı ilə kənddaxili və kəndlərarası elektrik xətləri Şəki elektrik idarəsinin balansına verilmişdi.

1965-ci ildə kənddə klubun açılması isə mədəni-kütləvi tədbirlərin tez-tez keçirilməsinə və keyfiyyətinin yüksəlməsinə öz təsirini göstərməyə başlamışdı. Kəndli gənclərdən ibarət özfəaliyyət dərnəkləri fəaliyyət göstərirdi.

1960-cı illərin sonunda həm kolxoz üçün idarə binası, həm də yeni klub binası tikilmişdir. Klub tezliklə mədəniyyət evinə çevrilmişdi. Müxtəlif vaxtlarda mədəniyyət evində Pespublikanın Xalq artistləri Bülbül, S.Qədimova, T.İsmayılova, E.Rəhimova, S.Aslan, B.Səfəroğlu, N.Qasımova, H.Bayramov, H.Bağırov, A.Quliyev, Ə.Ağayevin; Oğuz rayon mədəniyyət evinin nümayəndələrinin; Şəki, Gəncə və Bakı şəhərlərindən gəlmiş müxtəlif ansamblların, o cümlədən 1975-ci ildə Naxçıvan Dövlət "Araz" mahnı və rəqs ansamblının

verdikləri konsert və tamaşalar kəndin və onun sakinlərinin mədəni həyatında unudulmaz hadisələr idi.(25)

Mədəniyyət evində əhalinin, xüsusən gənclərin asudə vaxtlarının mənalı və səmərəli keçirməsi, istedad və qabiliyyətlərinin aşkara çıxarılaraq inkişaf etdirilməsi üçün hər şərait vardı. Kəndli gənclərin keçirdiyi konsertlər və əyləncəli tamaşalar, müxtəlif baxış və yarışlar, görüşlər, stolüstü oyunlar, 1976-cı ildə mədəniyyət evinin "Zurnaçılar" bədii özfəaliyyət dərnəyinin üzvlərinin Şəki şəhərində keçirilən bədii özfəaliyyət kollektivlərinə zona baxışında birinci yerə çıxaraq Bakı şəhərində keçiriləcək tura dəvət edilməsi hələ də yaddaşlarda qalıb.(26)

XX əsrin 60-cı illərindən kənddə bədən tərbiyəsi və idmanın inkişaf dövrü başlanmışdı. Xüsusən "Azərbaycan" kolxozu yaranandan sonra bu məsələlərə diqqət artırılmışdı. Kolxoz vəsaiti hesabına idman meydançası istifadəyə verilmiş, idman işləri üzrə təlimatçı vəzifəsi müəyyən olunmuşdu. Gənc idmançılar üçün idman avadanlıqları və idman geyimləri alınmağa başlanmışdı. Görülən işlər idmanın inkişafına öz töhfəsini verirdi.

Əvvəllər "Xırman yerində", sonralar kəndin şərqində tikilmiş stadionda keçirilən idman tədbirləri bayram xarakteri alır və uzun müddət yaddaşlardan silinmirdi. Ən populyar idman növü isə futbol idi. Kənd sakinlərinin çoxu futbol komandasının azarkeşləri idi. Təsadüfi deyildir ki, 1967-ci ilin may ayında "Pravda" kolxozunun

futbolçuları, 1975-ci ilin aprel ayında Oğuz şəhər stadionunda Calud kənd futbolçuları, 1990-ci ilin mart ayında rayonun "Gülüstan" yığma futbol komandası üzərində qazanılan qələbələr, 1990-cı ilin sentyabr ayında "Futbol həftəsi" ilə əlaqədar Oğuzda 13-14 yaşlılar arasında keçirilən və 20 komandanın iştirak etdiyi yarışda Yaqublunun gənc futbolçularının birinci, 2003-cü ilin may-iyun aylarında futbol üzrə rayon birinciliyində isə ikinci yeri tutması hələ də şirin xatirə kimi yaddaşlarda qalmaqda və xatırlanmaqdadır.(18,səh:149-150,152)

Kəndli gənclər futbolla yanaşı idmanın digər növləri ilə də maraqlanırdılar. Belə ki, gənclər yüngül atletika, voleybol, güləş, sambo və karate ilə də məşğul olurdular. Üzümün ilkin emalı zavodunun inzibati binasında təşkil olunan sambo və karate dərnəklərində onlarla uşaq və gənc məşğul olurdular. Onlar rayon, zona və respublika səviyyəli yarışlarda uğurla çıxış edirdilər.

Kənddə bədən tərbiyəsi və idmanın inkişafında sambo üzrə keçmiş SSRİ çempionu və SSRİ idman ustası, ümumittifaq dərəcəli hakim, ADBTİA-nın müəllimi olmuş, bir müddət Oğuz Rayon İdman Komitəsinin sədri işləmiş, I Qarabağ müharibəsi şəhidi T.Rzayevin, bir vaxtlar Gəncə şəhərinin "Kəpəz" və Sumqayıt şəhərinin "Polad" futbol komandalarının tərkibində çıxış etmiş V.Kazımovun, kolxozun idman təlimatçısı F.İsayevin və məktəbin müəllimi M.Muxtarovun böyük rolu olmuşdur.

Kənd əhalisi həmişə içməli sudan əziyyət çəkmişdir. Hələ Vartaşen RPK-nin 1939-cu ilin fevralında keçirdiyi konfransda Yaqubluda əhalinin içməli sudan korluq çəkdiyi qeyd edilsə də, təxminən 30 il ərzində rayon rəhbərliyi tərəfindən bu sahədə heç bir iş görülməmişdi. Nəhayət, "Azərbaycan" kolxozunun 06 fevral 1968-ci il tarixli bir saylı ümumi yığıncaq qərarı ilə Abdurahman yerindəki subartezian quyusundan kəndə su xətti çəkmək barədə qərar qəbul edilmişdir. Su xəttinin çəkilişi ilin sonuna kimi başa çatdırılmış və əhali içməli su ilə qismən təmin olunmuşdu.(27) Kənddə hər il yeni subartezian quyuları qazılsa da, içməli su ilə tam və daimi təminat hələ də problem olaraq qalmaqda, öz həllini gözləməkdədir.

Vaxtaşırı kəndə "kinoverənlər" gələrdi. Onların nümayiş etdirdikləri filmlər çox vaxt başqa dildə, hətta səssiz olsa da, camaat sevə-sevə tamaşa edirdi. 1960-cı illərin ortalarında isə kənddə - köhnə klub binasında daimi kino qurğusu qurulmuşdu. Kinomexanniklər axşamlar maraqlı və əyləncəli filmlərlə camaatın görüşünə gəlməyə başlamışdılar. Əhalinin ən çox bəyəndiyi filmlər Azərbaycan, türk və hind filmləri idi.

Sonrakı illərdə kənddə rabitə şöbəsi də açılmış, Yaqublu XDS İK-nə, poçt şöbəsinə və kolxozun inzabatı binasına telefon xətləri çəkilmiş, evlərə və içtimai yerlərə radio şəkilişi başa çatdırılıb qurtarmışdı. Bütün bunlar əhaliyə göstərilən rabitə xidmətlərinin səviyyəsini xeyli yüksəltmişdi.

1960-cı illərin sonlarından Yaqublu kəndində kolxoz vəsaiti hesabına mövsümü körpələr evi açılmış, az sonra yenə təsərrüfatın vəsaiti hesabına daimi fəaliyyət göstərən uşaq bağçası fəaliyyətə başlamışdı.

Həmin illərdən kənddə daimi fəaliyyət göstərən mağaza ilə yanaşı bərbərxana, dəmirçi və dərzi sexləri də fəailiyyət göstərirdı.

Kənddə mağazanın açılmasının tarixi isə 1940-cı illərə gedib çıxır. Hələ 1946-cı ildə "Komsomol" kolxozunun 29 mart 1946-cı il tarixli 10 saylı ümumi yığıcağında "Tükan komissiyasının tərkibinin müəyyənləşdirilməsi" haqqında məsələ müzakirə olunmuşdu.(28). Mağazanın açılması ilə əhalinin alış-veriş üçün yollara düşməsinə, qonşu kənd mağazalarına getməsinə son qoyulmuşdu.

Həftə bazarları içərisində ən çox istifadə olunan bazarlar Nic, Padar, Kərimli (Vardanlı), Vartaşen (Oğuz), qismən Şəki, Ağdaş və Yevlaxdakı "kolxoz bazarları" idi. Sakinlər kənd təsərrüfatı məhsullarını əsasən bu bazarlarda satır və alırdılar. Hələ 1901-ci ildə Oğuzdan Yaqubluya, sonralar Yevlağa kimi salınan yol (sonralar asfaltlanmışdır) ticarət əlaqələrinin qurulmasında və gücləndirilməsində böyük rol oynayırdı.

Kənddə ilk içtimai-iaşə müəssisəsi isə 1961-ci ildə açılmışdır.

1980-cı illərin ortalarında (1985-1986) kəndə təbii qaz xətti çəkilmiş, telefonlaşma aparılmış, kənddaxili və kəndlərarası yolların çoxuna asfalt örtük döşənmişdi.

Kəndə təbii qaz xəttinin çəkilməsində Azərbaycan Respublikası Üzümçülük və Şərabçılıq Komutəsinin sədri Y.Rzayevin böyük rolu və köməyi olmuşdur.

1950-ci ilə kimi kənddə üstü kirəmitli və şiferlə örtülən evlərə təsadüf olunmazdı. Hamısının üstü torpaq və cillə örtülmüşdü. İndi həmin evlərdən əsər-əlamət qalmayıb. 2003-cü ildə əhalinin ixtiyarında olan çəxsi evlərin ümumi sahəsi $11396^2$ metr, yaşayış sahəsi isə $6450^2$ metr idi. Ötən illər ərzində əhalinin mənzil şəraiti əsaslı şəkildə yaxşılaşmışdır. Evlərin mütləq əksəriyyəti müasir evlərdir.

Bu gün kənddə təbii qazdan, müasir məişət avadanlıqlarından, televizor, telefon, komputer və digər İKT avadanlıqlarından istifadə edilməyən ev, demək olar ki, yoxdur. Evlərin əksəriyyətində çanaq antennalardan və internet bağlantısından istifadə olunur. Xeyli sayda kənd sakininin şəxsi minik və yük avtomobilləri, traktorları və başqa kənd təsərrüfarı texnikaları vardır.

Hazırda kənddə müasir tələblərə cavab verən bir tam orta məktəb, uşaq baxçası və həkim məntəqəsi; üç kommersiya mağazası, üç içtimai-iaşə obyekti; kitabxana, folklor evi, 200 yerlik ATS, baytarlıq məntəqəsi, poçt, ət mağazası, futbol stadionları, şəxsi evlərdə maşın təmiri, dülgər, dərzi və dəmirçi sexləri, bərbərxanalar və digər sahibkarlıq obyektləri fəaliyyət göstərir.





**Yaponiyanın səfiri Şuşiki Vatanabe səfirliyin dəstəyi ilə tikilmiş tibb məntəqəsinin açılışında. 15 aprel 2013-cü il.**



"Lalə" povilyonu



Ş.İsayevin ticarət və istirahət mərkəzi - fevral 2022-ci il



Ət məhsulları mağazası



Mağaza



"SƏMA" market

## Kənd müstəqillik uğrunda mübarizə və Qarabağ müharibələri illərində

Azərbaycanın suverenliyi uğrunda 1988-ci ildən başlayaraq yüksələn hərəkatda Yaqublu sakinlərinin də öz yeri olmuşdur. Kənd sakinlərinin çoxu hərəkatın fəal üzvləri idi. Erməni daşnaklarının soyqırım və işğalçılıq hərəkətləri əhalinin nifrət və qəzəbini gündən-günə artırırdı.

1980-cı illərin sonunda əhali kənddə və rayon mərkəzində keçirilən yığıncaq və mitnqlərdə müntəzəm və fəal iştirak edir, keçmiş SSRİ rəhbərliyinə nifrətlər yağdırır, onların ermənipərəst siyasətini lənətləyirdi.

Artıq kəndə Qərbi Azərbaycandakı (Ermənistandakı) dədə-baba torpaqlarından; erməni quldurları tərəfindən işğal olunmuş Kəlbəcər, Laçın, Ağdam, Cəbrayıl, Şuşa və Xocalı rayonlarından qovulmuş azərbaycanlıların yeni axını başlamışdı. Tarix sanki təkrar olunurdu. Kənd sakinləri qaçqın düşənləri xüsusi diqqət və qayğı ilə qarşılayırdı. Əhali, kənddəki ticarət və içtimai-iaşə, səhiyyə, təhsil, mədəni-maarif müəssisələri və digər orqanlar onlara mümkün olan bütün köməklikləri göstərirdilər.

Erməni daşnaklarının işğalçılıq hərəkətləri isə dayanmaq bilmirdi. Azərbaycanın sərhəd rayonları ciddi təhlükə altında idi. Belə bir vaxtda başda kəndimizin

qəhrəman oğlu T.Rzayev (T.Oğuz) olmaqla Oğuzun, o cümlədən Yaqublunun qorxmaz və cəsur oğlanlarından ibarət 30 nəfərlik dəstə Qubadlının Yuxarı Cibikli kəndinin müdafiəsinə yollandı.

Bakıda törədilmiş 20 Yanvar faciəsi yaqublululların da səbir kasasını daşırdı. Onlar öz qəzəb və nifrətlərini kənddə və rayon mərkəzində keçirilən izdihamlı mitnqlərdə nümayiş etdirdilər. Qisas eşqi ilə alışıb yanan kənd sakinləri keçmiş Sov.İKP MK-nə nifrət dolu teleqramlar göndərir, kommunist partiyasının biletlərini cırıb ayaqlar altına atırdılar, "Azadlıq" radiostansiyasına – Mirzə Xəzərə baş vermiş hadisələri bütün dünyaya çatdırmaq üçün informasiyalar göndərirdilər. Kənddə qurulmuş ehsan çadırlarında 20 Yanvar şəhidlərinə quran oxudulur, ehsan verilir, şəhid ailələrinə yardım toplanırdı. Onlarla kənd sakini Bakıda – şəhidlərin dəfnində iştirak etmişdi. Kənd camaatı MİngəÇevir, Gəncə, Sumqayıt və Bakı şəhərlərində etiraz əlaməti olaraq tətil edən və işə çıxmayan sənaye müəssisələrinin fəhlələrinə tonlarla ərzaq məhsulu göndərmişdi.

1991-ci ilin oktyabr ayında Azərbaycanın dövlət müstəqilliyinin bərpa və elan olunması Yaqubluda böyük sevinc və təntənə ilə qarşılanmışdı. Həmin günlərdə kənddə kütləvi təntənəli mitnqlər keçirilmiş, milli bayrağımız göylərə ucaldılmış, şənlik məclisləri qurulmuşdu. Belə tədbirlər günlərlə davam etmişdi.

Erməni işğalı isə davam edirdi. Baş verən hadisələrə biganə qala bilməyən oğullarımız 60 nəfər oğuzlu gənclə birlikdə Şuşanın müdafiəsinə yollanmışdılar. Onlar Şuşanın özünün və kəndlərinin (Kərkicahan, Kosalar, Şuşa kənd) müdafiəsində fəal iştirak etmişdilər. Bu döyüşlərdə kənd sakinlərindən T.Babayev həlak olmuş, T.Rzayev isə itkin düşmüşdü. Digər kənd sakini N.Süleymanov isə Laçın rayonunun Xınalılar kəndi yaxınlığındakı Sarıbaba dağı ətrafında gedən ağır döyüşdə həlak olmuşdu.

Yaqublulular II Qarabağ müharibəsində də öz hünər və qəhrəmanlıqları ilə fərqlənmişdilər. Əhali döyüşən əsgərlərə geyim və ərzaq məhsulları ilə kömək edir, müdafiə fonduna pul vəsaiti köçürürdü. Hər kəs bu işə səfərbər olmuşdu. Gələn qələbə xəbərləri insanları sevindirir və daha da ruhlandırırdı. II Qarabağ müharibəsində onlarla kənd sakini iştirak etmişdir. Onların, demək olar ki, hamısı Azərbaycan Respublikasının Prezidentinin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. (Bu barədə kitabın II hissəsində ətraflı bəhs olunur.)

## Yaqublunun yaradıcı insanları

Yaqublu kəndi mövcud olandan bəri burada elin-obanın hörmətini qazanmış, yaradıcı fəaliyyəti ilə seçilən onlarla insan yaşamışdır.

Onlar kəndin tanınmasına, sosial və mədəni simasının dəyişməsinə güclü təsir göstərmiş və aparıcı rol oynamışlar. Bunlara şair Əsgər Hacı oğlu Salami, tanınmış din xadimlərindən olan Seyyidi Qəmnak təxəllüsü ilə şeirlər yazmış Hacı Mirabbas ağa seyid Mir Ağəli oğlu Məmmədov, şair təbiətli Qəni Allahverdi oğlu Abbasov; zurna və klarnet ifaçısı, səs yazıları Azərbaycan radiosunun qızıl fondunda saxlanılan, val yazısı buraxılmış Abbas Ələkbər oğlu Nağıyev; yazıçı-jurnalist, Jurnalistlər İttifaqı və Yazıçılar Birliyinin üzvü, bir sıra bədii və tədqiqat əsərlərinin müəllifi Pənah Əkbər oğlu Qurbanov; televiziyanın “Gənclik” ansamblının üzvü olmuş, Şəki Dövlət Teatrının ədəbi-hissə müdiri işləmiş, aktyor-rejissor Əli Kərim oğlu Əliyev; yazıçı-rəssam, Azərbaycan Jurnalistlər və Rəssamlar İttifaqlarının, Yazıçılar Birliyinin üzvü, Mədəniyyət və İncəsənət İnstitutunun müəllimi, hekayə, povest və romanlar müəllifi Əşrəf Məmmədvəli oğlu İbrahimov; kənddə təhsilin inkişafında xüsusi xidmətləri olan Heydər Əkbər oğlu Qurbanov; İxtiraçılar və Səmərəliləşdiricilər Cəmiyyətinin üzvü, çoxlu ixtira və səmərələşdirici təkliflərin müəllifi Novruz Davud oğlu İsayev; kənddə yaradılmış ilk şəxsi kitabxananın sahibi, bədii ədəbiyyat təbliğçisi, yüksək mütaliə mədəniyyətinə malik olan Ağayev Mirqərib Mirabbas oğlu, bütün rayonda tanınmış mədəni-maarif işçisi Əvəz Rəhim oğlu Kazımov, kəndin ilk universitet

təhsili almış sakinlərindən, qabaqcıl və yaradıcı müəllim Yaqub Məmmədəli oğlu Əliyev, təcrübəli mühəndis, layihəçi İbrahimov Əlfəddin Əkbər oğlu, sambo üzrə keçmiş SSRİ çempionu və SSRİ idman ustası, ümumittifaq dərəcəli hakim, ADBTİA-nın müəllimi olmuş, bir müddət Oğuz Rayon İdman Komitəsinin sədri işləmiş, I Qarabağ müharibəsində şəhid olmuş Rzayev Tofiq Qafar oğlu (Tofiq Oğuz); Azərbaycan Respublikasının Əməkdar müəllimi, bir neçə kitabın müəllifi İmran Allahverdi oğlu Verdiyev, hazırda Almaniyada yaşayan, orada mədəniyyət və incəsənətimizin yorulmaz təbliğatçısı, Azərbaycan diasporasının fəallarından olan, diasporanın Qərbi Azərbaycan İştimai Birliyinin ideologiya şöbəsinin rəhbəri, mədəni-maari işçisi Əntiqə Qafar qızı Rzayeva, bədii yaradıcılqla məşğul olan, şeirləri kitablara salınmış Yaqublu kənd T.Babayev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Vəfa Heydər qızı Qurbanovanı və digərlərini nümunə göstərmək olar.

Əsgər Hacı oğlu Salami XIX əsrdə Oğuz (Vartaşen) rayonunun 7 kəndində yaşayıb yaratmış 9 nəfər şairdən biridir. O, 1826-cı ildə Yaqublu kəndində anadan olmuşdur. Bir müddət molla yanında, sonra isə Ağdaşdakı mədrəsədə oxumuş, dövrünə görə müəkəmməl təhsil almışdır. O, Mücrüm Kərim Vardaninin təşkil etdiyi ədəbi-musiqi məclisinin fəal üzvlərindən biri olmuşdur.

Ə.Salami 1870-1871-ci illərdə vəfat etmiş və öz vəsiyyətinə əsasən Ağdaşda dəfn olunmuşdur. Kənd əhalisi arasında şairin Ağdaşda deyil, kəndin cənub istiqamətindən Ağdaşa gedən yolun (Ağdaş yolunun) kənarında bir təpənin üstündə dəfn edilməsi barədə rəvayətlər də dolaşmaqdadır.

Ə.Salaminin əsərləri haqqında ilk dəfə filologiya elmləri doktoru Əhməd Cəfərzadə məlumat vermişdir. Şairin əldə olan yeganə tam şeiri Mücrüm Kərimin Məkkədən qayıtması münasibəti ilə yazdığı şeirdir. Bundan başqa onun şeirlərindən bir sıra bənd və beytlər də qalmışdır. Onlar Respublika əlyazmalar fondunda qorunur və öz tədqiqatçılarını gözləyir. Şairin əsərlərində tənbəllik, süründürməçilik, rüşvətxorluq, çapqınçılıq, qumarbazlıq, sərxoşluq və əyyaşlıq, hər cür zorakılıq tənqid olunur.

Kənddə təhsilin, mədəniyyətin inkişafı və tərəqqisi, ziyalılar dəstəsinin yetişməsi yaqublulular müasir dünyaya qovuşmalarında həlledici rol oynamışdı.

(Kənd haqqında daha ətraflı məlumat üçün bax: İ.Verdiyev “Yaqublu və yaqublular”, Sumqayıt-2003)




# II HİSSƏ

# YAQUBLU MƏKTƏBİ – HAMIMIZIN MƏKTƏBİ

## Məktəbin açılması və maddi-texniki bazanın möhkəmləndirilməsi

XIX əsrin sonlarına kimi Yaqublu kəndində ancaq dini xarakter daşıyan təhsil müəssisələri olmuşdur. Bu müəssisələr ya ərazidəki məscid və kilsələrin nəzdində, ya da savadlı din xadimlərinin evlərində fəaliyyət göstərirdi. Buranı bitirənlər öz təhsillərini qonşu kəndlərdə və rayonlarda davam etdirirdilər. Məsələn, 1826-cı ildə Yaqublu kəndində anadan olmuş şair Əsgər Salami bir

müddət molla yanında, sonra isə Ağdaşdakı mədrəsədə oxumuşdu. O, öz dövrünə görə mükəmməl təhsil almışdı.

Şübhəsiz ki, Ə.Salami istisna ola bilməzdi. Çox güman ki, onun kimi mollaxana və mədrəsələrdə təhsil alan başqaları da olub.

Gürcüstan Respublikasının Mərkəzi Tarix Arxivində saxlanılan bir sənəddən (fond 422, s-1, iş-6315, v-27-29) belə məlum olur ki, Yaqubluda ilk dünyəvi təhsil müəssisəsi 30 sentyabr 1898-ci ildə açılmışdır. Həmin sənəddə göstərilir ki, ilk dəfə məktəbə 31 nəfər şagird cəlb olunub və şəriət müəllimləri bir yanvar 1899-cu ilə kimi ödəncsiz işləməyə söz veriblər.(29) Onu da qeyd edək ki, bu məktəb Vartaşen (Oğuz) rayonunun ərazisində Rusiya XMN-nin kənd məktəbləri proqramı əsasında işləyən (Xaçmaz, Padar və Vartaşen (Oğuz) məktəblərindən sonra) dördüncü məktəb idi. Məktəb əhalinin gücü ilə saxlanılırdı və dərslər rus dilində keçirilirdi. Tədris planına şəriət, rus dili ilə yanaşı başqa dillər, hesab, coğrafiya, tarix, ədəbiyyat və rəsm daxil idi. Müəllimlərin arzusu ilə digər fənlər də tədris edilir, uşaqlara kənd təsərrüfatına aid biliklər verilir və müxtəlif peşələr öyrədilirdi.

Yaqubluda məktəbin açılması rus çarizminin siyasi məqsədlərindən irəli gəlsə də, dünyəvi elmlər tədris etməsi və mükəmməl təhsil verməsinə görə mütərəqqi hadisə sayıla bilərdi.

Lakin baş vermiş mürəkkəb içtimai-siyasi hadisələr səbəbindən məktəb XX əsrin əvvəllərində öz fəaliyyətini dayandırmışdı.

1920-ci ilə kimi kəndin dünyəvi təhsil almaq istəyən sakinlərinin başqa kənd və şəhərlərdə olan xalq və qəza məktəblərində, 1920-ci ildən sonra isə Padar, Kərimli, Qayabaşı, Vartaşen (Oğuz) və Şəkidəki ibtidai, natamam orta və ya orta məktəblərdə oxuduqları güman edilir. Məsələn, kənd sakinlərindən R.Ələkbərov, M.Mehdiyev və digərləri Şəki şəhərindəki natamam orta və orta məktəblərdə təhsil almışdılar. (Onlardan M.Mehdiyev 1940-ci illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuşdu.)

1918-ci ilin sonlarından 1930-cu illərin əvvəlinə kimi kənddə ana dilli milli təhsil müəssisəsinin açılmasına dəfələrlə cəhdlər edilsə də, mümkün olmamışdır. Kənd camaatı 1919-cu ildə AXC-nin Maarif və Dini Etiqad naziri N.Yusifbəyliyə Yaqubluda məktəb açılmasına köməklik etmək barədə müraciət etmişdir. Lakin bu müraciət AXC-nin devrilməsi ilə əlaqədar nəticəsiz qalmışdır.(30,səh:23)

Təhsil almaq istəyən, lakin digər kənd və şəhərlərə getmək imkanı olmayanların XX əsrin 20-ci illərində savadlı şəxslərin evlərində oxumaq və yazmaq öyrəndikləri məlum faktlardandır. Məsələn, yaşlı kənd sakinləri söyləyirdilər ki, kəndin hörmətli şəxslərindən Məşədi Məmməd Məmmədov (Vartaşen (Oğuz)

rayonunda çıxan “Varlı həyat” qəzeti onu “yaxşı aqitator” kimi təqdim etmişdi) keçən əsrin 20-cı illərində müraciət edənlərə əski əlifba ilə yazmaq və oxumaq öyrədirmiş.

Məktəb olmasa da, həmin illərdə kənddə yaşlılar və köçərilər arasında savadsızlığı ləğv etmək üçün, onlara latın qrafikalı əlifbanı, oxuyub-yazmağı öyrətmək məqsədi ilə “gecə kursları” və “yay kursları” təşkil olunurdu. Lakin burada çalışmaq üçün savadlı şəxslər çatışmadığına görə həmin kurslar istənilən səmərəni və nəticəni vermirdi. Məktəbin açılması zamanın tələbinə çevrilmişdi.

Müstəqil Vartaşen (Oğuz) rayonu təşkil ediləndən sonra kənddə milli ümumtəhsil məktəbinin açılması təşəbbüsləri də gücləndi.

1933/1934-cü dərs ilindən başlayaraq bütün ölkədə ümumi icbari orta təhsilin həyata keçirilməsi ilə əlaqədar 1934-cü ilin dekabr ayının 15-də kənddə ibtidai məktəb açıldı. Beləliklə, Yaqubluda milli məktəbin əsası qoyuldu. İbtidai məktəbin açılması münasibətilə kənddə izdihamlı ağsaqqaların iştirakı ilə mitnq keçirilmiş, şənlik məclisi təşkil olunmuş, məktəbyaşlı uşaqlara dərs ləvazımatları hədiyyə olunubmuş. (31,səh:11-12)

Məktəb kəndin şimal-şərq hissəsində üstü torpaqla örtülmüş, daş divarlı, iki otaqlı köhnə binadan ibarət idi. (həmin ərazi hazırda kənd sakini X.Cəfərovun fərdi həyətyanı sahəsidir)

1938-ci ildən məktəbin ibtidai sinfini bitirənlər və onların valideynləri ciddi çətinlik qarşısında qalmışdılar. Uşaqlar təhsillərini davam etdirmək üçün başqa kəndlərə

üz tutmalı idilər. Qonşu məktəblər isə 7-8 km. uzaqlıqda yerləşirdi, azyaşlı uşaqların hər gün bu məsafəni gedib-qayıtması qeyri-mümkün idi. Kəndin özündə natamam orta məktəbin açılması zərurəti yaranmışdı.

Məktəb binası yararsız olduğuna, sinif otaqları çatışmadığına və ibtidai məktəbin natamam orta məktəbə çevrilməsi zərurəti yarandığına görə 1930-ci illərin sonlarında kolxozun köməyi ilə kəndin mərkəzində 4 otaqlı yeni məktəb binasının tikintisinə başlanmışdı. Yeni məktəb binası müharibə başlayana kimi istifadəyə verilmişdi. Təzə məktəb binasının açılması kənddə hamının sevincinə səbəb olmuşdu.(həmin ərazi hazırda kənd sakini S.Hüseynovun fərdi həyətyanı sahəsidir).

Yeni məktəb binasının istifadəyə verilməsi nəticəsində maddi-texniki baza xeyli möhkəmlənmiş və kənddə natamam orta məktəbin açılmasına imkan yaranmışdı. Lakin müharibənin başlanması səbəbindən bu iş bir neçə il ləngimişdi.

1945/1946-cı dərs ilində kənddəki ibtidai məktəb natamam orta (7 illik) məktəbə məktəbə çevrildi. Məktəb iki növbədə fəaliyyət göstərirdi.

1940-cı illərin II yarısından sonra məktəbin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması üçün kənddəki "Komsomol" kolxozunun ümumi yığıncağının və kənd ZDS-nin 28 iyul 1946-cı il tarixli sessiyasının qərarı ilə kəndin cənub qurtaracağında o dövrün tələblərinə cavab verən yeni məktəb binasının tikilməsi qərara alınmış və bu barədə

Rayon Maarif Şöbəsi qarşısında məsələ qaldırılmışdı. Sessiyanın materialları göstərir ki, yeni məktəb binasının tikilməsi üçün 10000 ədəd çiy kərpic kəsilməsi və hörgü işlərinin başa çatdırılması məqsədi ilə həmin ilin avqust ayının 11-dən 22-dək vaxt verilmiş, iməciliklərin təşkil edilməsi məsləhət görülmüşdü.

Ümumi sahəsi $300^2$ metr olan 6 otaqlı yeni məktəb binası 1950-ci illərin əvvəlində istifadəyə verildi. Öz dövrünə görə həmin bina rayonda ən yaxşı məktəb binalarından biri sayılırdı. Burada tədris prosesinin normal təşkili üçün hər cür şərait vardı.

1961/1962-ci tədris ilindən 8 illik təhsil sisteminə keçilmiş,1960-ci illərin birinci yarısında məktəb üçün əlavə olaraq 4 sinif otağı da tikilmişdi.

1970-ci ilə kimi Yaqubludakı natamam orta məktəbi bitirən uşaqlar təhsillərini davam etdirmək üçün qonşu Vardanlı (Kərimli), Padar, Qayabaşı kənd, Vartaşen (Oğuz) şəhər və ya ölkənin digər rayon, şəhər və kəndlərinin orta məktəblərinə getməyə məcbur olurdular. Bu isə ciddi çətinliklər yaradır, uşaqların kütləvi şəkildə orta təhsildən yayınmalarına səbəb olurdu. Ona görə də həmin dövrlərdən kənddəki natamam orta məktəbin orta məktəbə çevrilməsi üçün ardıcıl tələblər irəli sürülməyə başlanmışdı.

Nəticədə Yaqublu kənd natamam məktəbi 1971/1972-ci dərs ilindən orta məktəbə çevrildi. Zərrab kənd natamam orta məktəbini bitirən, Zərrab və Top kəndlərində yaşayan uşaqlar da təhsillərini burda davam

etdirirdilər. Orta məktəbin ilk buraxılışı 1973-cü ildə oldu. Həmin il orta məktəbi 22 nəfər bitirmişdi.

1980-ci illərdə məktəbdə işləyən müəllimlərin fəaliyyəti üçün daha əlverişli şərait yaradılmışdı. Həm büdcə, həm də kolxoz vəsaiti hesabına məktəbin maddi-texniki bazası xeyli möhkəmlənmişdi. Məktəb əsaslı təmir olunmuş, yenidən 4 əlavə sinif otağı, tədris emalatxanası, yeməkxana tikilmiş, müasir və yeni fənn kabinetləri quraşdırılmış, çoxlu əyani və texniki təlim vasitələri alınmış, rayonda ilk dəfə olaraq burada kompleks idman meydançası istifadəyə verilmişdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 1993-cü il tarixli 606 saylı qərarı ilə məktəbə onun məzunu, I Qarabağ müharibəsinin şəhidi Tale Bəyənulla oğlu Babayevin adı verilmişdir.

XXI əsrin əvvəllərində mövcud məktəb binası qəzalı vəziyyətə düşmüşdü. Bina müasir tələblərə cavab vermirdi. Ona görə də məktəbin direktoru İ.Verdiyev başda olmaqla, müəllimlər və kənd sakinləri rayon və respublika rəhbərliyinə ardıcıl olaraq müraciətlər edir, yeni məktəb binasının tikintisinə köməklik etməyi xahiş edirdilər.

Nəhayət, bu müraciətlər nəzərə alınmışdı. 2005-ci ilin avqust ayında Qəbələ şəhərində Azərbayacan Respublikasının Prezidenti İ.Əliyevin sədrliyi ilə keçirilən şimal-qərb bölgəsinin rayonlarının sosial-iqtisadi inkişafına və problemlərinə həsr olumuş müşavirədə ölkə Prezidentinə Yaqubluda yeni məktəb binasının tikintisi

üçün işlərin davam etdirildiyi barədə də məlumat verilmiş və layihə sənədlərinin hazırlandığı qeyd edilmişdi. Dövlət səviyyəsində göstərlən diqqət və qayğı kənd sakinlərinin sevincinə səbəb olmuş, təlim-tərbiyə işlərinin daha da yaxşılaşdırılması üçün stimul yaratmışdı.

2003-2005-ci illərdə köhnə, qəzalı məktəb binası FHN-nin vəsaiti hesabına sökülüb yenidən öz yerində tikilsə də, tezliklə təkrar qəzalı vəziyyət yaranmışdı.

Kənd sakinlərinin köməklik üçün dövlət orqanlarına müraciətləri davam etməyə başlamışdı. Nəhayət, bu müraciətlər öz təsirini göstərdi.

2012-ci ildə kənddə - məktəbin özünün 16035 $m^2$-lik (1,6 ha) ərazisində tikinti sahəsi 1673.00 $m^2$, həcmi 15,500 $m^3$, mərtəbələrdəki sinif otaqlarının ümumi sahəsi 705,60 $m^2$ olan 220 yerlik yeni məktəb binasının tikilməsinə başlandı. Tikinti işləri 2015-ci ilin yazında başa çatdırıldı.

5 mart 2015-ci il tarixdə Oğuz rayonunun Tale Babayev adına Yaqublu kənd tam orta məktəbinin yeni tədris binasının açılış mərasimi olmuşdur. Rayonun rəhbərlərinin, kənd içtimaiyyətinin, müəllim və şagirdlərin iştirak etdiyi tədbirdə məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi İmran Verdiyev, həmin məktəbin XI sinif şagirdi Əfsanə Babayeva, məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Aygün Atakişiyeva, məktəb valideyn komitəsinin sədri Sevil Manafova çıxış edərək müasir tipli məktəb binasinin

tikilməsi üçün dövlətə və inşaatçılara öz minnətdarlıqlarını bilidirmişlər.

Oğuz Rayon İcra Hakimiyyətinin Başçısı cənab Eyvaz Qurbanov tədbirdə çıxış edərək Yaqublu kəndinin bütün sakinlərini, məktəbin pedaqoji və şagird kollektivini təbrik etmişdir. Sonra cənab E.Qurbanov tərəfindən məktəbin yeni binasının rəmzi açılışını bildirən lent kəsilmiş, tədbir iştirakçıları komputer,fizika, kimya, biologiya və ÇH kabinetləri, laboratoriyalar, sinif otaqları, müəllimlər otağı və digər xidməti otaqlar, yeməkxana, idman və akt zallarındakı iş şəraiti ilə tanışlıq olmuşdur.(32)

Məktəbin yeni binası müasir istilik sistemi ilə təmin olunmuşdur. Yeni məktəb binasının istifadəyə verilməsi ilə burada ideal iş şəraiti yaranmışdır. Məktəbdə müasir tələblərə cavab verən informatika və ÇH otaqları, zəngin biologiya, fizika və kimya kabinetləri, kitabxana, bütün sanitar-texniki tələblərə cavab verən idman və akt zalları, yeməkxana, geniş və işıqlı sinif otaqları şagird və müəllimlərin ixtiyarına verilmişdir. Zəngin əyani və texniki təlim vasitələri, o cümlədən İKT vasitələri və internet bağlantısı movcuddur. Bunlar əmək kollektivində böyük ruh yüksəkliyi yaratmış və onları daha yaxşı işləməyə ruhlandırmışdır. Təhsil işçiləri tədrisin, tərbiyə işlərinin keyfiyyət səviyyəsinin yüksəldilməsi, gələcəyin layiqli vətəndaşlarının yetişdirilməsinə daha səylə yanaşmağa başlamışlar.



**Azərbaycan Respublikasının Təhsil naziri, akademik M. Mərdanov Yaqublu kənd tam orta məktəbində. 16 iyun 2003-cü il**




**Yaqublu məktəbinin yeni binasının açılışı – 5 mart 2015-ci il**



Şəhid T.Babayevin şərəfinə qoyulmuş abidə



İstedadlı uşaqların əl işlərinin sərgisi

## Məktəbin unudulmaz müəllimləri və texniki işçiləri

Məktəb açılandan ta 1956-ci ilə kimi burada işləmiş müəllimlərin xeyli qisminin adını mənbələrdən öyrənmək mümkün olsa da, həmin illərdə məktəbdə çalışmış bütün müəllimlərin konkret sayını dəqiqləşdirmək mümkün olmamışdır.

Məktəbin ilk müəllimi Nuxa (Şəki) natamam orta məktəbinin məzunu Ələkbərov Rza Hümbət oğlu olmuşdur.

RMŞ-nin və məktəbin əmr kitablarına və pedaqoji şura protokollarına istinadən bildiririk ki, 1930-cu illərdə məktəbdə R.Ələkbərovla yanaşı, Qərib Əliyev, Əlmirzə Rzayev, Nadir Qazıyev və Hacıbala Həmidov, Sona Poladova kimi öz şagirdlərinin sevimlisinə çevrilmiş, kənd sakinlərinin hörmət və ehtiramını qazanmış müəllimlər işləmişlər. Onlar F.Köçərlinin sözləri ilə desək, "millətin çırağı olan" əsl müəllimlər idi.

Yaqublu məktəbinin ilk qadın müəllimi Sona Poladova olmuşdur. Ondan sonra 1940-1950-ci illərdə məktəbdə Bəyim Məmmədova, Gülxanım İbrahimova, Fəridə Məmmədova, Vera Popova, Zibeydə Mikayılova, Nurcahan Abdullayeva, Züleyxa Babayeva, Əfruz Rəhimova, Məkkə Salamova, Sədayə Osmanova, Minayə Abbasova, Olqa Petrova, Rita Mişakina kimi fədakar qadın müəllimlər çalışmışdılar.

1940-cı illərin II yarısında müəssisədə yuxarıda adları qeyd edilənlərlə yanaşı İ.İbrahimov, B.Şükürov, M.Əfəndiyev, Ə.Qodmanov, həmçinin U.Umarov, Y.Salamov, M.İsmayılov, N.Məmmədov və V.Çələbiyev kimi hazırlıqlı müəllimlər işləyirdilər. Pedaqoji və metodiki ustalıqlarına, əxlaq və etikalarına, hər bir şagirdə diqqət və qayğı ilə yanaşmalarına görə onların hər biri indi də "70-80 yaşlı şagirdləri" tərəfindən hörmət və ehtiramla yad olunurlar.

Məktəbin müəllimləri Padar kəndindəki orta məktəbdə fəaliyyət göstərən məntəqə metodbirləşmələrinin işində fəal iştirak edir, qabaqcıl pedaqoji təcrübənin öyrənilib yayılmasında fərqlənirdilər. Məktəb arxivində saxlanılan sənədlər, açıq dərslərin protokolları, müəllimlərin referat və məruzələri, pedaqoji şuraların protokolları bir-birinə bənzəməyən, lakin məqsəd və məramları eyni olan müəllimlərin fərdi yaradıcılıq, özünəməxsusluq və pedaqoji ustalıq keyfiyyətlərindən xəbər verir. Vartaşen (Oğuz) RMŞ-nin inspektor və metodistlərindən H.Naxçıvanlı, M.Musayev, V.İsmayılov, S.Əhmədov, N.Abdullayev, Ə.Xudiyev, Ə.Məmmədov və başqalarının müxtəlif illərdə məktəbin fəaliyyəti ilə tanış olan zaman tərtib etdikləri akt və arayışlarda axtarıcılıq əzmkarlığı ilə seçilən müəllimlərin iş təcrübələrindən geniş bəhs olunur.

Bu illərdə məktəbin ilk və yeganə qadın direktoru olmuş Maral Mikayılova Azərbaycan Həmkarlar İttifaqı

Şurasının VIII qurultayında və XII Respublika pedaqoji mühazirələrində iştirak etmişdi.

XX əsrin 1950-ci illərdə məktəb rəhbərləri İ.İbrahimov, B.Şükürov, B.Haşımov, M.Mikayılova, İ.Rəhimov, İ.Vahabov, H.Qurbanov və müəllimlər 16-50 yaşlılar arasında savadı olmayanları müəyyənləşdirir, onların savadlanmasını təşkil etmək üçün fərdi müəllimlər təhkim olunurdu. Bu gün də xoş xatirələrlə yad olunan, unudulmaz, şagirdlərinin sevimlisi olmuş müəllimlərdən İ.İbrahimov, M.Rəsulov, S.Osmanova, Y.Abduyev, Ə.Rəhimova, B.Şükürov, B.Haşımov, M.Mikayılova, İ.Rəhimov, İ.Vahabov, N.Məmmədov, C.Seyidov, H.Qurbanov, B.Zakirov, Ə.Haqverdiyev, S.Heydərov və başqaları bu işlərdə xüsusi fəallıq göstərirdilər.

Məktəbin müəllimləri M.Salamova, A.Musayev, S.Zəkəriyəyev, M.Abbasova, H.Abdullayeva, O.Petrova, C.İdrisov, K.Əhmədov, Z.Azakov, M.İsayev, V.Qoyukov, S.Ağababayev, M.Şişəliyev, Y.Mövsümov və digərləri rayonun və kəndin içtimai-siyasi və mədəni həyatında fəal iştirak edirdilər. Fədakarlıqlarına görə sonralar onlardan U.Umarov “Qırmızı əmək bayrağı” ordeni, N.Məmmədov, H.Həmidov, B.Haşımov, M.Mikayılova, İ.Vahabov, H.Qurbanov, S.Heydərov, Ə.Haqverdiyev və digərləri fəxri-fərman, müxtəlif orden və medallarla təltif olunmuşdular.

1960-ci ilə kimi məktəbdə işləmiş müəllimlərdən R.Ələkbərov, S.Poladova, S.Heydərov, H.Qurbanov və

Ə.Haqverdiyev müstəsna olmaqla, digərləri rayonun qonşu kəndlərindən və Respublikanın digər rayonlarından idilər. Adları çəkilən müəllimlərdən S.Heydərov, Ə.Haqverdiyev və H.Qurbanov kəndin ilk ali ixtisas təhsilli, yerli pedaqoji kadrları olublar. Çoxdan dünyalarını dəyişmiş həmin müəllimlər öz şagirdlərinin qəlbində mənəvi heykələ dönmüşlər. Onlar bu gün də minnətdarlıq hissi ilə xatırlanırlar.

1960-cı illərdən başlayaraq məktəbdə yerli pedaqoji kadrların sayı artmağa başlamışdı. Məhz bu illərdən müəllimlərdən Mürsəl Muxtarov, Eldar Kərimov, Reyhan Kərimova, Maya Əliyeva, Sədiqə Qurbanova, Firəngiz Əliyeva, Həqiqət Qurbanova, Bayram Heydərov, Müzəffər İsayev pedaqoji fəaliyyətə başlamışdılar. Onlarla yanaşı həmin illərdə məktəbdə Bakıdan gəlmiş Xiriyyə Merdiyeva (Qurbanova), Ukraynadan O.Kazımova, Gəncədən F.Məmmədova, rayonun Vardanlı (Kərimli) kəndindən Ə.Nəcməddinov, V.Çələbiyev və Ə.Salamov kimi öz şagirdlərinin istəklisi olmuş müəllimlər də işləyirdilər.

Sonralar əmək təlimi dərslərini tədris etmək, şagirdlərə müxtəlif peşələr öyrətmək və emalatxana ustası vəzifəsini icra etmək üçün kəndin ən yaxşı ustalarından İsayev Süleyman Davud oğlu və Mənəfov Sərkər Əsgər oğlu işə cəlb edilmişdilər.

1970-ci illərdə məktəbdə yerli pedaqoji kadrlar – Ziyafət Babayeva, Həqiqət Məmmədova, Zöhrə

Səfərəliyeva, Vaqif Davudov, Akif Davudov, Yaqub Əliyev, Abdulla Rzayev, Bahar İsmayılova, İmran Verdiyev və Nazim Həsənovla yanaşı, rayonun və Respublikanın digər kəndlərindən və şəhərlərindən təyinatla göndərilmiş V.Abdullayev, F.Abdullayev, R.Həmidov, R.Səmədov, M.Qafarov, N.Qasımova, F.Cəlaləddinov, M.İslamov, S.Heydərova, Ə.Mehdiyev, R.Abdullayeva, G.Mirzəyeva, R.Kazımov, M.Əsgərova, N.Rzayeva, O.Səfərova, A.Əlifova, H.İsayeva, S.Cavadov, B.Hanukayev, S.Məmmədov, S.Sərkərov, A.Vahabova, Ş.Sərkərov, R.Ramazanov, Q.Nəzərova, R.Əhmədova, E.Niftəliyeva, T.Kərimov, İ.Həsənova və G.Fətəliyeva kimi şagirdlərin və valideynlərin hörmətini qazanmış müəllimlər çalışırdılar.

1980-cı illərdə isə məktəbdə yerli pedaqoji kadrlar – Adil Heydərov, Əmanət İsmayılova, Gülarə Sübəyeva, Lətifə Heydərova, Zərqələm Əliyeva, İradə Vahabova, İsminaz İsmayılova, Məhəbbət Heydərova, Bəsti Qasımova, Gülnarə Heydərova ilə yanaşı, rayonun və Respublikanın digər kənd və şəhərlərindən gəlmiş G.Lətifova, Z.Kərimov, Y.Tartaraşvili, Z.Ahəncani, S.Simanduyeva, A.Fətəliyeva, E.Atakişiyeva, Ə.Əliyev, R.Bəkirova, Ş.Aslanov, R.Məmmədsaatov, E.İsmayılova, A.Naxçıvanlı, Ş.Bəkirov, M.Qədirova, T.Hüseynova, N.Nazarova, K.Mirzəyeva, X.Məmmədov, X.Şərifova, T.Mirzəyeva,V.Tağıyeva,Ə.Həbibullayev, T.Abdullayeva,

S.İsmayılova və R.Yusifova kimi gənc müəllimlər işə qəbul edilmişdilər.

1980-cı illərin sonu, 1990-cı illərin əvvəllərindən yerli pedaqoji kadrlar – Zemfira Qurbanova və Sədaqət Heydərova, başqa kənd və şəhərlərdən gəlmiş P.Babayev, Ş.Salamova, S.Xəlilova və V.Orucova kimi gənc kadrlar fəaliyyətə başlamışdılar. 2000-ci ilə kimi yerli müəllimlərdən Səadət Heydərova, Firuddun Babayev, Xatirə Rzayeva, Pərvanə Sadıqova, Vəfa Qurbanova, Vaqif Rzayev, Mehriban Əliyeva, Aygün İsayeva, Rəsmiyyə Cavadova, Rəhimə Mənəfova və Rüxsarə Muğumova, həmçinin ölkənin digər kənd və şəhərlərindən gəlmiş Ç.Bəşirova, İ.Şirinov, L.Sadıqova, İ.Rzayev, N.Tahirova, C.Abışov, G.Məmmədov, V.Abdurahmanov, İ.Babaşov, R.İlyazov, İ.Qəribova, S.Hacıyeva, Ü.Əhmədova və S.Abbasov da onların sırasına qoşulmuşdular.

2000-2010-cu illərdə məktəbin uğurlarında həmin illərdə əmək fəaliyyətinə başlamış gənc müəllimlərdən N.Süleymanova, S.Möylamova, A.F.Atakişiyeva, A.Ağayeva, B.Mahmudov, A.M.Atakişiyeva, N.Əliyeva, N.Nazarova, A.Əmrahova, G.Kərimova, G.Nazarova və R.Bayramov; 2011-2021-ci illərdən isə P.İbrahimov, Y.Mənəfova, R.İsmayılov, V.Hüseynov, T.Məmmədov, R.Mənəfova, R.Abbasova, N.Cəfərova, S.Əhmədov, S.Mustafayeva, S.İsayev, S.Qafarlı, G.Əliyeva,

S.Səmədov, Ş.Məmmədli, G.Əsgərova, Ə.Nüseynli, F.Babayeva, A.Allahverdiyeva, G.Qasımova, C.Rüstəmli və T.Qocayeva kimi öz peşəsini sevən hazırlıqlı müəllimlərin böyük əməyi olmuşdur.

Ümumiyyətlə, 1934-2022-ci illərdə, yəni 88 il ərzində məktəbdə 230 nəfərdən çox müəllim işləmişdir. Onların milli tərkibi müxtəlif olsa da, mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bu unudulmaz müəllimlər əsl xalq müəllimi kimi həyata vəsiqə almış gənclərin gözlərini maarif və elm nuru ilə işıqlandırmış, elm, təhsil, incəsənət və mədəniyyət carçıları olmuşlar. Artıq həmin müəllimlərin çoxu həyatda yoxdur, bir çoxu isə təqaüdə çıxmışdır. Lakin onların xatirəsi öz şagirdlərinin qəlbində yaşayır.

Müəllimlərin bir qismi isə bu gün də öz şərəfli pedaqoji fəaliyyətlərini davam etdirməkdədirlər.

2021/2022-ci dərs ilində məktəbdə 186 nəfər (bunlardan 87 nəfəri qızlardır, cəmi şagirdlərin 24 nəfəri erməni daşnakları tərəfindən işğala məruz qalmış Kəlbəcər, Laçın, Füzuli, Ağdam və digər rayonlardan qaçqın düşmüş soydaşlarımızın övladlarıdır.) şagird təhsil alır. 186 nəfər şagirdin təlim-tərbiyəsi ilə 27 nəfər (22 nəfəri qadın olmaqla) təhsil işçisi məşğul olur. Təhsil işçilərinin 22 nəfəri ali, 5 nəfəri orta-ixtisas təhsillidir.

Həmin müəllimlər - Azərbaycan dili və ədəbiyyatı müəllimi İmran Allahverdi oğlu Verdiyev (direktor), fizika

müəllimi Süleymanova Nərminə Fəxrəddin qızı (tədris işləri üzrə direktor müavini), Muğumova Rüxsarə Aslan qızı (tərbiyə işləri üzrə direktor müavini), Azərbaycan dili-ədəbiyyatı müəllimləri Vəfa Heydər qızı Qurbanova, Aygün Fəxrəddin qızı Atakişiyeva və Aytən Möhlüt qızı Atakişiyeva, riyaziyyat-informatika müəllimləri Həsənov Nazim Sultan oğlu, Bayramov Rafət Əmrah oğlu və Mənəfova Yeganə Seyfulla qızı, alman dili müəllimləri Möylamova Samirə Qəzənfər qızı və Mustafayeva Samirə Əlövsət qızı, ingilis dili müəllimi Rüstəmli Cəmilə Qurbanəli qızı, tarix müəllimi Məmmədli Şəbnəm Mirvaleh qızı, coğrafiya müəllimləri Əliyeva Mehriban Tacəddin qızı və İsayeva Aygün Yaqub qızı, kimya müəllimi Vahabova İradə İdris qızı, təcrübəli biologiya müəllimi İsmayılova Əmanət Niyazi qızı, müsiqi müəllimi Qocayeva Telli Vasif qızı, fiziki tərbiyə müəllimi Əhmədov Sərxan Nəbi oğlu, təsviri incəsənət və texnologiya müəllimi Əhmədova Pərvanə İsrəfil qızı, sinif müəllimləri Heydərova Səadət Saat qızı, Qasımova Bəsti Abuzər qızı, Heydərova Xalidə İlham qızı və Qasımova Gülxanım Əzim qızı, hərbi rəhbər Məmmədov Tale Rəhman oğlu, psixoloq Sadıqova Leyla Tofiq qızı və uşaq birliyinin rəhbəri Əliyeva Zərqələm Mürvət qızı şagirdlərə "Ümumi orta təhsilin dövlət standartları" səviyyəsində bilik, bacarıq vərdişlərin verilməsi, onların milli müstəqillik baxış və dünyagörüşlərinin formalaşdırılması,

“...müstəqil Azərbaycan cəmiyyətinin layiqli üzvləri kimi” (İ.Əliyev) yetişməsi, milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunması üçün əllərindən gələni əsirgəmir, ardıcıl və sistemli iş aparırlar.

Bu kamil, zəhmətkeş, qayğıkeş və humanist müəllimlərin əməyi ən yüksək qiymətə layiqdir. Çünki ümummilli lider H.Əliyevin dediyi kimi “Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən şəxslərdir.”

Bu gün Yaqublu məktəbində çalışan müəllimlərin əsl mükafatı şagirdlərinin həyatda qazandıqları uğurlar, valideynlərin və içtimaiyyətin nümayəndələrinin sevgisi, hörmət və ehtiramıdır.

Əminik ki, Yaqublu məktəbi və onun müəllimləri bundan sonra da yeni fikir və ideyalarla çıxış edəcək, kənddə təhsilin inkişafına öz layiqli töhfələrini verəcəklər.

Heç şübhəsiz ki, məktəbin əldə etdyi uğurlarda müəllimlərlə yanaşı texniki-xidmətedici heyət üzvlərinin də böyük əməyi vardır. Məktəb fəaliyyət göstərdiyi müddət ərzində burada onlarla xadimə, kitabxanaçı, katibə-makinaçı, usta, laborant, fəhlə, gözətçi və başqa peşə sahibləri işləmişlər. Onlar hələ də xoş xatirələrlə yad olunurlar.

Bu gün də məktəbdə öz işinə tam məsuliyyətlə yanaşan texniki-xidmətedici heyət üzvləri çalışırlar. Onlar

- təsərrüfat müdiri Rəsul Hümbət oğlu Mahmudov, kitabxanaçı Hürü Həsən qızı Ağayeva, katibə-makinaçı Həsənova Dilbər Sultan qızı, santexnik-fəhlə İsayev Şahin Cəlil oğlu, xadimələr Rəhimova Samirə Veyis qızı, Mənəfova Ruhiyyə Bayram qızı, Məmmədova Vüsalə Sərkər qızı və Süleymanova Ülkər Nəsir qızı, ocaqçılar Mənəfov İntiqam Nəsir oğlu və Rəhimov Sərvər Rəhim oğlu, gözətçilər Abdullayev Aydın Abdulla oğlu və Abdullayev Orxan Aydın oğlu məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi və zənginləşdirilməsi, əmlakın mühafizəsi, ən əsası təlim-tərbiyə prosesinin normal təşkili üçün sağlam və təhlükəsiz iş şəraitinin yaradılması üçün gərgin əmək sərf edirlər. Onların zəhməti təqdirə layiqdir.

Məktəbin əmək kollektivinin üzvləri haqqında saatlarla, günlərlə danışmaq, səmimi və xoş sözlər söyləmək olar.

Şübhəsiz ki, burada yaranmış və on illər ərzində sınaqdan çıxmış zəngin tarixi ənənələr, formalaşmış iş sistemi, mənəvi-psixoloji mühit, müəllimlərin iş təcrübələri gələcəkdə yeni işə başlayacaq müəllimlər və texniki-xidmətedici heyət üzvləri üçün nümunə və stimul olacaq.



**Məktəbin pedaqoji kollektivi. 18 fevral 2022**



**Məktəbin texniki-xidmətedici heyəti = 2022-ci il**




**Məktəbin pedaqoji kollektivi – sentyabr 2021-ci il**



**Məktəbin pedaqoji kollektivi – sentyabr 2020-ci il**

## Məktəbin rəhbərləri barədə qısa xatırlatma

Qeyd etdiyimiz kimi məktəbin ilk müəllimi Rza Ələkbərov olmuşdur. R.Ələkbərov həm də məktəbin ilk müdiri idi.

Ələkbərov Rza Hümbət oğlu21 may 1919-cu ildə İrəvan Quberniyasının Ağcaqala kəndində anadan olmuşdu. Deportasiyaya məruz qalaraq 1923-cü ildən ailəlikcə Oğuz (Vartaşen) rayonunun Yaqublu kəndində məskunlaşmışdır.

Əmisi A.Əhmədovun köməkliyi ilə Şəki (Nuxa) şəhərində natamam orta məktəbi bitirmişdir.

Kənddə orta və orta-ixtisas, ali təhsilli və ixtisaslı kadr olmadığına görə gənc Rza Vartaşen (Oğuz) RMŞ-nin 15 dekabr 1934-cü il tarixli 167 nömrəli əmri ilə həmin vaxtdan Yaqubluda yeni açılmış ibtidai məktəbə müəllim və məktəb müdiri təyin olunmuşdu. R.Ələkbərov 1938-ci ilə kimi bu məktəbdə işləmişdi.

1938-ci ildə Goranboy rayonunun Faxralı kəndinə köçmüş, pedaqoji fəaliyyətini həmin rayondakı Muzdurlar kənd məktəbində davam etdirmişdir.

1940-cı ildə ailə qurmuşdur. O, 1941-ci ildə cəbhəyə getmiş, 1947-ci ildə ordu sıralarından tərxis olunmuşdu. Rza Ələkbərov həmin ildən Goranboy rayonunun Dəlməmmədli qəsəbəsində məskunlaşmışdır.

Bir müddət mağazada satıcı işləmişdir. Sonralar əmək fəaliyyətini Goranboy rayonundakı Dəlməmmədli

qəsəbəsində fəaliyyət göstərən pambıqtəmizləmə zavodunda davam etdirmişdir.

1982-ci ilin sentyabr ayının 21-də vəfat etmiş və Dəlməmmədli kəndində dəfn olunmuşdur.

1980-cı illərin sonuna kimi məktəbin uğurlarında ona müdirlik və ya direktorluq etmiş, əsl xalq müəllimləri R.Ələkbərovun, İ.İbrahimovun (1945-1949), B.Şükürovun (1949-1951),B.Həşimovun (1951-1955), M.Mikayılovanın (1955-1958), İ.Rəhimovun (1958-1960), İ.Vahabovun (1960-1965) və H.Qurbanovun (1965-1989) böyük əməyi olmuşdur. Onlar rayonun qabaqcıl təhsil işçiləri və bacarıqlı təhsil təşkilatçıları idilər. (Təəssüf ki, 1938-1945-cü illərdə məktəbə rəhbərlik edənlərin adlarını tam olaraq dəqiqləşdirmək mümkün olmamışdır.)

Siyahıdan göründüyü kimi, məktəbin yeganə qadın direktoru Maral Mikayılova məktəbə 1955-1958-ci illərdə müdirlik etmişdir.

Məktəbin 1965-1989-cu illərdə əldə etdiyi bütün nailiyyətlər ona 24 il direktorluq etmiş Qurbanov Heydər Əkbər oğlu, uzun illər tədris işləri üzrə direktor müavinləri olmuş Heydərov Saat Qara oğlu və Haqverdiyev Əbülfət İbrahim oğlunun adı ilə sıx bağlılıdır. Onlar həm də kəndin ilk ali təhsilli və pedaqoji ixtisaslı sakinləri olmuşlar.

Qurbanov Heydər Əkbər oğlu 1927-ci ildə Yaqublu kəndində anadan olmuşdu. İbtidai təhsilini Yaqublu, orta

təhsilini isə Padar və Qayabaşı kəndlərindəki orta məktəblərdə almışdı.

O, əmək fəaliyyətinə 1944-cü ildə kolxozçu kimi başlamışdır, sonra təsərrüfat briqadiri işləmişdir. H.Qurbanov 1941-1945-ci illərdə - müharibə dövründə arxa cəbhədəki əmək fəaliyyətinə görə "Əmək igidliyinə görə" medalı ilə təltif olunmuşdur.

1950-1952-ci illərdə Nuxa (Şəki) 2 illik müəllimlər institutunda oxumuş, 1952-ci ildən Yaqublu kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlamışdır. 1962-ci ildə keçmiş APİ-nin filologiya fakültəsini bitirmişdir. Kəndin ilk ali təhsilli sakinlərindəndir.

1965-1989-cu illərdə Yaqublu məktəbinin direktoru vəzifəsində işləmişdir.Həmin dövrdə təlim-tərbiyənin səviyyəsinin yüksəldilməsi, məktəbin maddi-texniki bazansının möhkəmləndirilməsi – 4 yeni sinif otağının inşası, emalatxana, yeməkxana, idman kompleksinin və hərbi şəhərciyin tikilməsi, zəngin fənn kabinetləri və dərslik fondunun yaradılması, yerli ixtisaslı kadrların yetişdirilməsi və s. onun və rəhbərlk etdiyi pedaqoji kollektivin gərgin əməyi hesabına mümkün olmuşdur.

Heydər müəllim rayonun tanınmış, təcrübəli və qabaqcıl təhsil işçiləridən biri olmuşdur. İş təcrübəsi dəfələrlə öyrənilərək rayon səviyyəsində yayılmışdır.

H.Qurbanov 70 illik ömrünün 45 ilini kənddə təhsilin inkişafına həsr etmiş, fəal və təəssübkeş ziyalılardan biri olmuş, içtimai işlərdə həmişə fəallıq göstərmişdir. Kəndin

ağsaqqal, nüfuzlu və hörmətli şəxslərindən biri idi. Dəfələrlə kənd XDS-nin deputatı seçilmişdir.

1971-ci ildə "Qabaqcıl maarif xadimi" döş nişanı və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri-fərman"ı ilə təltif olunmuşdur.

1997-ci ildə vəfat etmiş və Yaqublu kəndində dəfn olunmuşdur.

Yazıçı-rəssam, Azərbaycan Jurnalistlər və Rəssamlar İttifaqlarının, ölkə Yazıçılar Birliyinin üzvü, Mədəniyyət və İncəsənət İnstitutunun müəllimi, "İncəsənət" qəzetinin redaktoru olmuş, Yaqublu məktəbinin məzunlarından Əşrəf İbrahimov özünün "Sultan Məhəmməd" romanını ona ithaf etmişdir.

Heydərov Saat Qara oğlu 7 fevral 1929-cu ildə Ermənistan SSR-nin Amasiya rayonunun Güllücə kəndində anadan olmuşdur. 1936-cı ildə Güllücə kənd məktəbinin I sinfinə qəbul olunmuşdu. Güllücə kəndində orta məktəb olmadığına görə 1942-ci ildən təhsilini qonşu Güllübulaq kənd orta məktəbində davam etdirmişdir. 1945-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmişdi.

S.Heydərov həmin ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuşdu. 1948-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandakı doğma və qədim torpaqlarından məcburi köçürülməsi ilə əlaqədar olaraq II kursdan təhsilini Bakı şəhərindəki M.Ə.Sabir adına Texnikumda davam etdirmişdir.

Texnikumu bitirdikdən sonra təyinatla Vartaşen (Oğuz) rayonunun Yaqublu kənd natamam orta məktəbinə müəllim göndərilmişdi. Bir illik müəllimlik fəaliyyətindən sonra 3 illik hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini Rusiyanın Rostov şəhərində keçirmişdir. Hərbi xidməti başa vurduqdan sonra Yaqublu kənd məktəbində müəllim kimi fəaliyyətini davam etdirmiş, uzun müddət təlim tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdı.

Sonralar keçmiş APİ-nin ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə qəbul olunmuş, 1955-ci ildə oranı bitirmişdir. Kəndin ilk ali təhsilli pedaqoji kadrı sayılır. Uzun illər təlim-tərbiyə işləri üzrə direktor müavini işləmiş, məktəb içtimai təşkilatlarının və ərazidəki "yoldaşlıq məhkəməsi"nin sədri olmuşdur.

S.Heydərovun təşəbbüsü ilə 1970-ci illərdə yaradılmış coğrafiya meydancası təlimdə əyaniliyin tətbiqinə geniş imkanlar açırdı. Burada atmosferin münbitliyinin və yağıntının miqdarının ölşülməsi, səmt küləklərinin öyrənilməsi üçün kiçik tədqiqat işləri aparılırdı.

O, səmərəli fəaliyyətinə görə dəfələrlə fəxri-fərmanlarla, "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. S.Heydərovun yeddi övladından 6-sı onun sənətinin davamçıdır.

1990-ci ildə dünyasını dəyişmiş və Yaqublu kəndində dəfn olunmuşdur.

Haqverdiyev Əbülfət İbrahim oğlu 5 mart 1932-ci ildə Vartaşen (Oğuz) rayonunun Zərrab kəndində anadan

olmuşdur. İlk təhsilini 1939-1946-cı illərdə Zərrab kənd ibtidai məktəbində almış, 1947-1950-ci illərdə isə Şəki rayonunun qonşu Qayabaşı kəndindəki məktəbdə oxuyaraq orta təhsilini başa vurmuşdur.

1950-ci ildə keçmiş Kirovabad Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə qəbul olmuş, 1954-cü ildə həmin ali məktəbi bitirmişdir.

O, 1954-cü ildə təyinatla Ağdam rayonundakı Mahzırlı kənd orta məktəbində pedaqoji fəaliyyətə başlamışdır. Təyinat müddəti bitəndən sonra–1957-ci ildən Vartaşen (Oğuz) rayonunun Yaqublu kənd natamam orta məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. 1977-ci ilədək həmin məktəbdə fizika-riyaziyyat müəllimi və təlim-tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

1977/1978-ci dərs ilindən 1994-cü ilədək öz doğma kəndində - Zərrab kəndində məktəb direktoru kimi fəaliyyətini davam etdirmişdir. 1994-cü ildə öz xahişi ilə direktor vəzifəsindən azad olunub, direktor müavini təyin edilmişdir.

2001/2002-ci dərs ilinin sonunda keçirlən “Son zəng” tədbirində çıxış edərək məktəbin şagird və müəllim kollektivinə, valideynlərə öz öyüdlərini, məsləhət və nəsihətlərini vermişdi. Bu, sanki təcrübəli bir pedaqoqun həyatının son akkordları idi.

Ə.Haqverdiyev həmin gün–31 may 2002-ci il tarixdə “Son zəng” tədbirindən evinə gedəndən bir neçə

saat sonra vəfat etmişdi. Zərrab kəndində dəfn olunmuşdur.

1989-1992-ci illərdə Yaqublu məktəbinə rayonun təcrübəli müəllimlərindən olan Ə.Həbibullayev direktorluq etmişdir.

1992/1993-cü dərs ilndən bu günə kimi isə məktəbə onun öz məzunu, Azərbaycan Respublikasının Əməkdar müəllimi İ.Verdiyev direktorluq edir.

Verdiyev İmran Allahverdioğlu 15 yanvar 1958-ci ildə Vartaşen (indiki Oğuz) rayonunun Yaqublu kəndində anadan olmuşdur. Orta təhsilini 1965–1975-ci illərdə Yaqublu kənd orta məktəbində almışdır.

1975-ci ildə keçmiş APİ-nin (indiki ADPU-nun) filologiya fakültəsinə daxil olmuş, 1979-cu ildə həmin ali məktəbi bitirmişdi. Təyinatla 2 avqust 1979-cu il tarixdən Oğuz rayonundakı Yaqublu kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi əmək fəaliyyətinə başlamışdır.

Dəfələrlə kənd XDS-nin deputatı seçilmişdir.1985–1990-ci illərdə Vartaşen (Oğuz) rayonundakı Yaqublu kənd XDS-nin İcraiyyə Komutəsinin sədri, 1990-cı ilin may ayından dekabr ayına kimi isə qonşu Zərrab kənd orta məktəbində tədris işləri üzrə direktor müavini vəzifələrində işləmişdir.

1990-cı ilin dekabr ayından yenidən öz doğma məktəbində -Yaqublu kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir.

Oğuz RTŞ-nin 26 avqust 1992-ci il tarixli 223 nömrəli əmri ilə oxuduğu və işlədiyi məktəbə direktor təyin edilmişdir.

Artıq 30 ildir ki, direktor vəzifəsində çalışır. Bu illər ərzində məktəbdə sağlam mənəvi-psixoloji və əlverişli təhlükəsiz iş mühitin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, möhkəm və işgüzar pedaqoji və şagird kollektivinin formalaşdırılması, təhsil strategiyasının və kurikulum islahatının reallaşdırılması, müəllim-şagird, müəllim-müəllim, müəllim-rəhbər münasibətlərində hörmət və tələbkarlığın gözlənilməsi, ailə - məktəb münasibətlərinin düzgün tənzimlənməsi, təfəkkür məktəbinin, yeni pedaqoji təfəkkürün və təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması, gənc pedaqoji kadrlarla iş, məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi və təhsilalanlar üçün əlverişli təlim və inkişaf mühitinin yaradılması onun gündəlik qayğıları olmuşdur. Kənddə yeni və müasir tələblərə cavab verən məktəb binasının tikilməsində də az əməyi olmamışdır.

Həm müəllim, həm də direktor kimi iş təcrübəsi həmişə maraq doğurmuşdur. Rayon, zona, respublika və beynəlxalq səviyyəli bir sıra konfrans, müşavirə, seminar və treninqlərin iştirakçısıdır.Azərbaycan müəllimlərinin XII qurultayının nümayəndəsi olmuşdur. Uzun illər Oğuz RTŞ-nin şura üzvü olub.

Onun müxtəlif münasibətlərlə Bakı, Gəncə, Ağdaş, Sumqayıt, Qəbələ, Şəki, MİngəçevIr və Oğuz şəhərlərinin

ümumtəhsil məktəblərində keçirilmiş açıq dərsləri həmişə maraqla qarşılanmışdır. Araşdırmaları və pedaqoji iş təcrübəsi akademiklər Ə.Dəmirçizadə və H.Əhmədov, Bakı şəhəri Tİ-nin keçmiş rəisi, tanınmış təhsil işcisi A.Cahangirov, "Azərbaycan məktəbi" jurnalının redaktoru N.Həcəfov, Bakı Ali Pedaqoji Qızlar Seminariyasının təsisçisi, nasir və dramaturq, professor A.Rəhimov, pedaqoji elmlər doktoru S.Axundov, yazıçı-rəssam, Azərbaycan Jurnalistlər və Rəssamlar İttifaqlarının, Yazıçılar Birliyinin üzvü, Mədəniyyət və İncəsənət İnstitutunun müəllimi, "İncəsənət" qəzetinin redaktoru Ə.İbrahimov, "Təhsil problemləri" qəzetinin redaktoru M.Rəcəb, "Respublika" qəzetinin müxbiri R.Amanov və digərləri tərəfindən yüksək qiymətləndirilmişdir. Səmərəli fəaliyyəti və uğurları Təhsil Nazirliyinin kollegiya qərarlarında və əmrlərində, Oğuz müəllimlərinin ənənəvi konfranslarında, Oğuz RTŞ-nin şura iclaslarında dəfələrlə qeyd edilmişdir.

İş təcrübəsi barədə zaman-zaman "Azərbaycan", "Respublika", "Azərbaycan müəllimi", "Təhsil və zaman", "Təhsil problemləri" və "Oğuz yurdu" qəzetlərində, "Kurikulum", "Təhsil", "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnallarında yazılar dərc olunmuş, İ.Vahabovun "Oğuz təhsili" (I hissə), S.Aslanın "Azərbaycan ziyalıları" və N.Hüseynlinin "Yurdum, torpağım, əzəl ünvanım–Oğuz" və digər kitablarda geniş məlumatlar verilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 9 sentyabr 1998-ci il tarixli 610(s) saylı sərəncamına əsasən iş təcrübəsi öyrənilərək yayılmışdır.

Metodik tövsiyə müəllifidir. İ.Verdiyevin Oğuz müəllimlərinin iş təcrübəsi əsasında hazırladığı "BMT-nin "Uşaq Hüquqları Konvensiyasının müəddəalarının öyrənilməsi, təbliği və tətbiqi" adlı metodik tövsiyəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-metodik şurasının "Məktəbəqədər tərbiyə və ibtidai məktəb" bölməsinin 16 mart 2002-ci il tarixli 3 saylı protokolu ilə təsdiq olunaraq çap olunmuş və müəllimlərin istifadəsinə verilmişdir.

İ.Verdiyev Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün "Azərbaycan dili üzrə təhsil proqramı (kurikulumu)"nı (I-XI siniflər) hazırlayan işçi qrupunun üzvü olmuşdur.

1998-ci ildə keçirilən "İlin ən yaxşı müəllimi" müsabiqəsinin respublika turunun qalibi olduğuna görə Təhsil Nazirliyinin Fəxri fərmanı, 2000-ci ildə isə "Təhsilin humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün təzahürüdür" mövzusunda keçirilmiş Respublika pedaqoji mühazirələrinin yekun turunun qalibi olaraq I dərəcəli diplom ilə təltif edilmişdir. "Elektron təhsil" müsabiqəsində də uğurla çıxış etmiş, 2014-cü ildə "Milli elektron tədris resurslarının yaradılması" nominasiyasında fərqlənərək Diplomla təltif olunmuşdur.

İ.Verdiyev Oğuz RTŞ-nin keçirdiyi müxtəlif baxış və müsabiqələrin də qalibidir. Rəhbərlik etdiyi məktəb dəfələrlə "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olmuşdur.

Fəaliyyətində tədqiqatçılıq və yaradıcılıq xüsusi yer tutur. Onun "Azərbaycan müəllimi", "Təhsil problemləri", "Təhsil və zaman", "P.S. Elm, təhsil və həyat", "Maarifçi", "İncəsənət", "Bəşər", "Üç nöqtə", "Oğuz yurdu", "Mingəçevir işıqları", "Ədalət", "Səs", "Qəbələ", "Xalq" qəzetlərində; "Kurikulum", "Azərbaycan məktəbi", "Azərbaycan dili və ədəbiyyat tədrisi","Təhsil" jurnallarında və digər mətbuat orqanlarında, "ManeraAZ" və digər saytlarda 90-dan çox yazısı dərc olunmuşdur ki, bunların da çoxu pedaqoji mövzulardadır. Bu məqalələrdə səmərəli iş təcrübələrindən söz açılır, təlim-təbiyənin aktual problemlərindən bəhs edilir, maraqlı və orjinal təkliflər irəli sürülür.

Onun xalqımızın ana kitabı sayılan "Kitabi Dədə Qorqud" dastanı və bu dastanın tədrisi barədə silsilə məqalələri xüsusi maraq doğurmuşdur. Heç də təsadüfi deyildir ki, "Azərbaycan müəllimi" qəzetində çap olunmuş "Kitabi-Dədə Qorqud" dastanının tədrisində milli müstəqillik dünyagörüşünün formalaşdırılması" adlı məqaləsi ölkə Prezidentinin Fərmanına əsasən hazırlanaraq ilk dəfə 2000-ci ildə nəfis şəkildə çap olunmuş "Kitabi Dədə Qorqud" biblioqrafiyası" na daxil edilmişdir

İmran müəllim öz doğma kəndinin və məktəbinin tarixi haqqında araşdırmalar aparır. Bu araşdırmaların nəticəsi olaraq onun 2003-cü ildə "Yaqublu məktəbi" və "Yaqublu və yaqublulular" adlı kitabları çap olunmuşdur. Əlinizdəki bu kitab da İ.Verdiyevin gərgin əməyinin bəhrəsidir.

İ.Verdiyev 2005-ci il oktyabr ayının 4-də Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Sərəncamı ilə Əməkdar müəllim Fəxri adına layiq görülmüşdür. Bu, onun əməyinə verilən ən yüksək qiymətdir.

Hazırda Oğuz rayonundakı Yaqublu kənd T.Babayev adına tam orta məktəbdə direktor və müəllim kimi əmək fəaliyyətini davam etdirir. İ.Verdiyevin rəhbərliyi, təşkilatçılığı, ciddi səyi və müəllimlərin gərgin əməyi nəticəsində Yaqublu məktəbi rayonun qabaqcıl məktəblərindən birinə çevrilmişdir. (N.Çələbiyevin əlavəsidir)

Məktəb fəaliyyətə başlayandan sonra burada tədris prosesinə səriştəliliklə rəhbərlik etmiş, öz yaradıcı fəaliyyətləri ilə seçilən, işgüzar, gənc müəllimlərin əsl himayəçiləri olmuş H.Qurbanov, S.Heydərov və Ə.Haqverdiyevlə yanaşı B.Şükürov, U.Umarov, Z.Azakov, A.Davudov, G.Fətəliyeva, G.Sübəyeva, S.Simanduyeva, İ.Vahabova, N.Həsənov və N.Süleymanova kimi qayğıkeş, işgüzar, tələbkar və prinsipial tədris işləri üzrə direktor müavinləri işləmişlər.

Məktəbin uğurlarında, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində uzun illər burada tədris işləri üzrə direktor müavini işləmiş Həsənov Nazim Sultan oğlunun böyük əməyi olmuşdur.

Nazim Sultan oğlu Həsənov 1956-ci ildə Yaqublu kəndində anadan olmuşdur. Orta təhsilini 1964-1974-cü illərdə Yaqublu kənd orta məktəbində almışdır.

1974-cü ildə kənddəki "Azərbaycan" kolxozunda kolxozçu kimi əmək fəaliyyətinə başlamışdır.

1975-ci ildə keçmiş Kirovabad (Gəncə) Pedaqoji İnstitutunun riyaziyyat fakütəsinə daxil olmuş, 1979-cu ildə ali təhsilini başa vurmuşdur.

1979-cu ilin avqust ayından Yaqublu kənd tam orta məktəbində riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Uzun illər müəllim işləmişdir. Şagirdlərə tədris proqramlarının tələbləri səviyyəsində bilik verilməsi, riyaziyyatın tədrisinin yaxşılaşdırılması, təhsilin hümanistləşdirilməsi, fəal təlim üsullarından istifadə edilməsi sahəsində zəngin iş təcrübəsinə yiyələnmişdir.

1992-ci ildə tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin olunmuşdur. Tədris işləri üzrə direktor müavini kimi 29 il tədris prosesinin təşkili və idarə edilməsi, təlim prosesinin təkmilləşdirilməsi, fəal təlim üsullarının yayılması, gənc müəllimlərlə iş, tədrisin səviyyəsinin yaxşılaşdırılması və keyfiyyətinin yüksəldilməsi, kadrlarla elmi-metodiki işlərin təşkili, onların peşə-ixtisas və ümumi mədəni səviyyələrinin

artırılması, təhsil islahatının gerçəkləşdirilməsi onun gündəlik işləri olmuşdur.

Öz fəaliyyəti ilə pedaqoji və şagird kollektivlərinin və kənd içtimaiyyətinin böyük hörmətini qazanmışdır.

42 illik pedaqoji iş stajına malik olan N.Həsənov çalışmanın yaş həddinə çatması ilə əlaqədar 2021-ci ilin dekabr ayında təntənəli şəkildə təqaüdə yola salınmışdır.

2021-ci ilin dekabr ayından tədris prosesinə məktəbin təcrübəli müəllimlərindən olan Süleymanova Nərminə Fəxrəddin qızı rəhbərlik edir.

Nərminə Fəxrəddin qızı Süleymanova bir avqust 1978-ci ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur. 1985-1995-ci illərdə Qayabaşı kəndindəki orta məktəbdə təhsil almışdır.

1996-cı ildə BDU-nun fizika fakültəsinə daxil olmuş, 2000-ci ildə ali təhsilini başa vurmuşdur.

2000-ci ilin avqust ayından Yaqublu kənd orta məktəbində fizika müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. İşlədiyi müddətdə müəllim və şagird kollektivinin dərin hörmətini qazanmışdır. 21 ildən artıq pedaqoji iş stajına və iş təcrübəsinə malikdir.

2021-ci ilin dekabr ayının 14-dən məktəbdə tədris işləri üzrə direktor müavini vəzifəsində işləyir.

Aparılan sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin planlaşdırılması, milli və bəşəri dəyərlər əsasında təşkili və hazırlanıb keçirilməsində məktəbin tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işləmiş S.Sərkərov, L.Heydərova, A.Fətəliyeva, A.Heydərov və R.Muğumova öz səmərəli fəaliyyətləri ilə yadda qalmışlar.

1996-cı ildən məktəbdə tərbiyə işləri üzrə direktor müavini işləyən Muğumova Rüxsarə Aslan qızının bu işlərdə daha çox əməyi olmuşdur.

Muğumova Rüxsarə Aslan qızı 28 dekabr 1963-cü ildə Oğuz rayonunun Yenikənd kəndində anadan olmuşdur. 1970–1981-ci illərdə Yaqublu kənd orta məktəbində təhsil almışdır.

Əmək fəaliyyətinə "Azərbaycan" üzümçülük sovxozunda fəhlə kimi başlamış, sonra bir müddət həmin kolxozun Yenikənd kəndindəki uşaq baxçasında tərbiyəçi və müdir vəzifələrində çalışmışdır. 1984-1987-ci illərdə isə təhsil aldığı Yaqublu kənd orta məktəbində laborant işləmişdir.

1982-ci ildə qiyabi formada indiki GDU-nin riyaziyyat fakültəsinə daxil olmuş, 1987-ci ildə ali təhsilini başa vurmuşdur.

1987-ci ilin avqust ayından Yaqublu kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətini davam etdirmişdir.

1996-cı ilin sentyabr ayında həmin məktəbdə tərbiyə işləri üzrə direktor müavini (təşkilatçı) vəzifəsinə təyin olunmuşdur. Hal-hazıra kimi bu vəzifədə işləyir.

Tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işlədiyi 25 il ərzində şagirdlərin dünyagörüşünün formalaşdırılması və onların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi üçün keçirilmiş yüzlərlərlə sinifdənxaric və məktəbdənkənar tədbirin əsas təşkilatçılarından biri olmuşdur.





**Ələkbərov Rza Hümbət oğlu Məktəbin ilk müdiri və müəllimi**

**Ourbanov Heydər Əkbər oğlu**





**Heydərov Saat Qara oğlu**

**Haqverdiyev Əbülfət İbrahim oğlu**

## Məktəb XX əsrdə

1934-cü ilin dekabr ayında açılmış məktəbdə ərazidəki məktəbyaşlı uşaqların hamısının təhsilə cəlb edilməsi məqsədi ilə sinif təkcə 8-10 yaşlı uşaqlardan deyil, həm də heç vaxt təhsil görməmiş daha böyük yaşlı uşaqlardan ibarət idi. Qonşu Yenikənd kəndində yaşayan və ləzgi millətindən olan məktəbyaşlı uşaqlar da burada təhsilə cəlb olunmuşdular.

Belə bir "kontingent"ə malik bir "məktəbdə" dərs demək, əlbəttə ki, heç də asan, problemsiz deyildi. Lakin o dövrün çətinliklərinə baxmayaraq ilk kənd müəllimi kimi gənc R.Ələkbərov savadsızlığın hökm sürdüyü bir yerdə yeni bir maariflənmə həyatının başlanmasından, kənd sakinlərinə yazıb-oxumaq öyrətməyin sevincini yaşamaqdan fərəh duyaraq, dərsləri həvəslə, maraqla aparır, bu çətin işin öhdəsindən bacarıqla gəlirdi.

Siniflərin sayı artdıqca yeni müəllimlərinin də sayı artırdı. 1939-cu ildə qonşu Padar kənd natamam orta məktəbinin müəllimi Ə.Hacızadəyə Moskvada Kalinin tərəfindən “Şərəf nişanı” ordeninin təqdim olunması məktəbin müəllimləri arasında böyük ruh yüksəkliyi yaratmışdı.

Müəllimlər könüllü olaraq dərslərdən sonra arzu edən yaşlı kənd sakinləri üçün fərdi və qrup şəklində məşğələlər təşkil edir və onlara yazıb-oxumaq öyrədirdilər. Onlar həmçinin RMŞ-si tərəfindən Yenikənd kəndində köçəri

kolxozçular üçün təşkil edilmiş “yay kurslarında” savadsızlığın ləğvində, əhalinin maarifləndirilməsində də yaxından iştirak edirdilər.(30,səh:182)

1941-ci ildə müharibənin başlanması ilə Yaqublu məktəbinin də ağır günləri başlanmışdı. Həmin illərdə kəndin əli silah tutanlar, o cümlədən müəllimlərin bəziləri cəbhəyə yollanmışdı. Məsələn, müəllimlərdən Ə.Rzayev, S.Səmədov, F.Kərimov və digərləri kütləvi səfərbərlik əsasında hərbi xidmətə çağrılmışdılar.

Ciddi iş rejminə keçilmişdi. Müəllimlər gündəlik dərslərlə yanaşı, əhali arasında fəal təbliğat və təşviqat işləri aparır, çağırışçıların savadlandırılması və onlara rus dilinin öyrədilməsi üçün əlavə məşğələlər təşkil edir, savadsızılıqla mübarizə aparır, təsərrüfat işlərində çalışır, dərman bitkiləri toplayır, ölkənin müdafiə fonduna yardım edir, cəbhədə olan əsgər ailələrinə hər cür yardım göstərirdilər.

Vartaşen (Oğuz) rayon MŞ-nin 20 may 1941-ci il tarixli əmri ilə kəndin ərazisində çağırışyaşlı gənclərə rus dilini öyrətmək müəllim N.Qazıyevə tapşırılmışdı. 25 yanvar 1943-cü il və 13 may 1945-ci il tarixli əmrlərlə məktəbin müəllimləri (H.Həmidov, M.Musayev, S.Poladova və digərləri) yay aylarında kolxozda təsərrüfat işlərinə səfərbər olunmuşdular.

Beş il davam edən ağır müharibə dövründə qısa fasilələrə yol verilsə də, məktəb öz fəaliyyətini dayandırmamışdı.

Məktəbin direktoru İ.İbrahimovun Yaqublu kənd ZDS-nin 15 yanvar 1947-ci il tarixli heyət iclasındakı hesabatından belə məlum olur ki, 1946/1947-ci dərs ilində məktəbə 134 nəfər şagird cəlb edilibmiş. Birinci yarımildə tədrisin keyfiyyət səviyyəsi 80% olub, 6 pedaqoji şura və 3 valideyn yığıncağı keçirilib.(33).

Yeni məktəb binasında RTŞ-nin əmri ilə may böcəyi və digər ziyanvericilərə qarşı mübarizə aparmaq və toxumları müayinə etmək üçün məntəqə yaradılmışdı. Məktəbin təbiət müəllimi G.İbrahimova məntəqə rəhbəri təyin olunmuşdu. “Komsomol” kolxozu zərərvericilərlə mübarizədə məntəqənin tövsiyələrindən istifadə edir, buğda, arpa, darı, qarğıdalı, günəbaxan və bostan bitkilərinin toxumlarını burada müayinədən keçirirdi. (31,səh:14)

Məktəbdə nümunəvi tədris-təcrübə sahəsi yaradılmışdı. Sahədə torpağın təbii-ekoloji şəraiti, tipi, münbitliyi, günəş işığı, iqlimi və s. barədə təcrübələr aparılır, təbiətşünaslıq və ümumi biologiya üzrə mövzulara aid bəzi yabanı və mədəni (ərik, alça, gilas, tut və s.) bitki və ağaclar becərilirdi. İ.Rəhimovun direktor işlədiyi dövrdə (1958-1960) məktəbin tədris-təcrübə sahəsinin işi öyrənilərək rayon səviyyəsində yayılmışdı.

Savadsızlığın ləğvində mühüm rol oynamış bu təhsil ocağı ötən əsrin 30-50-ci illərində Yaqublunun maarif və mədəniyyət mərkəzinə çevrilmişdi. Məktəb kəndin içtimai-siyasi həyatının canlanmasına, sosial simasının

dəyişməsinə, əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə öz təsirini göstərir, yerli ziyalıların yetişməsində böyük rol oynayırdı.

Bu illərdə məktəbin müəllimləri təlim-tərbiyə işləri ilə bərabər, kəndin içtimai-siyasi həyatında da fəal iştirak edirdilər. Məsələn, onlar savadsızlıqla mübarizə aparır, əhali arasında təbliğat-təşviqat işləri görür, kəndli gənclərlə, şagirdlərlə birlikdə kitab müzakirələri, disputlar, ədəbi-bədii gecələr, konsert və teatr tamaşaları təşkil edir, əhalinin siyahıya alınmasında və seçki komissiyalarının işində fəallıq göstərirdilər.

Bu illərdə kənddə savad kursları da öz fəaliyyətini davam etdirirdi. Məktəbin rəhbərləri və müəllimlər 16-50 yaşlılar arasında savadı olmayanları müəyyənləşdirir, onların savadlanmasını təşkil etmək üçün fərdi müəllimlər təhkim olunurdu.

1954/1955-ci tədris ilində məktəbin 7 sinif komplektində 63 nəfər (onlardan 29 nəfəri qız idi) təhsil alırdı. Həmin ildə məktəbin maddi-texniki bazasını möhkəmlətmək məqsədi ilə büdcədən 248 manat vəsait sərf olunmuşdu.

1960-cı illərin sonlarında Yaqublu kəndində kolxozun vəsaiti hesabına körpələr evi və uşaq baxçasının açılması və fəaliyyətə başlaması kəndlərdə yaşayan uşaqların məktəbə hazırlanmasında əhəmiyyətli rol oynamağa başlamışdı.

1960-ci ildə məktəbdə cəmi 97 (53 nəfər qız) nəfər şagird təhsil alırdı. Lakin onların sayı ildən-ilə artırdı. Belə ki,1967-ci ildə şagirdlərin sayı 158 (65 nəfər qız) nəfərə çatmışdı.

Həmin illərdə də əvvələr olduğu kimi kolxoz məktəbin maddi-texniki bazasının məıhkəmləndirilməsinə yaxından kömək edirdi. Məsələn, 1968-ci ildə "Azərbaycan" kolxozu şagirdlərə dərslik və dərs vəsaitlərinin alınması üçün 350 manat, imkansız uşaqların ehtiyacının ödənilməsi üçün 300 manat vəsait sərf etmişdi. 1970-ci ildə isə məktəb kolxozun 30 may 1970-ci il tarixli 6 saylı ümumi yığıncaq qərarı ilə əsaslı təmir edilmişdi.

1960-1970-ci illərdə burada yaşlı kənd sakinlərinin təhsil alması üçün axşam kəndli gənclər sinifləri də təşkil olunmuşdu. 1990-cı illərdə isə bu siniflər qiyabi təhsil qrupları ilə əvəz edilmişdi.

1980-ci illərdə bu təhsil ocağında müəllimlərin fəaliyyəti üçün daha əlverişli şərait yaradılmışdı. Həm büdcə, həm də kolxoz vəsaiti hesabına məktəbin maddi-texniki bazası xeyli möhkəmlənmişdi. Məktəb əsaslı təmir olunmuş, 4 əlavə sinif otağı, tədris emalatxanası, yeməkxana tikilmiş, müasir və yeni fənn kabinetləri quraşdırılmış, çoxlu əyani və texniki təlim vasitələri alınmış, rayonda ilk dəfə olaraq burada kompleks idman meydançası istifadəyə verilmişdi. Zəngin dərslik fondu yaradılmışdı. 1968-ci ildə məktəb kitabxanasında 2198 ədəd kitab və jurnal vardı.

Məktəbin ailə və içtimaiyyətlə əlaqələri də güclənmiş, əmək və icra intizamı, nəzarət və rəhbərlik işləri xeyli yaxşılaşmış, məktəb pedaqoji kadrlarla tam təmin olunuşdu. Həyata keçirilən tədbirlərin nəticəsində məktəbin naliliyyətləri ildən-ilə artır, öz işi ilə fərqlənən müəllimlərin sayı çoxalırdı. Məktəbin direktoru Heydər Qurbanov üç oktyabr 1987-ci il tarixli "Lenin bayrağı" qəzetində çap olunmuş "Zəhmətsevər ruhda" adlı məqaləsində yazırdı: "Öz işini günün tələbləri səviyyəsində quran, məktəb islahatından irəli gələn vəzifələri dönmədən həyata keçirən müəllimlərimiz çoxdur. Belələrinə A.Heydərovu, İ.Vahabovanı, X.Qurbanovanı, M.Əliyevanı, Ə.Həbibullayevi və başqalarını nümunə göstərmək olar. Onlar nəinki şagirdlərin və müəllimlərin, eyni zamanda kənd camaatının dərin hörmətini qazanmışlar."

1960-1980-cı illərdə məktəbdə şagirdlərin əmək tərbiyəsi, peşəyönümü, içtimai- faydalı əməyinin təşkil edilməsi sahəsində nümunəvi iş sistemi formalaşmışdı. Şagirdlər kəndin abadlaşdırılması və yaşıllaşdırılmasında, tədris təcrübə sahəsində, tədris emalatxanasında, şagird istehsalat briqadasında, müxtəlif dərnəklərdə ("Bacarıqlı əllər","Evdarlıq", "Dülgərlik" və s.) bu işlərlə ardıcıl məşğul olurdular.

Hələ 1960-cı illərdən şagirdlərə müxtəlif kənd təsərrüfatı peşələrinin öyrədilməsinə başlanmışdı. Mexanizator peşəsinin öyrədilməsi üçün "Traktorçuluq"

məşğələləri keçirilirdi, məşğələləri təcrübəli mexanizator N.Babayev aparırdı. Sürücülük peşəsinin öyrədilməsi üçün kolxoz tərəfindən məktəbə yük maşını da verilmişdi.

Şagird istehsalat briqadasının üzvləri baza müəssisəsi olan "Azərbaycan kolxozunun (sovxozunun) taxıl sahələrinin alaq otlarından təmizlənməsində, mal-qaranın bəslənməsində, üzüm sahələrinin becərilməsində (briqadanın öhdəsində 25 ha üzüm bağı vardı), müxtəlif məhsulların toplanmasında fəal iştirak edirdilər. Briqada üzvləri tonlarla qarğıdalı, çuğundur, üzüm və bostan məhsulları toplayırdı. Uzun illər şagird istehsalat briqadasının işinə rəhbərlik etmiş müəllim Adil Heydərov "Lenin bayrağı" qəzetinin iki iyul 1987-ci il tarixli nömrəsində dərc olunmuş "Məktəbdən istehsalata" məqaləsində yazırdı: "Məktəbdə şagirdlərin əməyə hazırlanmasına xüsusi fikir verilir. Bu sahədə şagird istehsalat briqadası mühüm rol oynayır. 1986/1987-ci dərs ilində briqadanın tərkibində 60 nəfər şagird olmuşdur. Onlar "Azərbaycan" sovxozunun üzüm və qarğıdalı plantasiyalarında və başqa iş sahələrində əməkçilərlə çiyin-çiyinə çalışmış, məktəblə təsərrüfat arasında bağlanmış müqavilənin şərtlərinin yerinə yetirilməsi üçün əllərindən gələni əsirgəməmişlər."

1970-ci illərdə məktəbdə şagirdlərə mexanizator və sürücü peşələrini oyrətmək üçün yenidən məşğələlərin keçirilməsinə başlanmışdı. Məşğələləri "Azərbaycan" kolxozunun ixtisaslı və təcrübəli mütəxəssisləri

Y.Davudov, S.Mirzəyev və N.Seyidov aparırdılar. Məşğələlərin praktiki təşkilinə xüsusi önəm verilirdi. Tez-tez kolxozun texnika parkına ekskursiyalar keçirilir, şagirdlərə müxtəlif kənd təsərrüfatı texnikaları, mexanizator, çilingər, qaynaqçı və s. peşələr haqqında məlumatlar verilirdi.

Qeyd edilənlər, istehsalat qabaqcılları və əmək veteranları ilə təşkil olunan görüşlər, digər iş yerlərinə (fermalara, dəmirçi sexinə, dərzi sexi və bərbərxanaya, poçta, kənd klubuna, üzümün ilkin emalı zavoduna və s.) keçirilən ekskursiyalar, ənənəvi "Çörək bayramı"ları, əməyə və peşəseçməyə aid söhbətlər və s. şagirdlərin əmək vərdişlərinin formalaşmasında və peşəseçmədə müsbət nəticələr verirdi. Təsadüfi deyil ki, bu işlərin əsas təşkilatçılarından olan əmək təlimi müəllimi Sərkər Mənəfov SSRİ Ali Soveti Rəyasət Heyətinin 20 avqust 1986-cı il tarixli fərmanı ilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdu.

1970-ci illərin əvvəllərindən məktəb radio qovuşağı öz işinə başlamışdı. Burada dünyada və ölkəmizdə baş verən mühüm hadisələr, əlaçı və nümunəvi şagirdlər və onların nailiyyətləri, keçirilən tədbirlər, məktəb kitabxanasına daxil olan yeni kitablar, şagird istehsalt briqadasının və "Dostluq klubu"nun fəaliyyəti və s. barədə müntəzəm verilişlər təşkil olunur və şagirdlərin çıxışları verilirdi.

Məktəb kitabxanası mədəni-kütləvi tədbirlərin təşkilində dayaq məntəqəsinə çevrilmişdi. Kitabxanada

tez-tez maraqlı tədbirlər keçirilirdi. Burada planlaşdırılan və hazırlanan 1975-ci ilin mart və oktyabr aylarında kənd klubunda keçirilmiş müharibə veteranları ilə görüş və "Sovet ədəbiyyatı dostluq və qardaşlıq ədəbiyyatıdır" adlı ədəbi-bədii gecə, M.Şoloxovun "İnsanın taleyi", İ.Əfəndiyevin "Söyüdlü arx" əsərlərinin müzakirəsi, 1976-cı ildə S.Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar şairin anadan olduğu Qazaxın Salahlı kəndinə və ədibin ev muzeyinə, Gəncə şəhərində N.Gəncəvinin movzeleyinə, Şəki şəhərində M.F.Axundzadənin ev muzeyinə təşkil olunmuş ekskursiyalar və s. belə tədbirlərə nümunə göstərilə bilər.

Məktəbdə "Dostluq klubu" yaradılmışdı. Şagirdlər Azərbaycan rayonlarının və Rusiya, Ukrayna, Özbəkistan, Qırğızstan,Tacikistan, hətta keçmiş ADR-nin məktəbliləri ilə məktublaşırdılar. Həmin məktublar "Dostluq klubu"nin işində saxlanılırdı. Bu cür əlaqələr şagirdlərin beynəlmiləlçilik dünyagörüşünü və dostluq meridianlarını daha da genişləndirirdi.

1970-ci illərdən1990-cı illərin ortalarına kimi məktəbdə ibtidai sinif şagirdlərini əhatə edən günüuzadılmış qruplar fəaliyyət göstərmişdir. Bu qruplara cəlb edilmiş şagirdlərə hər gün məktəb yeməkxanasında isti yemək verilirdi. Şagirdlər tərbiyəçi müəllimlərin rəhbərliyi ilə cədvəl üzrə məşğələrdə iştirak edir, növbəti günün dərslərinə hazırlaşırdılar.

1992/1993-cü dərs ilində məktəbin 11 sinif komplektində cəmi 210 nəfər şagird təhsil alır, iki günüuzadılmış qrup fəaliyyət göstərirdi. Şagirdlərin təlim-tərbiyəsi ilə 23 nəfər pedaqoji işçi məşğul olurdu.

Ötən müddət ərzində məktəb dəfələrlə "İlin ən yaxşı təlim-tərbiyə müəssisəsi" müsabiqəsinin qalibi olmuşdur. Tədrisin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinin nəticəsində şagirdlərin biliyinin keyfiyyət səviyyəsi də xeyli yüksəlmişdi. Rayon müəllimlərinin 1996-cı ildə keçirilmiş konfransının materiallarında oxuyuruq: "...ayrı-ayrı məktəblərdə, o cümlədən Oğuz şəhər 2 saylı, Xaşmaz-qışlaq, Mollalı, Xaçmaz bir saylı, Yaqublu, Bucaq, Baş Daşağıl və Qarabaldır kənd məktəblərində təhsilin keyfiyyət göstəricisi rayon səviyyəsindən yüksəkdir."(34)

DİM-nin (keçmiş TQDK) açıqladığı rəsmi məlumatlar da məktəbin məzunlarının buraxılış; ölkənin ali və orta-ixtisas məktəblərinə qəbul imtahanlarındakı nəticələrinin mütamadi olaraq ildən-ilə yüksəldiyini sübut edirdi.

## Məktəb XXI əsrin əvvələrində (2000-2022 illər)

Məktəb XXI əsrə özünün uzun illər ərzində formalaşmış iş sistemi və ənənələri ilə qədəm qoymuşdur.

1999/2000-ci dərs ilində məktəbdə 243 (128 nəfəri qız), 2002-2003-cü dərs ilində isə fəaliyyət göstərən 13 sinif komplektində 145 nəfəri qız olmaqla 283 nəfər (qiyabi qruplarda oxuyanlarla birlikdə) şagird təhsil alırdı.

2002-2003-cü dərs ilində təhsil alan 283 nəfərdən 186 nəfəri azərbaycanlı, 94 nəfəri ləzgi, 3 nəfəri mesxeti türkü idi.

Həmin dərs ilində məktəbdə erməni quldurları tərəfindən işğal olunmuş Laçın, Kəlbəcər, Füzuli, Ağdam rayonları, Şuşa şəhəri və Xocalı qəsəbəsindən qaçqın düşmüş ailələrdən olan 34 nəfər şagird oxuyurdu.

2003-cü ilin iyun ayının 16-da Azərbaycan Respublikasının Təhsil Naziri, AMEA-nın müxbir üzvü M.Mərdanov Yaqublu məktəbində olmuşdur. M.Mərdanov məktəbin sinif otaqlarını və fənn kabinetlərini gəzmiş, maddi-texniki baza və iş şəraiti ilə tanış olmuş, keçirilmiş imtahanların nəticəsi ilə maraqlanmış, şagird və müəllimlərlə, kənd içtimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etmiş, onların tələb və təkliflərini dinləmiş, suallarını cavablandırmış və öz fikirlərini söyləmişdı.

- Kurikulum islahatının başlanması.

2008/2009-cu dərs ilindən etibarən məktəbdə yeni fənn kurikulumları (proqramları) ilə tədrisə başlanmışdır.

Məlumat üçün bidiririk ki, Azərbaycan təhsil sistemində "kurikulum" (latınca yol, kurs deməkdir) yeni bir anlayışdır və o, təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual sənəd kimi başa düşülür. Milli kurikulum

demokratizm, humanizm kimi prinsiplərdən çıxış etməklə, şagirdlərin maraq və ehtiyaclarına cavab verən, mütəxəssislərin elmi yanaşmalarına söykənən, dövlətin təhsil siyasətini əks etdirən bir sənəddir. Tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, inkişafetdiricilik kurikulum islahatlarında əsas prinsiplərdir.

Kurikulum islahatları tədris prosesinin təşkilinə, müəllim-şagird münasibətlərinə yeni məzmun gətirir, müəllim-şagird münasibətlərinin tamam dəyişdirilməsini, onlar arasında əməkdaşlığa, qarşılıqlı hörmətə, bir-birinin ləyaqətinə, hüquq və azadlıqlarına hörmət etməyə əsaslanan yeni münasibətlərin yaradılmasını tələb edir. Belə olduqda şagird dinləyici deyil, fəal icraçı, bilikləri sərbəst və şüurlu şəkildə qəbul edən subyektə çevrilir.

Bu islahat, kurikulumu yüksək səviyyədə mənimsəyən bacarıqlı, tədris-təlim prosesinə yaradıcı yanaşmağı bacaran səriştəli müəllimlər tələb edir. Kurikulum islahatının səmərəli keçirilməsinə nail olmaq üçün müəllimlərin peşə-ixtisas səviyyəsinin yüksəldilməsi məqsədi ilə çoxsaylı tədbirlər - seminar-treninqlər, müşavirələr keçirilmiş, müəllimlər üçün təlim kursları təşkil edilmişdir. Məktəbdə bu kursların yüksək səviyyədə hazirlanib keçirilməsinə məsuliyyətlə yanaşılmış, rəhbərlik tərəfindən bütün təşkilati tədbirlər vaxtında görülmüşdür. İstisnasız olaraq müəllimlərin hamısı həmin kurslardan

keçmişlər. Təlim kursları keçmiş müəllimlərə sertifikatlar verilmiş, onların məhsuldar fəaliyyət göstərmələri üçün lazımi şərait yaradılmışdır.

İslahatla əlaqədar geniş "Kurikulum guşəsi" hazırlanmış, orada kurikulum və interaktiv təlim barədə məlumatlar yerləşdirilmişdir. Kurikulum islahatı ilə əlaqədar pedaqoji və metodiki yeniliklərin öyrənilərək tətbiq edilməsi üçün pedaqoji mətbuata xüsusi önəm verilirdi. Müəllimlər "Azərbaycan", "Azərbaycan müəllimi", "Oğuz yurdu", "P.S.Elm, təhsil və həyat", "Təhsil problemləri", "Müasir Təhsil" və başqa digər qəzetlərə, "Kurikulum", "Azərbaycan məktəbi", "Təhsil", "Məktəbəqədər tərbiyə və ibtidai məktəb", "Azərbaycan dili və ədəbiyyat" və s. jurnallara abunə olmuşdular.

Kurikulum islahatı ilə əlaqədar yeni təlim texnologiyalarının öyrənilərək yayılması işləri də diqqət mərkəzində olmuşdur. Bu gün məktəbdə interaktiv təlim üsulları uğurla tətbiq edilməkdədir. Kurikulim islahatınının ötən dövrü ərzində müəllimlər bu sahədə zəngin iş təcrübəsi qazanmışlar.

2011/2012-ci dərs ilində məktəbdə 167 nəfər şagird təhsil alırdı. Sonrakı illərdə- 2013/2014-cü dərs ilində 166, 2015/2016-cı dərs ilində isə burada 164 nəfər şagird oxuyurdu.

2016/2017-ci dərs ilindən etibarən məktəbdə məktəbəhazırlıq qrupları fəaliyyət göstərməyə başlamışdı.

Həmin il məktəbəhazırlıq qrupuna 18 nəfər cəlb olunmuşdu.

Məktəbəhazırlığın vəzifələri uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi; uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasıdır. Həmin qruplarda "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" məşğələləri keçirilir. Artıq bu sahədə sinif müəllimləri B.Qasımova, S.Heydərova, G.Qasımova və X.Heydərova zəngin iş təcrübəsi qazana bilmişlər.

COVİD-19 pandemiyası ilə əlaqədar 2020/2021-ci ildə tədrisdə baş vermiş fasilələrin nəticlərinin aradan qaldırılması üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.06.2021-ci il tarxli 03-08-468/13 saylı məktubuna uyğun olaraq 16-30 iyun tarixləri arasında "Yay məktəbi" təşkil olunmuşdu. Yay məktəbi 2021-ci il iyun ayının 15-dən ayın sonuna kimi fəaliyyət göstərmişdir.

- Pedaqoji kadrlarla aparılan təşkilatı-pedaqoji işlər.

Aydındır ki, təlim–tərbiyə işlərinin keyfiyyəti və tədrisin vəziyyəti əsas sima olan müəllimdən, onun peşə-ixtisas və ümumi mədəni səviyyəsindən birbaşa asılıdır.

Ona görə də məktəbdə pedaqoji işçilərin peşə-ixtisas və ümumi mədəni səviyyələrinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılırdı. Bu istiqamətdə məktəb rəhbərliyi səviyyəsində ardıcıl tədbirlər həyata keçirilirdi. Müəllimlərin ixtisasartırma kurslarına, qısamüddətli treninq və seminarlara cəlb edilməsi, pedaqoji və metodiki köməkliklərin gücləndirilməsi, yeniliklərin, qabaqcıl və mütərəqqi iş təcrübəsinin öyrənilməsi, açıq dərslərin təşkili, pedaqoji mətbuatın təbliği, kurikulum islahatı ilə əlaqədar təşkilati – pedaqoji tədbirlərin keçirilməsi öz səmərəsini göstərirdi. Müəllimlərin dərslərinin ardıcıl qaydada dinlənilməsi və təhlili, müxtəlif fənlərin tədrisi vəziyyətinin monitorinqinin keçirilməsi və nəticələrinin pedaqoji şura və direktoryanı müşavirələrdə müzakirəsi artıq ənənə halını almışdı. Məktəbdə müəllimlər üçün seminar və ya treninqlərin, metodiki şura, fənn metodbirləşmələrinin təşkili və fəaliyyəti, “Açıq qapı” günlərinin, “Dəyirmi masa”ların keçirilməsi, kitabxanadan istifadə, müəllimlərin şəxsi məsuliyyət hissinin yüksəldilməsi üçün

onların hesabatlarının dinlənilməsi və s. işlər daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir.

Məsələn, 2002-ci ildə təhsilin keyfiyyətinin yüksəldilməsinə həsr olunmuş “Dəyirmi masa” (30,səh:200), 2003-cü ilin aprel ayında keçirilmiş “Azərbaycan dili dövlət dilidir” mövzusunda elmi-nəzəri konfrans, 2014-cü ilin mart ayında "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na həsr olunmuş "Dəyirmi masa" və digər bu kimi tədbirlər pedaqoji işçilərin peşə-ixtisas səviyyələrinin yüksəldilməsinə təsirsiz qalmamışdır. Tədbirlərdə Oğuz Rayon Təhsil Şöbəsinin əməkdaşları, qonşu məktəblərin müəllimləri, ərazidəki bütün məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na həsr olunmuş "Dəyirmi masa"da məktəbin direktoru İ.Verdiyev “Dövlət Strategiyası”nın məqsədi, burada əksini tapmış strateji istiqamətlər, hədəflər və tədbirlər barədə ətraflı məlumat vermişdir.

Mövzu ilə bağlı geniş, işgüzar müzakirələr olmuşdur. Müəllimlərdən N.Həsənov,V.Qurbanova, N.Süleymanova, R.Cavadova, B.Qasımova, Z.Babayeva, İ.Vahabova, S.Möylamova və RTŞ-nin metodisti E.Qəhrəmanov çıxış edərək sənədin əhəmiyyətini vurğulamışlar.

Çıxışlarda səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmunu, müəllim hazırlığı və müəllimlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini təmin edən yeni sistemin yaradılması, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması, təhsillə bağlı media və internet resurslarının inkişaf etdirilməsi, səriştə və nəticə əsaslı diferensiallaşdırılmış, əmək bazarında rəqabətqabiliyyətli əməkhaqqı sisteminin yaradılması ilə əlaqədar maraqlı fikir və təkliflər səslənmişdir.

"Dəyirmi masa"nın işini Oğuz Rayon Təhsil Şöbəsinin müdir müavini N.Adıyev yekunlaşdırmışdır. Səslənmiş təkliflər ümumiləşdirilərək rayon təhsil şöbəsinə təqdim edilmişdir.(36)

Bu cür tədbirlər müntəzəm olaraq davam etdirilmişdir. 2018-ci ilin may ayında qarşılıqlı əməkdaşlıq çərçivəsində Qəbələ rayon Nohurqışlaq kənd İ.Abdulkərimov adına tam orta məktəbin müəllimləri ilə birlikdə keçirilmiş “Təhsilin keyfiyyətinin yüksəldilməsinin optimal yolları” mövzusunda “Dəyirmi masa”, həmin ilin oktyabrında keçirilmiş “Açıq qapı” günü, 2019-cu ilin yanvar ayında keçirilmiş “Ümumtəhsil pilləsində təhsilalanların attestasiyasının (yekun attestasiya istisna olmaqla) aparılması qaydası”na həsr olunmuş seminarlar və “Şagirdlərin azərbaycançılıq ideologiyası ruhunda

tərbiyəsi" mövzusunda konfrans müəllimlərin peşə-ixtisas və ümumi mədəni səviyyələrinin yüksəldilməsinə səfərbər edilməsi baxımından önəmli idi.

2000-ci ilin fevral ayında RTŞ-nin əməkdaşlarının, məktəbin müəllimlərinin və şagirdlərinin, rayonun digər məktəblərinin müəllimlərinin, valideyn və içtimaiyyətin nümayəndələrinin, ərazidəki məktəb və uşaq bağçalarının rəhbər və tərbiyəçilərinin iştirakı ilə keçirilmiş "Təhsilin humanistləşdirilməsi ideyalarını təcrübədə reallaşdırılmaq imkanları" mövzusunda keçirilmiş "Dəyirmi masa", 2020-ci ilin sentyabr ayında keçirilmiş "Distant təhsilin təşkili" və 2021-ci ilin noyabrında Zəfər günü münasibəti ilə keçirilmiş "Tariximizi dəyişən böyük qələbə" adlı konfrans, keçirilmiş onlarla açıq dərslər, müəllimlərin maraqlı iş təcrübələri haqqında fənn metodbirləşmələrinə və pedaqoji şuralara təqdim etdikləri məruzə, referat və hesabatlar onların rayon və respublika səviyyəli əyani və online  seminar və müxtəlif təlim kurslarında, beynəlxalq konfranslarda iştirakları və s. qabaqcıl təcrübələrin öyrənilərək tətbiq edilməsi baxımından səmərəli sayıla bilər.

Qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması məqsədi ilə "Açıq dərs"lərdən səmərəli istifadə edilir. Bu məqsədlə son 4 ildə onlarla belə dərslər keçirilmiş, müzakirə edilmiş və qiymətləndirilmişdir. Məsələn, ibtdai sinif müəllimlərindən S.Heydərovanın "Əməllər

sırası”,G.Qasımovanın “Üçbucaqlar”, X.Heydərovanın “Qədim yunan sözləri”, B.Qasımovanın “Çevrə və dairə”; V-XI siniflərdə işləyən müəllimlərdən Ş.Məmmədlinin “AXC-nin süqutu”, “Yunanstan mədəniyyəti” və “Azərbaycanın qədim yaşayış məskənləri haqqında”, A.F.Atakişiyevanın “B.Vahabzadənin həyat və yaradıcılığı” və “Barbarlar və vandallar. İsə hissəciyi və felin şərt şəkli”, V.Qurbanovanın “Vasitəsiz nitqdə durğu işarələri”, A.M.Atakişiyevanın “Söz yaradıcılığı”, N.Süleymanovanın “Reaktiv mühərriklər” və “Elektrik yüklərini ayıran, toplayan və ötürən qurğular”, İ.Vahabovanın “Alkinlərin alınması və kimyəvi xassələri” və “Hidrogenlərin xassələri və tətbiqi”, R.Bayramovun “Model anlayışı”,“Şəkilli mətnlər” və “Üçbucaqların oxşarlıq əlamətləri”, Y.Mənəfovanın “Dəyişənlər, asılılıqlar və onların qrafiki” və “Kəsrlərin bölünməsi”, P.Əhmədovanın “Bəzək əşyaları”, A.İsayevanın “Torpaqların quruluşu və xüsusiyyətləri”, Ə.İsmayılovanın “Məməlilər”, M.Əliyevanın “Qlobal ekoloji problemlər”, S.Möylamovanın "Heinrich Heine", S.Mustafyevanın "Dentschland stadte", hərbi rəhbər T.Məmmədovun “Atıcı silahlarla davranma və təhlükəsizlik qaydaları” və “Təbii fəlakətlər”, S.Əhmədovun “Yuxarı ətraflarda sürət-gücün inkişaf etdirilməsi” və “Qüvvə qabiliyyətinin təkmilləşdirilməsi” mövzularında müasir tələblər səviyyəsində keçirilmiş açıq dərsləri geniş müzakirə və təhlil olunaraq yüksək qiymətləndirilmişdir.

Müəllimlərimiz rayon, respublika və beynəlxalq səviyyəli pedaqoji tədbirlərdə uğurla iştirak edirlər. Məsələn, son illərdə müəllim İ.Verdiyev Respublika Pedaqoji mühazirələrində və "İlin ən yaxşı müəllimi" və "Elektron təhsil" müsabiqələrində I və II yerləri tutaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin diplom və fəxri fərmanları, qabaqcıl dil-ədəbiyyat müəllimlərindən V.Qurbanova "Elektron təhsil" müsabiqəsində fərqlənərək Təhsil Nazirliyinin fəxri-fərmanı, İ.Vahabova " İlin ən yaxşı fənn metodbirləşməsi" müsabiqəsinin rayon mərhələsinin qalibi olduğu üçün, A.F.Atakişiyeva "Təhsildə keyfiyyət ili" çərçivəsində keçirilən pedaqoji mühazirələrin rayon mərhələsində fəal iştiraklarına görə Oğuz RTŞ-nin fəxri fərmanları ilə təltif olunmuşlar.

Gənc tarix müəllimi Ş.Məmmədli isə "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda keçirilən IV Beynəlxalq elmi konfransda "Azərbaycan eTwininq layihələrinin rolu" mövzusunda çıxış etmiş, həmçinin bu layihə ilə bağlı Gəncə şəhərində keçirilən regional konfransda iştirak etmiş, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası və T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platforması tərəfindən Kapital Bankın sponsorluğu ilə keçirilən "Fərq yaradan gənc müəllim" müsabiqəsinin qalibi olmuşdur.(37)

Görülmüş işlərin nəticəsidir ki, müəllimlərin tədrisin keyfiyyətini yüksəltmək üçün öyrədici mühitin

yaradılmasına, müəllim-şagird münasibətlərinin səmərəli, səmimi əməkdaşlıq zəminində qurulmasına, şagirdlərin fərdi xüsusiyyətlərinin, maraq və meyllərinin, temperament tiplərinin öyrənilib nəzərə alınmasına, dərslərin şablon deyil, yaradıcı qurulmasına diqqəti artmışdır. Dərslərdə müxtəlif əyani vasitələrdən, sxem və illüstrasiyalardan, laboratoriya təcrübələri və ya praktiki məşğələlərdən, multimediya vasitələrindən və internet resurslarından, eyni zamanda müasir dövrün tələbinə uyğun olaraq interaktiv təlim metodlarından, İKT vasitələrindən daha səmərəli istifadə edilməsinə başlanmışdır. Bu gün məktəbdə öz işini müasir tələblər səviyyəsində quran xeyli sayda müəllim işləyir. Belə müəllimlərə V.Qurbanova, S.Möylamova, S.Mustafayeva, N.Süleymanova, R.Bayramov, S.Heydərova, İ.Vahabova, A.İsayeva, A.Atakişiyeva, G.Qasımova, Ş.Məmmədli, Y.Mənəfova və başqalarını nümunə göstərmək olar.

Qabaqcıl müəllimlərin sayəsində şagirdlərin İKT-dən istifadə bacarığı, müstəqil tədqiqat işinin aparılması vərdişləri, analiz etmək, araşdırmaq, dərk etmək, müxtəlif layihələri təqdimat şəklində hazırlama bacarığı, əməkdaşlıq, dinləmə, tənqidi mövqe bildirmək, sərbəst çıxış etmək və digər başqa qabilyyətlərinin formalaşması işləri xeyli yaxşılaşmışdır.



**Qəbələ r. Nohurqışlaq məktəbi ilə birgə keçirilmiş "Dəyirmi masa"**




**Oğuz ş. 2 saylı, Kərimli və Zərrab kənd orta məktəb müəllimlərinin iştirakı ilə keçirilmiş seminar - treninq . 2017-ci il**

➢ Tədrisin təşkili və bu sahədə qazanılmış uğurlar.

Aparılmış sistemli və ardıcıl təşkilati-pedaqoji tədbirlər tədrisin, nəticə etibarı ilə şagirdlərin biliyinin keyfiyyətinin yüksəlməsinə, onların şəxsiyyət kimi yetişməsinə səbəb olmuşdur.

Bunu DİM-nin (keçmiş TQDK-nın) buraxıış və qəbul imtahanlarının nəticələrinə dair statistik məlumatları da əyani olaraq sübut edir.

DİM-nin açıqladığı rəsmi məlumatlarına görə məktəbin məzunlarının ölkənin ali təhsil məktəblərinə qəbul imtahanlarındakı nəticələri ildən-ilə yüksəlmişdir. Görülmüş işlərin nəticəsidir ki, 2002-ci ildə qəbul imtahanlarında Azərbaycan dilindən düzgün cavabların faizi respublika üzrə orta göstəricidən, ədəbiyyatdan isə ən yüksək göstəricidən yuxarı olmuşdur.(35, səh:5,7). 2002-ci ildə həmçinin məzunlarının qəbul imtahanlarındakı fənlər üzrə düzgün cavablarının faizi biologiya, kimya və fizikadan (fənn müəllimləri Ə.İsmayılova, İ.Vahabova və N.Süleymanova) respublika üzrə ən yüksək göstəricidən yuxarı, riyaziyyat, tarix və coğrafiyadan isə respublika üzrə orta göstəricidən yüksək olmuşdu. Məzunların topladıqları orta bal üzrə məktəb rayonun məktəbləri arasında V yerdə qərar tutmuşdur. Oğuz rayonunun ümumtəhsil məktəbləri arasında 1995-2001-ci illərdə

kimyadan (müəllim İ.Vahabova) ən yüksək göstərici də Yaqublu məktəbinə aid olmuşdur.(38)

2015-ci ildə keçirilmiş buraxılış imtahanlarında da IX və XI siniflərdə ayrı-ayrı fənlər üzrə orta bal rayon səviyyəsindən yüksək olmuşdir. Həmin il ali məktəblərə qəbulda orta bal 261.333 təşkil etmiş, bir nəfər məzun 500 baldan çox toplamışdır.

Sonrakı illərdə yüksək bal toplayaraq ali məktəblərə qəbul olan məzunların sayı getdikcə artmışdır. Onlara N.Əhmədova, F.İsayev, Ə.Həsənov, A.İsayeva, Ü.Kərimli, N.Kazımova, G.Babayeva, B.Mahmudova, Ə.Babayeva, K.Kərimli, T.İsayeva, L.Babazadə, R.Mənəfova, E.Edilxanov, S.Verdiyeva, P.Əhmədova, A.Nəbizadə, H.Mənəfli, Y.Yaqublu, D.Nəsirova, Z.Babayeva, X.Həsənova, T.Cavadova, B.Ələsgərli, B.Rəcəbli, R.Hüseynova, N.Süleymanov, S.Rəhimovu və digərlərini göstərmək olar.

Rəsmi olan məlumatlara görə, 2018-ci ildə buraxılış imtahanlarında məktəbin IX sinif şagirdlərinin orta balı Azərbaycan dili üzrə 65,76, riyaziyyatdan isə 49,45 olmuşdur. Halbuki həmin il Azərbaycan dilindən ölkə üzrə ən yüksək bal 58,92, orta bal 47,02, rayon üzrə isə 51,74 bal; riyaziyyatdan ölkə üzrə ən yüksək bal 46,57 , orta bal 35,76, rayon üzrə isə 37,16 bal təşkil edirdi. Göründüyü kimi, bütün göstəricilər üzrə məktəbin səviyyəsi daha yüksək olub.

2018-ci ildə məktəbin məzunlarının (XI sinif) buraxılış və qəbul imtahanlarındakı orta balı Azərbaycan dilindən 19,44, riyaziyyatdan 20,89, alman dilindən 14,44 bal olmuşdur. Bu da hər üç fənn üzrə göstəricilərin Respublika və rayon üzrə orta bal göstəricisindən yüksək olması deməkdir. (həmin il Azərbaycan dilindən respublika üzrə orta bal 17,27, rayon üzrə 18,63; riyaziyyatdan ölkə üzrə orta bal 16,66, rayon üzrə 17,03; xarici (alman) dildən respublika üzrə orta bal 14,36 və rayon üzrə 13,66 təşkil edirdi).(39)

“mekteb.edu.az” portalından götürülmüş dəqiq və konkret informasiyalara görə, 1995-2020-ci illərdə keçirilmiş qəbul kampaniyalarının nəticələri əsasında məktəb məzunlarının göstəricilərinin dinamikasının təhlili göstərir ki, həmin dövr ərzində "Ədəbiyyat", "Fizika", "Kimya", "Tarix", "Coğrafiya", "Ümumi fənn bloku" fənləri üzrə (İ.Verdiyev, V.Qurbanova, A.F.Atakişiyeva, A.M.Atakişiyeva; N.Süleymanova; İ.Vahabova; Ş.Məmmədli; M.Əliyeva, A.İsayeva və s.) məktəbin orta göstəriciləri respublika üzrə orta səviyyədən yüksək olmuşdur. Təəsüf ki, "Ana dili", "Riyaziyyat", "Biologiya", "Alman dili" üzrə bu göstəricilər respublika üzrə orta səviyyədən azacıq aşağı olmuşdur.

Məktəbin nəticələrinin ətraflı araşdırılması onu da göstərmişdir ki, təhlil edilən dövr ərzində oğlan məzunların göstəriciləri qız məzunlarının göstəricilərindən

"Tarix" fənni üzrə, qız məzunlarının göstəriciləri isə "Ana dili", "Ədəbiyyat", "Riyaziyyat", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya", "Alman dili", "Ümumi fənn bloku" fənləri üzrə oğlan məzunların göstəricilərindən yüksək olub.

Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 may 2020-ci il tarixli 179 nömrəli qərarına uyğun olaraq “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları”nda edilən dəyişikliyə uyğun olaraq 2020-ci ildə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı bir mərhələdə (buraxılış imtahanının II mərhələsinin formatında) keçirilmişdir.

Həmin ildə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının nəticələri göstərmişdir ki, məktəbin riyaziyyatdan orta bal göstəricisi (42,96) rayon üzrə orta bal (41,72) göstəricisindən yüksək, Azərbaycan dili (42,97) və alman dilindən (38,52) isə rayon səviyyəsinə yaxın olmuşdur.

2020-ci ildə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının nəticələrinə görə isə məktəbin məzunlarının orta bal göstəriciləri Azərbaycan dili (59,62) və riyaziyyat (46,92) üzrə rayon səviyyəsindən (müvafiq olaraq 50,77 –

32,50) yüksək, alman dilindən (53,49) isə rayon səviyyəsinə (53,49) bərabər olmuşdur.

2020-ci il qəbul kompaniyasının nəticələrinə əsasən reytinq səviyyəsi Azərbaycan dili və ədəbiyyatdan respublika səviyyəsinə uyğun, riyaziyyat, fizika, kimya, tarix və coğrafiyadan isə respublika səviyyəsindən yüksək olmuşdur.

1995-2020-ci illər üzrə məktəbin məzunlarının ölkənin ali məktəblərinə qəbul olma göstəricilərinin dinamikasından məlum olur ki, təhlil edilən dövr üzrə, məktəbin məzunlarının ali məktəblərə orta qəbulolma faizi 35.20, qəbulolma göstəriciləri üzrə ümumiləşdirilmiş reytinq isə 0.804-ə bərabər olmuşdur. Məzunların 2005, 2019-2020-ci illərdə qəbul kampaniyalarında qəbulolma faizi orta respublika göstəricisindən yüksək olmuşdur. Son qəbul kampaniyasında qəbulolma faizi -18.18% azalsa da, məzunların orta balı 347.52 və ümumiləşdirilmiş reytinq isə 0.275 artıb.

Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən məzunlarımızdan 500.750 bal toplamış və Bakı Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" ixtisasına qəbul olunmuş 2006-cı il məzunu Şirinova Türkan Şirin qızı, 540.000 bal toplamaqla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olunmuş 2013-cü il məzunu Musayeva Afət Telman qızı, 596.000 bal toplamış, Azərbaycan Dövlət Neft Akademiyasının

"Neft-qaz qurğuları mühəndisliyi" ixtisasına qəbul olunmuş 2014-cü il məzunu Əliyev Sabit Nəcəf oğlu, 558.000 bal toplamış və Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olunmuş 2015-ci il məzunu Əhmədova Nərmin Şahin qızı, 508.900 bal toplamış və Bakı Dövlət Universitetinin "Coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuş 2020-ci il məzunu Mehdiyeva Nurəngiz Mehdi qızı, 530.300 bal toplamış və beləliklə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İqtisadiyyat" ixtisasına qəbul olunmuş 2020-ci il məzunu Nəbizadə Zamin Baloğlan oğlu, 596.700 bal toplamış və Bakı Dövlət Universitetinin "Dövlət və ictimai münasibətlər" ixtisasına qəbul olunmuş 2020-ci il məzunu İsayeva Sürəyya Laçın qızı, 610.900 bal toplamış və Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi" ixtisasına qəbul olunmuş 2020-ci il məzunu Həsənli Səma Nazim qızı , 518 bal toplayaraq Bakı Dövlət Universitetinin "Dövlət və ictimai münasibətlər" ixtisasına qəbul olunmuş 2021-ci il məzunu Kazımlı Allahverdi Valeh oğlu “Qabaqcıl məzunlar” kimi qeydə alınmışlar.(40)

Hələlik, 2022-ci ilədək məzunların içərisində ən yüksək nəticə 610.900 bal toplamış və Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi" ixtisasına qəbul olunmuş 2020-ci il məzunu Həsənli Səma Nazim qızına aiddir.



İ.Vahabovanın kimyadan açıq dərsi



**Müəllim G.Qasımovanın III sinifdə riyaziyyat dərsi. Dekabr 2021-ci il.**



**Müəllim Ş.Məmmədlinin VI sinifdə tarix dərsi. Noyabr 2018-ci il.**



**Müəllim X.Heydərovanın IV sinifdə ana dili dərsi. noyabr 2021-ci il**



N.Süleymanovanın fizika dərsi



Müəllim R.Bayramovun informatika dərsi




Müəllim S.Möylamovanın alman dili dərsi



S.Heydərovanın I sinifdə ana dili dərsi



**Y.Mənəfovanın riyaziyyat dərsi**



**Müəllim S.Əhmədovun fiziki tərbiyə dərsi**




Hərbi rəhbər T.Məmmədovun XI sinifdə ÇH dərsi




A.Atakişiyevanın Azərbaycan dili dərsi

➢ İstedadlı uşaqlarla iş.

Son illər məktəbdə istedadlı uşaqlarla işə diqqət və qayğı xeyli yüksəlmişdir. Belə ki, məktəbdə istedadlı uşaqlarla iş sahəsində həyata keçiriləcək tədbirləri özündə əks etdirən fəaliyyət planı hazırlanmış və əmrlə təsdiq edilmişdir. Həmin əmrlə tərbiyə işləri üzrə direktor müavini istedadlı uşaqlarla iş üzrə koordinator təyin edilmiş, istedadlı və qabiliyyətli şagirdlər müvafiq qaydada müxtəlif müəllimlərə təhkim olunmuşlar.

Humanitar, riyaziyyat-informatika, texniki-təbiət fənləri, habelə bədii və texniki yaradıcılıq, incəsənət və idman sahələri üzrə istedadlı və qabiliyyətli şagirdlər aşkara çıxarılmış, onların siyahısı hazırlanmış; məktəb üzrə "Kiçik Akademiya" və "İstedad Bankı" (hazırda həmin bankda 21 nəfərşagirdin adı vardır) yaradılmışdır. "Kiçik Akademiya" üzvlərinin və adları banka daxil edilmiş şagirdlərin vaxtaşırı toplantıları keçirilir, görülmüş işlər müzakirə olunur və yeni vəzifələr müəyyən edilir.

Müntəzəm olaraq istedadlı və qabiliyyətli uşaqların yaradıcılıq potensiallarını aşkara çıxarmaq, onların öz bacarıq və qabiliyyətlərini nümayiş etdirmələri üçün konkret tədbirlər – yarış, baxış, disput, konfrans, kiçik olimpiadalar, viktorina, sərgi, təqdimat, müsabiqələr və s. keçirilir. Son 4 ildə istedadlı uşaqların köməyi ilə 100-dən çox bu cür tədbir keçirilmişdir. Bu tədbirlərə 2018-ci ildə

keçirilmiş “Riyaziyyat-informatika” gecəsini (N.Həsənov, R.Bayramov və Y.Mənəfova), “Beynəlxalq Məktəb Kitabxanaları Günü” münasibəti ilə əlaqədar şeir müsabiqələrini (H.Ağayeva və Z.Əliyeva), coğrafiya gecəsini (A.İsayeva və M.Əliyeva), 2019-cu ildə keçirilmiş “Kimya həyatdır” mövzusunda elmi-əyləncəli tədbiri (İ.Vavabova), VIII-XI sinif şagirdləri arasında 2020-ci ildə keçirilmiş “Qarabağ Azərbaycandır!” mövzusunda online inşa müabiqəsini (V.Qurbanova, A.M.Atakişiyeva, Ş.Məmmədli, A.F.Atakişiyeva), fizika və biologiya (N.Süleymanova və Ə.İsmayılova) viktorinalarını, 2021-ci ilin mart ayında keçirilmiş “Səməni sərgisini” (Ş.Məmmədli), 2021-ci ilin noyabr ayında keçirilmiş və “Zəfər bayramına” həsr olunmuş şahmat və dama yarışlarını, 28 fevral – 04 mart 2022-ci il tarixlərdə keçirilmiş idman həftəsini (S.Əhmədov), 2022-ci ilin fevral ayında keçirilmiş “Ruhumun ünvanı Şuşa” adlı rəsm müsabiqəsini, müxtəlif mövzularda digər sərgi və rəsm müsabiqələrini (P.Əhmədova) və başqa tədbirləri nümunə göstərmək olar.

Zəfər müharibəsi dövründə də müəllimlərin rəhbərliyi altında istedadlı şagirdlərin köməyi ilə xeyli tədbir hazırlanıb keçirilmişdir. Məsələn, ana dilində “Tarix yazan məzunlarımız”, alman və ingilis dillərində “Karabakh is Azerbaijan!” adlı video-çarxlar (həmçinin digər videoroliklər) hazırlanmış, Ordumuzun zəfər yürüşünü

tərənnüm edən şeir və mahnıların müsabiqəsi təşkil olunmuş, rəsm və əl işlərinin onlayn sərgisi baş tutmuşdur.

Məktəbin şagirdləri tarix müəllimi Ş.Məmmədlinin təşkilatçılığı ilə türk xalqlarının tarixinin və türk tarixinin qəhrəman qadınlarının həyat və fəaliyyətinin araşdırılaraq öyrənilməsində əhəmiyyətli rol oynayan "Tarihteki Türk Kadınlarının Destansı Mücadelesi" adlı eTwining layihəsində də uğurla iştirak etmişlər. Onlar türkiyəli ortaqları ilə Azərbaycanın ilk diplomat qadını Sara Xatunun fəaliyyətini araşdırmışlar. Şagirdlərimiz müxtəlif veb 2.0 alətlərindən istifadə edərək Sara Xatunla bağlı broşuralar və xəbər lentləri hazırlamış, Wordwallda hazırlanmış oyunları oynamış, Sara Xatuna məktub yazmışlar.

Uşaqlar həmçinin eTwining layihəsi şərçiəvəsində qatıldıqları "Harften öte kadın" layihəsinin yekununda da fərqlənmişlər. VII sinif şagirdi Röya Tağızadə və IX sinif şagirdi Orxan Sübəyevin "Mənim anam" və "Qadın" şeirləri bəyənilərək Türkiyədə nəşr olunmuş kitaba daxil edilmişdir.

Şagirdlərin rayon və respublika miqyaslı müxtəlif tədbirlərdə iştirakları təmin edilir. Onlar "Azərpoçt"un müxtəlif mövzularda keçirdiyi inşa yazı müsabiqələrində 1 və III yerləri tutmuş, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə, Xocalı faciəsinə və ümummilli lider H.Əliyevə həsr olunmuş inşa yazı və təqdimatlarda, "Ədəbiyyat biliciləri" və "Düşünən oxucu"

müsabiqələrində, asfalt üzərində rəsm müsabiqəsində, müxtəlif idman və bilik yarışmalarında, mahnı müsabiqələrində, “Cəsurlar” və “Şahin” hərbi idman oyunlarında, müxtəlif təqdimatlarda və başqa tədbirlərdə müntəzəm fərqlənmişlər.

Məktəbin şagirdləri həmçinin son 20 il ərzində fənn olimpiadalarında, müsabiqə, baxış, festival və müxtəlif yarışlarda müntəzəm və ardıcıl olaraq fərqlənmişlər. Məsələn, onlardan A.Cavadova, N.İsmayılova, Ş.Əliyeva, S.Hətəmova, S.Verdiyeva müxtəlif mövzularda keçirilmiş inşa müsabiqələrində, N.Əhmədova asvalt üzərində rəsm müsabiqəsində, X.Həsənova, S.İsayeva, T.Şirinova, Ü.İsayev və başqaları fənn olimpiadalarında, S.Kərimli, Ü.Kərimli, N.Cəfərzadə və digərləri idman üzrə fərdi birinciliklərdə, məktəbin komandası ”CocaGola” məktəbli kuboku” uğrunda futbol yarışında qaliblər sırasında olmuşlar. Bundan başqa məktəbin şagirdləri futbol, voleybol, basketbol, yüngül atletika, “Cəsurlar” və “Şahin” hərbi idman oyunlarında, “Uşaq ili”, “Gənclər ili” və “Turizm ili” və “İnformasiya-kommunikasiya texnologiyaları ili”, “Nəsimi ili, “Nizami ili”, “Şuşa ili”, “Zəfər bayramı” və s. ilə əlaqədar keçirilən tədbirlərdə fəal iştirak etmiş, dəfələrlə fərqlənərək diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

2021-ci ilin noyabr ayında X-XI siniflərdə oxuyan istedadlı şagirdlərimizin bir qrupu Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, Respublika

Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə təşkil olunan “Muzeylərimizi tanıyaq və tanıtdıraq” adlı interaktiv ekskursiyada iştirak etmiş, Bakı şəhərindəki muzeylərdə olmuşlar.

Hələ 2002-ci ildə mərkəzi mətbuatın səhifələrində oxuyurduq:“...keçirilən tədbirlərdə Xaşmaz-qışlaq, Bucaq, Kərimli, Yaqublu, M.F.Axundzadə adına Xaçmaz, Qumlaq kənd məktəblərinin, Oğuz şəhərindəki 1 və 2 saylı məktəblərin pedaqoji kollektivləri xüsusi ilə fərqlənmişlər.”(41)

XXI əsrin əvvələrində məktəbdə rayon ekoloji təcrübəçilik mərkəzinin, uşaq yaradıcılıq birliyinin və idman məktəbinin bölmələri də fəaliyyət göstərirdi. Burada onlarla istedadlı və qabiliyyətli şagirdlər toplanmışdılar.

Istedadlı uşaqların ölkə və regionda fəaliyyət göstərən lisey və gimnaziyalara istiqamətləndirilməsi sahəsində də ardıcıl iş aparılır. Görülən işlərin nəticəsidir ki, son illər C.Naxçıvanski adına hərbi təmayüllü liseydə, musiqi məktəblərində, texniki peşə məktəblərində, tam orta təhsil verən gimnaziya, lisey və kolleclərdə oxuyanların, məktəbdənkənar müxtəlif idman və yaradıcılıq mərkəzlərində məşğul olanların sayı artmışdır.

Məktəbdə istedadlı uşaqların müxtəlif yol və üsullarla həvəsləndirilməsi həyata keçirilir. Onların nailiyyətləri barədə müntəzəm olaraq, məktəbin şagird kollektivinə məlumat verilir, belə şagirdlər fəxri–fərman və diplomlarla

təltif edilirlər. Onların uğurları “Əlaçılar”, “Bizim istedadlar” albomunda və “Şagirdlərimizin nailiyyətləri” guşələrində əks olunur.

- Tərbiyə işlərinin təşkili.

Tərbiyə şəxsiyyətin ahəngdar formalaşması və inkişafı prosesidir. Tərbiyənin məzmunu gənc nəslə aşılanacaq tərbiyəvi keyfiyyətlərin məcmusudur. O, ahəngdar şəxsiyyət tərbiyəsinin bütün tərkib hissələrini özündə birləşdirir. Buraya əxlaq və milli-mənəvi dəyərlər ruhunda tərbiyə, vətənpərvərlik (o cümlədən hərbi vətənpərvərlik) tərbiyəsi, əmək (peşəyönümü və peşəseçmə) tərbiyəsi, fiziki tərbiyə, hüquqi tərbiyə, estetik tərbiyə və ekoloji tərbiyə daxildir. Bunlar bir sistem təşkil edir.

Məktəbdə tərbiyə işləri beşilliklər üzrə hazırlanmış “Tərbiyə Proqramı” əsasında təşkil olunur. Bu işlər həm tədris prosesində, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı sistemli və ardıcıl şəkildə həyata keçirilir. Bu zaman tərbiyənin tərkib hissələri bütöv halda nəzərə alınır.

✓ *Son illər məktəbdə yetişməkdə olan nəslin milli əxlaq və milli-mənəvi dəyərlər əsasında tərbiyəsi sahəsində aparılan işlər xeyli canlanmışdır.*

Təsadüfi deyil ki, məktəbin "Tərbiyə proqramı"nda da ilk fəsil bu məsələyə həsr olunmuş və əsas prioritet istiqamətlər müəyyənləşdirilmişdir.

Fənn müəllimləri tərəfindən dərs prosesində şagirdlərdə söykökünə bağlılıq və ehtiram hissi tərbiyə etmək, onlara xalqımızın etnogenizi, etnoqrafiyası və tarixi barədə dolğun və ətraflı informasiyaların verilməsi, uşaqlarda vətənsevərlik, azərbaycançılıq, prinsipiallıq, qətiyyətlilik, azadfikirlilik, qəhrəmanlıq, sadiqlik, xeyirxahlıq, doğruçuluq, dostluq və s. kimi əxlaq-mənəvi keyfiyyətlərin formalaşdırılması üçün ardıcıl iş aparılır.

Məktəbdə dövlət dili kimi Azərbaycan dilinin nüfuzunun artırılması, tətbiqinin və tədrisinin yaxşılaşdırılması həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Respublika Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyul 2001-ci il tarixli 506 saylı fərmanının və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun izahı və icrası ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir. Dövlət dilinin nüfuzunun artırılması, tətbiqinin və tədrisinin yaxşılaşdırılması məqsədi ilə məktəbdə keçirilmiş tədbirlər barədə "Oğuz yurdu" qəzeti özünün 26 aprel 2003-cü il tarixli nömrəsində yazırdı: "...son illərdə "Ana dili millətin mənəvi diriliyidir", "Sağdır dilim, demək sağdır milyard yaşlı məmləkətim", aprel ayında şagirdlərin, valideynlərin və içtimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilmiş "Azərbaycan dili dövlət dilidir" mövzusunda

elmi-nəzəri konfrans və digər tədbirlər şagirdlərə ana dilinin ana kimi, Vətən qədər, tarix qədər, bayraq qədər müqəddəs olduğunu təlqin edir.”

Qeyd edək ki, məktəbdə 2001-ci il avqust ayının 1-dən kargüzarlıq işlərinin latın qrafikalı Azərbaycan əlifbası ilə aparılmasına, tam olaraq həmin əlifba ilə çap olunmuş dərsliklərdən istifadə olunmasına başlanmışdı.

Dərslərdə aparılan əxlaqi, milli-mənəvi tərbiyə işləri müxtəlif formalardan istifadə edilməklə sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə davam etdirilir. Belə ki, məktəb səviyyəsində şagirdlərdə əxlaqi keyfiyyətlərin formalaşdırılması üçün müntəzəm olaraq tədbirlər hazırlanıb həyata keçirilir. Belə tədbirlərə “Bilik bayramı”nı, “Narkomaniyaya dur deyək!” devizi ilə keçirilmiş rəsm müsabiqəsini, “Mütaliə aylığı” ilə əlaqədar Azərbaycan ədəbiyyatının və dünya ədəbiyyatının tanınmış ediblərinin əsərlərinin oxunması, müzakirəsi və səhnələşdirilməsini, flaşmobların təşkilini, “9 Noyabr– Dövlət bayrağı günüdür”,”Müstəqillik günü”, ”Konstitusiya günü”, “Milli Dirçəliş Günü” və məşhur şəxsiyyətlərin yubileyləri münasibəti ilə keçirilən tədbirləri, “Milli mənəvi dəyərlər barədə düşüncələrim”, “Əsl insan necə olmalıdır?”, “Mənim şanlı tariximi” və digər mövzularda inşa müsabiqələrini və müxtəlif disputların keçirilməsini, müharibə veteranları və hərbiçilərlə görüşləri, “Nəsimi ili”, ”Könüllülər ili”, “Nizami ili” və “Şuşa ili” ilə bağlı tədbirləri, rayonda

yaşayan yazarlarla keçirilən görüşləri, müntəzəm qaydada şəhidlərin yad edilməsini, onların həyat və döyüş yolunun öyrənilməsini, yerli toponimlərin tədqiqi və tarixi yerlərə ekskursiyaların təşkilini, "Gəlin kitab oxuyaq" devizi ilə keçirilmiş konfrans və kitab müzakirələrini, Oğuz RPŞ-nin rəhbərliyi və aidiyyəti əməkdaşlarının iştirakı ilə narkomaniya, erkən nigah və ekstrizm halları, onların doğurduğu içtimai təhlükələrə aid konfransları nümunə göstərmək olar.

Bu sıraya dilimiz, tariximiz, mədəniyyətimiz, milli bayramlarımız, milli mətbəxt, milli geyimlərimiz və s. haqqında keçirilmiş silsilə söhbətləri, məruzə və mühazirələri, müsabiqə, baxış, yariş, sərgi və s. keçirilməsini, uşaqlara regionun toponimləri, onların tarixi, qədim maddi mədəniyyət nümunələri və təbii sərvətləri barədə informasiyaların verilməsini, mənəvi saflığın tərənnümünə və təbliğinə həsr olunmuş şeir, mahnı, inşa müsabiqələrini, kitab müzakirələrini, polemikalar, rəy sorğuları və görüşləri də əlavə etmək olar.

Milli qəhrəmanlarımız, şəhid və itkinlərimiz barədə geniş məlumatların verməsini, "Xatirə guşələri"nin yaradılmasını, xalqımızın görkəmli şəxsiyyətləri, onların həyat və fəaliyyətləri, xidmətləri barədə şagirdlərə geniş məlumatlar verilməsini, yubileylərinin qeyd edilməsini, dini fanatizm, dini radikal meyillərin, məzhəb ayrı-seçkiliyinin zərərli nəticələri barədə informasiyaların təqdim edilməsi də bu sırada qeyd olunmalıdır.

Məsələn, 2018-ci ilin dekabrında M.Hüseynzadənin anadan olmasının 100 illiyinə, 2019-cu ildə İ.Nəsimiyə və İ.Şıxlıya, 2021-ci ildə dahi Nizamiyə və A.Ələsgərə həsr olunmuş tədbirlər böyük maraq doğurmuşdu.

Belə maraqlı tədbirlərdən biri də 2018-ci ilin oktyabr ayında "Tariximizi dərindən öyrənək!" devizi ilə keçirilən tədbir idi. Tədbirin əsas məqsədi Azərbaycan dili, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası üzrə şagirdlərin məlumatlılıq səviyyəsinin genişləndirilməsi, onların yaşadıqları ərazinin tarixi, flora və faunası, mədəniyyət abidələri ilə tanış edilməsi, həmçinin tanınmış və məşhur şəxsiyyətləri haqqında məlumatların toplanması və ümumiləşdirilməsi işinə sövq etmək idi.

Tədbir Oğuz rayonunun və Yaqublu kəndinin alim və araşdırmaçılarının, şair və yazıçılarının kitablarının sərgisinə kollektiv baxışla başlamış və akt zalında davam etdirilmişdi.

Məktəbin ümumi iş planına uyğun olaraq keçirilən bu tədbirdə tarix müəllimi Ş.Məmmədli Oğuz rayonunun tarixi və tarixi-mədəni abidələri, dil-ədəbiyyat müəllimlərindən V.Qurbanova "Oğuz" və "Yaqublu" toponimləri, A.M.Atakişiyeva Yaqubluda anadan olmuş Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü P.Qurbanovun həyat və fəaliyyəti, alman dili müəllimi S.Möylamova əslən Yaqublu kəndindən olan Azərbaycan Rəssamlar və Jurnalistlər İttifaqlarının və Yazıçılar Birliyinin üzvü Ə.İbrahimovun həyat və fəaliyyəti,

məktəbin coğrafiya müəllimlərindən A.İsayeva Ümumittifaq Səmərələşdiricilər və İxtiraçılar Cəmiyyətinin üzvü N.İsayevin ixtiraları, M.Əliyeva isə regionun flora və faunası barədə məlumat vermişdilər.

Şagirdlərdən Ü.İsayev, D.Hüseynova, S.Həsənli, G.Əliyeva, C.Nütvəliyeva və T.Kərimli yaşadıqları ərazinin tarixi, flora və faunası, mədəniyyət abidələri və tanınmış şəxsiyyətləri barədə topladıqları materiallar əsasında maraqlı təqdimatlar etmişdilər.

Tədbirdə Oğuz rayonunun tarixi abidələri və tanınmış şəxsiyyətləri barədə videoçarx nümayış etdirilmiş, oğuzlu şairlərdən N.Hüseynli, V.Qurbanova, Y.Rza, V.Oğuz və Ə.Əliyevin şeirləri səslənmişdi. Tədbirdən sonra şagirdlərin qədim Kərimli (Vardanlı) kurqanlarına ekskursiyası keçirilmişdi.

Şaagirdlərin milli-mənəvi ruhda tərbiyə olunmasında "Nəsimi ili", "Könüllülər ili", "Nizami ili", "Şuşa ili" və s. ilə bağlı keçirilmiş tədbirlərin də xüsusi rolu olmuşdur.

"Nəsimi ili" ilə əlaqədar 2019-cu ilin noyabr ayında keçirilmiş zirvə tədbiri bəstəkar F.Əmirovun "Nəsimi dastanı"ndan bir parçanın səsləndirilməsi ilə başlanmışdı. Çıxış edənlər 2019-cu ilin "Nəsimi ili" elan edilməsi barədə Prezidentin sərəncamı, dahi mütəfəkkirin dövrü və sirlərlə dolu həyatı, əsərlərinin mövzu və ideyası, şeirlərinin təməl anlamını təşkil edən islam təsəvvüfünün vəhdəti-vücud ideyası və ilahi eşq, şairin yaradıcılığında

kamil insan təlimi, onun ana dilimizin inkişafındakı rolu, yaradıcılığının Yaxın və Orta Şərq poeziyasının inkişafına təsiri, ədəbiyyat və incəsənətimizdə Nəsimi obrazı, dahi şairin irsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğı barədə ətraflı məlumat verilmişdi.

Tədbirdə görkəmli aktyorların və şagirdlərin ifasında Nəsiminin qəzəl, tuyuğ, müstəzad, mürəbbe, tərcibənd və rübailərindən nümunələr söylənmiş, onun haqqında yayılmış əfsanə və rəvayətlərdən söz açılmış, şairin sözlərinə bəstələnmiş mahnılar səslənmiş, “Nəsimi” filmindən maraqlı epizodlar nümayiş etdirililmişdi.

Daha sonra tədbir iştirakçıları şairin həyat və yaradıcılığına həsr olunmuş foto-stendə və kitablarının sərgisinə, “Nəsimi ili” çərçivəsində keçirilmiş rəsm müsabiqəsi qaliblərinin rəsmlərinə tamaşa etmişdilər.

2020-ci il fevral ayında isə kənddəki mədəni-maarif müəssisələrinin də iştirakı ilə “Könüllülər ili”nə həsr olunmuş geniş yığıncaq keçirilmişdi.

Müəllim və şagirdləri “Könüllülər ili” ilə əlaqədar məktəbdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrasına səfərbər etmək üçün keçirilən maarifləndirmə xarakterli tədbirdə ölkə Prezidenti İ.Əliyevin “Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında” sərəncamı və onun mahiyyəti barədə ətraflı məlumat çatdırılmışdı.

Tədbir iştirakçılarına könüllülük, könüllülər, könüllü fəaliyyət və ölkəmizdə gündən-günə genişlənən könüllülər

hərəkatı haqqında geniş izahat və informasiyalar verilmişdir.

2021-ci ilin dekabr ayında "Nizami ili"nə həsr olunmuş və dil-ədəbiyyat müəllimi A.F.Atakişiyevanın idarə etdiyi yekun tədbir isə dünyaca məşhur olan müğənni M.Maqomayevin ifasında dahi bəstəkarımız Ü.Hacıbəyovun Nizaminin sözlərinə bəstələdiyi "Sənsiz" romansının səsləndirilməsi ilə başlanmışdı.

Məktəbiin tarix müəllimi Ş.Məmmədli dahi şairimizin dövrü və mühiti haqqında geniş məlumat vermiş, dil-ədəbiyyat müəllimləri A.M.Atakişiyeva ədibin lirikasından, V.Qurbanova "Xəmsə"sindən söhbət açmışlar. IX-XI sinif şagirdləri N.Gəncəvinin həyatı və əsərlərinin ideya-bədii xüsusiyyətləri, poemalarındakı türkçülük və bəşəri ideyalar, görkəmli şəxslərin şairin haqqındakı fikirləri, Nizami ədəbi məktəbinin davamçıları və son illər tapılmış ana dilli əsərləri barədə maraqlı informasiyalar təqdim etmişdilər.

Tədbirdə maraqlı video-çarxlar nümayiş etdirilmiş, uşaqlar "Nizami" filmindən fraqmentlərə tamaşa etmişdilər. Onlar şairin qəzəl, qəsidə, rübailərindən nümunələr və poemalarından parçalar təqdim etmiş, onun müdrik misralarını səsləndirmişlər.

Tədbiri məktəbin direktoru, Əməkdar müəllim İ.Verdiyev yekunlaşdırmışdır. Daha sonra iştirakçılar şairin əsərlərinin sərgisinə və bu əsərlərə çəkilmiş illüstrasiyalara tamaşa etmişlər.

Maraqlı keçən tədbir məşhur müğənnimiz A.Qasımovun bəstəkar Ü.Hacıbəyovun Nizaminin sözlərinə bəstələdiyi “Sevgili canan” romansının sədaları altında başa çatmışdı.

2022-ci ilin yanvar ayında “Şuşa ili”nə aid keçirilmiş maarifləndirici tədbir də maraqla qarşılanmışdır. Müəllimlər A.İsayeva və M.Əliyevanın təşkilatçılığı ilə keçirilən tədbirdə 2022-ci ilin "Şuşa ili" elan olunması haqqında ölkə Prezidentinin sərəncamı və onun mahiyyəti, “Şuşa ilı”ndə  görülməsi nəzərdə tutulmuş işlər haqqında geniş məlumat verilmişdir. Tədbirdə həmçinin Qarabağın incisi olan Şuşa şəhərinin tarixi, onun mədəniyyətimizin paytaxtı olması, erməni quldurları tərəfindən işğal olunaraq viran qoyulması, şanlı Azərbaycan ordusu tərəfindən işğaldan azad edilməsi və burada aparılan bərpa-quruculuq işləri barədə təqdimatlar edilmiş, Şuşa, o cümlədən işğal olunmuş digər rayonlarımız, onların işğaldan azad edilməsi haqqında video-çarxlar nümayiş olunmuşdur.

Məktəbdə şagirdləri zərərli vərdişlərdən çəkindirmək üçün sistemli, planlı və ardıcıl tədbir həyata keçirilir. Bu məqsədlə maarifləndirici tədbirlərin təşkilinə xüsusi əhəmiyyət verilir. 2018-ci ilin dekabr ayında “Narkomaniya, dini radikalizm, erkən nigah və onların fəsadları” mövzusunda keçirilmiş konfrans da belə tədbirlərdən biri idi.

Konfransda DQİDK-nin Şəki bölgəsinin məsləhətçisi S.Salehov, Oğuz RPŞ-nin sahə rəisi B.Quliyev, Oğuz RMX-nın həkim-narkoloqu V.Babayev, Oğuz RTŞ-nin əməkdaşları E.Əzimli və E.Qəhrəmanov, Oğuz Gənclər və İdman idarəsinin əməkdaşı Ş.Rüstəmov, müəllimlər, valideynlər və yuxarı sinif şagirdləri iştirak edirdilər.

Tədbirdən əvvəl bütün iştirakçılar şagirdlər tərəfindən "Narkomaniyaya "yox" deyək!" mövzusunda rəsm müsabiqəsinə təqdim olunmuş maraqlı və düşündürücü rəsmlərə tamaşa etdilər.

Vacib tədbiri giriş sözü ilə açan məktəbin direktoru İ.Verdiyev mövzunun əhəmiyyətindən və aktuallığından danışdı.

DQİDK-nin Şəki bölgəsinin məsləhətçisi S.Salehov, Oğuz RPŞ-nin sahə rəisi B.Quliyev, Oğuz RMX-nın həkim-narkoloqu V.Babayev, Oğuz RTŞ-nin əməkdaşları E.Əzimli və E.Qəhrəmanov, Oğuz Gənclər və İdman idarəsinin əməkdaşı Ş.Rüstəmov narkomaniya, dini radikalizm, erkən nigahın fəsadları barədə geniş məlumat verdi, bunların cəmiyyətin mənəvi və əxlaqi dəyərlərini sarsıtdığını qeyd etdi və belə hallara qarşı mübarizədə hər kəsin üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü vurğuladılar.

Müəllimlər İ.Vahabova, Ə.İsmayılova, V.Qurbanova və psixoloq L.Sadıqova; valideynlərdən S.Məmmədov, Z.Nütvəliyev, A.Sadıqova, İ.Allahverdiyev və Valideyn Komitəsinin sədri N.Hətəmova; şagirdlərdən K.Kərimli,

A.İsazadə, E.Məmmədli və T.Kərimli çıxış edərək narkomaniya, dini radikalizm, erkən nigahın insanların həyat və sağlamlığına ciddi təhlükə yaratdığını bildirdi, belə hallara qarşı hamılıqla mübarizə aparmağın vacibliyini irəli sürdülər.

2019-cu ilin mart ayında isə məktəbdə Oğuz RPŞ-nin rəis müavini Q.Mahmudov başda olmaqla şöbənin əməkdaşları ilə birgə "Zərərli vərdişlərdən uzaq olaq!" və "Yol hərəkəti təhlükəsizliyi" mövzusunda tədbir keçirildi. Tədbirdə şöbənin içtimai təhlükəsizlik bölməsinin rəisi N.İsmayılovun "Zərərli vərdişlərin içtimai təhlükəsi" və DYPB-nin rəisi T.Qarayevin "Yol hərəkəti qaydalarına əməl edək!" mövzusunda məruzələri dinlənildi.

Tədbirdə müəllim və şagird kollektivini maraqlandıran məsələlərə aydınlıq gətirildi,verilmiş suallar cavablandırıldı.

Məktəbdə milli-mənəvi dəyərlərin aşılanması üçün əyani təşviqat işlərinə də xüsusi önəm verilir. Bu məqsədlə foye və sinif otaqlarında dövlət rəmzlərinə, şəhidlərə, Azərbaycanın Milli Qəhrəmanlarına (K.Rəhimov, M.İbrahimova) ümummilli liderimiz H.Əliyevə, Oğuz şəhidlərinə və məktəbin Qarabağ müharibəsi iştirakçısı olmuş məzunlarına, həmçinin müqəddəs şəhidlərimizə həsr olunmuş fotomontajlar və ya fotostendlər hazırlanmışdır.

✓ *Məktəbdə şagirdlərin vətənpərvərlik, o cümlədən hərbi vətənpərvərlik tərbiyəsi işləri də daim diqqət mərkəzində saxlanılır.*

Beşilliklər üzrə hazırlanmış "Tərbiyə proqramı"nda bu məsələlər xüsusi nəzərə alınmışdır. Məktəbdə zəngin hərbi kabinet var və məktəbli hərbi şəhərçiyi salınmışdır. Fənn müəlimləri, hərbi rəhbər, uşaq birliyinin sədri və kitabxanaçı tərəfindən uşaqlarda Vətənə, onun ərazi bütovlüyünə, torpaqlarımızın toxunulmazlığına hər hansı formada təcavüzə qarşı barışmazlıq hisslərinin aşılanması, onların xalqımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsi üçün xalq sərkərdələri, müharibə veteranları, hərbi sərkərdələrimiz və hərbçilərimiz, şəhidlər, Sovet İttifaqı Qəhrəmanları və Milli Qəhrəmanlar haqqında söhbət, mühazirə və məruzələr keçirilir, hərbi xidməti başa vurmuş gənclərlə görüşlər təşkil edilir. Şəhidlərin həyat və döyüş yolu haqqında məlumatlar verilir, onların məzarları ziyarət olunur.

Şagirdlərin hərbi peşələrə istimətləndirilməsi üçün ardıcıl iş aparılır. "Şahin" və "Cəsurlar" hərbi idman oyunlarına hazırlıq ciddi nəzarət altında aparılır. Görülən işlərin nəticəsidir ki, son dövrlərdə C.Naxçıvanski adına hərbi təmayüllü liseydə və hərbi akademiyada oxuyan məzunlarımızın sayı artmaqdadır. (İ.Mənəfov, V.Mənəfov, E.Mustafayev, C.Hətəmov, Z.Rzayev və b.) Bu işlərdə

hərbi rəhbərlər X.Məmmədov, V.Rzayev və T.Məmmədovun böyük əməyi olmuşdur.

Görülmüş işlərin nəticəsidir ki, məzunlarımız ordu sıralarında uğurla xidmət keçir, I və II Qarabağ müharibələrində öz hünər və cəsarətləri ilə fərqlənirdilər.

Onlar Qarabağ müharibələrində sözün həqiqi mənasında qəhrəmanlıq nümayiş etdirmişdilər. I və II Qarabağ müharibələrində məktəbimizin 60 nəfərə qədər məzunu iştirak etmişdi.

Məktəbdə Qarabağ müharibəsində hünər göstərmiş Oğuz rayonunun, o cümlədən məktəbimizin şəhid məzunlarının şərəfinə "Xatirə güşələri" hazırlanmış, məktəbin adını daşıdığı I Qarabağ müharibəsinin şəhidi T.Babayevin xatirəsinə abidə kompleksi tikilmişdir. Bura şagirdlərin ehtiramla və tez-tez yad etdikləri guşələrdir. Şəhidlərimiz və veteranlarımız, onların həyat və döyüş yolu bu gün məktəbdə təhsil alan hər bir şagird üçün qəhrəmanlıq nümunəsidir, örnəkdir.

Vaxtaşırı məktəbdə müharibə veteranları ilə görüşlər keçirilir, şəhidlərin xatirələri yad olunur və onların məzarları ziyarət edilir.

2021-ci ilin noyabrında "Zəfər günü" ərəfəsində I və II Qarabağ müharibələrinin iştirakçıları ilə məktəbin müəllim və şagird kollektivinin görüşü belə tədbirlərdən biri idi. Xüsusi təntənə ilə qarşılanan müharibə iştirakçıları öncə şəhid T.Babayevin şərəfinə məktəbin həyətində ucaldılmış xatirə abidəsinin önünə çiçək dəstələri qoymuş, "Zəfər

günü" münasibəti ilə təşkil olunmuş "Qarabağ Azərbaycandır!" adlı rəsm sərgisinə tamaşa etmiş,“Tarix yazan məzunlarımız” adlı yeni hazırlanmış foto-stendlə tanış olmuşlar.

Akt zalında valideynlərin və içtimaiyyətin nümayəndələrinin də iştirakı ilə keçirilən görüş dövlət himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır. Tədbiri məktəbin direktoru İ.Verdiyev açaraq görüşdə iştirak edən müharibə iştirakçılarını salamlamış və onları tək-tək tədbir iştirakçılarına təqdim etmişdir.

Müharibə iştirakçılarından Q.İsayev, İ.Muğumov, A.Ağayev, R.Sübəyev, T.Kazımov, Ə.Ellazov, P.İsayev, Ş.İsayev, Z.Muğumov və digərləri öz döyüş yolları haqqında məlumat vermişlər. Müəllimlərdən Ş.Məmmədli, C.Rüstəmli, V.Qurbanova, İ.Vahabova, S.Əhmədov, N.Həsənov və hərbi rəhbər T.Məmmədov; şagirdlərdən S.Qurbanova, T.Yaqubov, N.Cəfərzadə, Ü.İsayev və D.Hüseynova öz ürək sözlərini söyləmişlər. Müharibə iştirakçıları şagirdlərin suallarını cavablandırmışlar. Uşaqlar Vətənə, igidliyə və qəhrəmanlığa, müqəddəs şəhidlərə həsr olunmuş şeir və mahnılar səsləndirmişlər.

Zəfər günü ərəfəsində məktəbimizin keçmiş şagirdlərindən biri, Azərbaycan Ordusunun XTQ-nin mayoru, qazi, “Azərbaycan bayrağı” ordenli, “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunmuş, Cəbrayıla ilk qələbə

bayrağını sancanlardan, 1992-ildə Şuşa uğrunda döyüşlərdə şəhid olmuş, əfsanəvi Tofiq Oğuzun oğlu Polad Rzayevlə müəllim və şagirdlərin görüşü də maraqlı olmuşdur.

Məktəbin direktoru İ.Verdiyev P.Rzayevi müəllim və şagird kollektivinə təqdim edib, onun haqqında qısa məlumat verərək sözü qəhrəmanımıza vermişdi.

P.Rzayev çıxış edərək özünün həyat və döyüş yolu haqqında geniş məlumat vermiş, 44 günlük müharibə barədə öz təəssüratlarını söyləmiş, müəllim və şagirdlərin suallarını cavablandırmışdır.

Müəllimlərdən Poladın sinif rəhbəri olmuş kimya müəllimi İ.Vahabova, hərbi rəhbər T. Məmmədov, tarix müəllimi Ş.Məmmədli, direktor müavini N.Həsənov; şagirdlər S.Kərimli, Ü.İsayev, E.Allahverdiyev, N.Cəfərzadə, K.Həsənov, C.Hətəmov və başqaları çıxış edərək P.Rzayevin qəhrəmanlıqlarından geniş söz açmış, ona sağlıq arzulamışlar.

Zəfər günü ərəfəsində şagirdlərə bütün Oğuz şəhidləri haqqında ardıcıl şəkildə informasiyalar verilmiş, şagird və müəllim kollektivinin nümayəndələrinin Oğuz şəhərindəki Şəhidlər xiyabanına ziyarəti təşkil edilmişdir.

✓ *XXI əsrin əvvəllərində məktəbdə şagirdlərlə aparılan əmək tərbiyəsi və peşəyönümü işləri də xeyli canlanmışdır.*

Müəllimlər tədris prosesində və dərsdənkənar tədbirlərdə bu işlərə diqqəti artırmışlar. Bu istiqamətdə son illər Oğuz Rayon Məşğulluq Mərkəzi ilə birlikdə bir sıra mühüm və səmərəli tədbirlər həyata keçirilmişdir.

Belə tədbirlərdən biri 2018-ci ilin noyabr ayında "Yuxarı sinif şagirdlərinin peşə seçimində məktəb və ailənin rolu" mövzusunda keçirilmişdir. Tədbirdə çıxış edənlərdən Oğuz rayon Məşğulluq Mərkəzinin baş məsləhətçisi V.Kərimova, aparıcı məsləhətçisi İ.İskəndərov, məsləhətçilərdən Ə.Nəsirov, mütəxəssis S.Kərimova, məktəbin müəllimləri V.Qurbanova, P.Əhmədova, psixoloq L.Sadıqova, valideynlərdən N.Süleymanova, S.Rəhimova, V.Məmmədova, A.İsayeva və N.Həsənov tədbirdə çıxış edərək gənclərin şüurlu yaradıcı əməyə hazırlanmasında, onların düzgün ixtisas seçiminə istiqamətləndirilməsi işində məktəb və valideynlərin rolunun əhəmiyyətini vurğulamışlar.

Tədbirdə həmçinin valideyn və şagirdlərə hazırkı əmək bazarındakı mövcud vəziyyət, işəgötürənlərin peşə və ixtisaslara olan tələbatı haqqında ətraflı məlumat verilmişdir. Düzgün və ağıllı peşə seçiminin vacibliyi, iş imkanlarının obyektiv qiymətləndirilməsi və bu imkanlardan səmərəli istifadə etməyin əhəmiyyəti barədə müzakirələr aparılmışdır.

2019-cu ilin dekabr ayında isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Oğuz Rayon Məşğulluq Mərkəzi və məktəbin

birgə təşkilatçılığı ilə “Peşə-ixtisas seçiminin düzgün aparılması gələcəyin təminatıdır” devizi ilə maarifləndirici tədbir keçirilmışdi.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin əməkdaşı S.Şəmmədova, Oğuz Rayon Məşğulluq Mərkəzinin direktoru A.Məmmədov, Mərkəzin psixoloqu R.Abidova, aparıcı mütəxəssislərdən İ.İsgəndərov, məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak edirdilər.

Oğuz Rayon Məşğulluq Mərkəzinin psixoloqu R.Abidova peşə-ixtisas seçimi və ona təsir edən digər amillər, peşəseçmədə ən çox yol verilən səhvlərdən geniş bəhs etdi.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin əməkdaşı S.Şəmmədova, Oğuz Rayon Məşğulluq Mərkəzinin direktoru A.Məmmədov, müəllimlərdən P.Əhmədova və V.Qurbanova, şagirdlərdən N.Sadıqova, R.Mehdiyev, Ü.İsayev, T.Cavadova, F.Qurbanova və başqaları çıxış etmişdilər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin əməkdaşı S.Şəmmədova uşaqların suallarını cavablandırmışdır.

2021-ci ilin noyabr ayında məktəbin peşəyönümü koordinatoru Ş.Məmmədlinin təşəbbüsü ilə peşəseçiminə həsr olunmuş "Hər bir peşə gözəldir" devizi ilə növbəti tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin

direktoru İ.Verdiyev açmış, psixoloq L.Sadıqova "Düzgün peşə seçiminin şərtləri", təsviri incəsənət və texnologiya müəllimi P.Əhmədova "Hazırda ən çox tələb olunan peşələr", dil-ədəbiyyat müəllimi V.Qurbanova "Peşəseçimi zamanı buraxılan səhvlər" barədə maraqlı informasiyalar vermiş, "Hansı peşəni seçməli?" və "Gələcəyin ən çox tələb olunan altı peşəsi" mövzusunda video-çarxlar nümayiş etdirilmişdir.

Çıxış edən müəllimlərdən M.Əliyeva, İ.Vahabova, R.Muğumova və N.Həsənov öz tövsiyələrini söyləmiş, şagirdlərdən D.Hüseynova, R.Tağızadə, K.Həsənov, S.Kərimli, E.Allahverdiyev, N.Mənəfov, G.İbrahimova, O.Sübəyev və başqaları peşəseçmə barədə fikirlərini və mülahizələrini səsləndirmişlər. Tədbirdə müxtəlif peşə sahiblərinin və iş adamlarının (bərbər, qaynaqçı, dərzi) məsləhət və tövsiyələri də dinlənilmişdir.

✓ *Məlum olduğu kimi şəxsiyyətin formalaşmasında fiziki tərbiyə böyük rol oynayır.*

Buna görə də məktəbdə fiziki tərbiyəyə xüsusi diqqət yetirilir və onun müxtəlif vasitə və formalarından səmərəli istifadə olunur.

Bu zaman fiziki təmrinlərdən, təbii və gigiyenik vasitələrdən istifadə ön plana şəkilir. Fiziki tərbiyənin təşkilinin əsas formalarından fiziki tərbiyə və fiziki mədəniyyət dərslərinə, gün rejimində idman-sağlamlıq

tədbirləri, sinifdənxaric və məktəbdənkənar tədbirlərə daha çox müraciət olunur. Bütün bu işlərin hamısı tərbiyə işləri üzrə direktor müavini R.Muğumova, fiziki tərbiyə müəllimi S.Əhmədovun rəhbərliyi altında aparılır.

Fiziki hazırlıq üzrə tədris normativlərinin yerinə yeirilməsinin təmin olunması, fiziki cəhətdən zəif olan uşaqlarla fərdi proqram üzrə işlərin təşkili və bu zaman fiziki tərbiyənin mühüm vasitəsi olan xüsusi tip çalışmalar və gigiyenik amillərdən səmərəli istifadə edlməsi, müxtəlif idman növləri üzrə şəxsi və komanda birincilikləri, siniflərarası və məktəblərarası yarışların, o cümlədən ”Şən startlar“, “Sağlam olaq!” və “Gələcək çempionlar sıramızdadır” hərəkatı çəvçivəsində maraqlı yarışların keçirilməsi, “Sağlam təhsil” siniflərinin yaradılması, “İdman həftə”lərinin təşkili, şagirdlərin tənəffüsləri açiq havada keçirməsi və mütəhərrik oyunların təşkili və s. diqqət mərkəzində saxlanılır.

Məktəbdə sağlam mühit amillərinin təmin olunması və şağirdlərin fiziki sağlamlığı və psixoloji dayanıqlığının təmin olunması diqqət mərkəzində saxlanılan əsas məsələlər sırasındadır.Yeni məktəb binasının istifadəyə verilməsi ilə burada gigiyenik normativlərə uyğun şəraitin təşkili və tərtibi, uşaqların belə bir mühitdə təhsil alması üçün tam normal şərait yaradılmışdır. Sinif otaqlarının quruluşu, dizaynı, mebellərin forması və ölçüləri, yerləşdirilməsi, tərtibatı, işıqlanması normativlərə tam

uyğundur. Siniflərdə şagirdlərin gigiyenik qaydalara riayət etmələri, təmizlik işləri hər zaman diqqət mərkəzindədir.

Məktəbdə şagirdlərin sağlamlığı həkim nəzarəti altındadır və vaxtaşırı onların dispaniraziyası aparılır. Səhhətində problem olan şagirdlər haqqında sahə tibb məntəqələrinə məlumatlar verilir, məsləhətləşmələr üçün valideynlərlə əlaqə saxlanılır.

Şagirdlərin və işçilərin təbii fəlakətlərdən qorunması üçün müntəzəm və vaxtaşırı maarifləndirici tədbrlərin təşkilinə diqqətlə yanaşılır. Bunun üçün MM tədbirlərinin imkanlarından səmərəli istifadə olunur. Belə tədbirlərdən biri 20 iyun 2017-ci il tarixdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əməkdaşları ilə birlikdə "Təhsildə fəlakət riskinin azaldılması yolları" mövzusunda keçirilmişdi. Tədbir zamanı müəssisənin rəhbər və texniki işçiləri ilə birlikdə təbii və texnogen xarakterli fövqəladə halların yaranma səbəbləri, fəlakət riskinin azaldılması yolları, məktəbin daxilində fəlakətə səbəb ola biləcək amillərin aradan qaldırılmasında ilkin xəbərdarlıq sisteminin əhəmiyyəti və su hidrantlarından istifadə qaydaları kimi mövzular geniş müzakirə olunmuşdur.

Başqa bir tədbir isə 2021-ci ildə keçirilmişdir. Tədbir iki hissədən ibarət idi. Nəzəri hissədə məktəbin hərbi rəhbəri T.Məmmədov "1 Mart Beynəlxalq Mülki müdafiə günüdür", fiziki tərbiyə müəllimi S.Əhmədov "Fövqəladə hallar zamanı davranış qaydaları barədə", Yaqublu kənd

tibb məntəqəsinin tibb bacısı A.Sadıqova “Qanaxmalar zamanı ilk tibbi yardım”, X sinif şagirdi Ü.Kərimli “112 qaynar xətti təhlükəsizliyimizin qarantıdır” movzusunda çıxış etdilər. Daha sonra tədbir iştirakçıları “Zəlzələ və yanğın zamanı nə etməli?” və “İlan və əqrəb sancmasından qorunmaq üçün təhlükəsizlik qaydaları” adlı videoçarxlara tamaşa etdilər.

Tədbirin praktiki hissəsində tibbi yardım çantası və ondan istifadə, sınıq və çıxıqları olanlara ilk tibbi yardım edilməsi, qanın kəsilməsi üçün turna juqutu və sarğı qoyulması qaydaları, yaralıların meydandan çıxarılması, yanğının söndürülməsi və əlehiqazların geyinilib – soyunulması üzrə şagirdlərin nümunəvi çıxışları oldu. Tədbirin sonunda təxliyə planları üzrə şagirdlərin və işçilərin təcrübi biliklərinin artırılması üçün “təxliyə məşqi” keçirildi.

Düzgün gün rejminin təşkil edilməsinə, uşaqların düzgün qidalanmasına, kifayət qədər yatmasına, açıq havada fəal istirahət etməsinə, televizor, kompüter və digər İKT vasitələrindən uzun müddət məşğul olmamasına xüsusi diqqət yetirilir və bu məqsədlə valideynlərlə müntəzəm məsləhətləşmələr aparılır.

Şagirdlərə müntəzəm olaraq sağlamlıqlarını qorumaq, ziyanlı vərdişlərə meyl etməmək, yoluxucu xəstəliklər və bu xəstəliklərdən qorunma yolları (xüsusən COVİD-19 pandemiyası dövründə), düzgün qidalanma haqqında məlumatlar verilir. Sağlam həyat tərzinin mahiyyətini

onlara başa salmaq məqsədi ilə maarifləndirici tədbirlər keçirilir. Belə tədbirlərdən biri də 2019-cu ilin noyabr ayında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Şəki regional bölməsinin əməkdaşları ilə birgə “Sağlam məktəbli” layihəsi çərçivəsində keçirilən maarifləndirmə tədbiri idi.

Tədbirin keçirilməsində əsas məqsəd qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi, uşaqlar arasında sağlam qidalanmanın təşviqi və onlarda qida təhlükəsizliyi vərdişlərinin aşılanması idi.

Tədbirdə Agentliyin Şəki regional bölməsinin bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun məsləhətçisi K.Mustafyeva, idxal-ixrac monitorinq sektorunun böyük məsləhətçisi V.Əhmədov və qida təhlükəsizliyi sektorunun məsləhətçisi A.Məmmədova müəllim və şagirdlərə təhlükəsiz qidalanma, ticarət obyektlərindən ərzaq məhsulları alarkən diqqət edilməsi lazım olan amillər, süd və meyvə-tərəvəz məhsullarının faydaları, enerji içkilərinin zərərləri, məktəblilərin normal qida rasionu və s. barədə ətraflı məlumat verdilər. Agentliyin hazırladığı vedio-çarxlar təqdim olundu.

Sonda Agentliyin əməkdaşları tərəfindən tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırıldı və maarifləndirici bukletlər paylandı.

✓ *Hüquq tərbiyəsi məktəbdə planlı və sistemli xarakter kəsb edir, müxtəlif forma və metodlarla həyata keçirilir.*

Bu formalar içərisində dərslər əsas yer tutur. Ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərin hüquqi şüurunun formalaşması üçün mövcud imkanlardan səmərəli istifadə olunur. Dərslərdə şagirdlərin qanun yaradıcılığı barədə təsəvvürlərini dərinləşdirmək, onlara qanunverici, icraedici və məhkəmə hakimiyyəti haqqinda ətraflı informasiyalar vermək, şagirdlərdə milli adət-ənənələrimizə, Konstitusiyamıza və qanunlara hörmət və ehtiram hissi tərbiyə etmək, ölkəmizdə həyata keçirilən hüquqi islahatlar və hüquqi dövlət quruculuğu barədə məlumatların verilməsi, ölkə Konstitusiyası və onun ayrı-ayrı maddələrinin izah olunması, uşaqlara ölkəmizin qoşulduğu beynəlxalq müqavilə, saziş, pakt, konvensiya və s.barədə, daxil olduğu beynəlxalq təşkilatlar haqqında məlumatların verilməsi, uşaqların hüquq və azadlıqlarının onlara dərindən öyrədilməsi, hüquq və azadlıqlara malik olmağın öz hərəkətlərinə görə məsuliyyət daşımaqla qırılmaz əlaqədə olması barədə əqidə formalaşdırmaq, uşaq və gənclərə BMT-nin "İnsan Hüquqları Bəyannamə"si, "Uşaq Hüquqları Konvensiyası" və Azərbaycan Respublikasının "Təhsil Qanunu","Uşaq hüquqları haqqında" qanunları və s. barədə məlumatlar vermək üçün sistemli və ardıcıl iş aparılır.

Hüquq tərbiyəsi üzrə təlim prosesində aparılan işlərlə yanaşı, sinifdənxaric və məktəbdənkənar işlər də böyük əhəmiyyət kəsb edir. Bu işin planlı, məqsədyönlü və mütəşəkkil təşkilinə xüsusi fikir verilir. Hüquqi mövzularda söhbət və mühazirələr, tematik axşamlar, viktorinalar, disputlar, əxlaqi-hüquqi məsələlərə dair bədii əsərlərin və filmlərin müzakirəsi, hüquq mövzularında konfranslar, hüquq-mühafizə orqanlarının əməkdaşları ilə görüşlər keçirilir. Hüquq, icra və bələdiyyə orqanlarının içiləri ilə görüşlər, sual-cavabların keçirilməsi, ”Müqəddəs qanunlarımız” və s. mövzularda disput, yaxud müzakirələr keçirilməsi, ”Mənim hüquqlarım və vəzifələrim” və s. mövzularında rəy sorğuları, VIII-XI sinif şagirdləri ilə ”Mən demokratiyanı necə başa düşürəm?” mövzusunda müzakirələrin keçirilməsi buna misal ola bilər. Bu tədbirlər yeniyetmə və gənclərin hüquqi biliklərini artırmağa, hüquqi məsələlərə inam yaratmağa kömək göstərir.

Məktəbdə yaradılmış “Şagird parlamenti” də uşaqların hüquqi görüşlərinin formalaşmasında əhəmiyyətli rol oynayır. Burada şagirdlərin liderlik keyfiyyətlərinin və idarəetmə mədəniyyətinin formalaşdırılması, fəal vətəndaşlıq və qanunun aliliyi ruhunda tərbiyə olunması, məktəbin ictimai həyatında önəmli yer tutması üçün təşviq edilməsi istiqamətində işlər aparılır.

Məktəbdə şagirdlərin hüquq və azadlıqlarının müdafiəsi də diqqət mərkəzində olan məsələlərdəndir.

Məktəblilərin “Uşaq hüquqları Konvensiyası”, “Uşaq hüquqları haqqında” ölkə Qanunu və digər normativ sənədlərdən irəli gələn  yaşamaq və inkişaf etmək, sağlamlıq, təhsil, ad və vətəndaşlıq almaq, vicdan, fikir və söz azadlığı və digər hüquqları tam təmin olunur. Şagirdlərə uşaq hüquqları haqqında məlumat vermək üçün “Uşaq hüquqları aylıqları”ndan və digər tədbirlərdən səmərəli istifadə olunmasına səy göstərilir. “Şagird parlamenti”ində birbaşa şagirdlərin marağına toxunan və onların narahatlığına səbəb olan məsələlərin müzakirəsi keçirilir və qərarlar qəbul edilir.

Bu zaman uşaqların hüquq və azadlıqları ilə yanaşı əsas vəzifələri barədə də geniş məlumatlar verilir, onlarda hüquq və azadlıqlarının vəzifələri ilə ciddi vəhdət təşkil etməsi barədə fikir formalaşdırılır. Hüquqi tərbiyə işlərinin aparılmasında fənn müəllimləri Ş.Məmmədli, A.F.Atakişiyeva, A.M.Atakişiyeva, Z.Əliyeva, M.Əliyeva, S.Heydərova, B.Qasımova, A.İsayeva, V.Qurbanova, L.Sadıqova, X.Heydərova və digərləri zəngin iş təcrübəsinə yiyələnmişlər.

“Uşaq hüquqları Konvensiyası”nın öyrənilməsi, təbliği və tətbiqi ilə əlaqədar qazanılmış iş təcrübəsi məktəbin müəllimi və direktoru İ.Verdiyevin Təhsil Nazirliyinin Elmi-metodiki Şurası “Məktəbəqədər tərbiyə və ibtidai məktəb” bölməsinin 16 mart 2002-ci il tarixli 3 saylı protokolu ilə təsdiq olunaraq 2003-cü ildə çap olunmuş “BMT-nin “Uşaq hüquqları haqqında

Konvensiyası"nın müddəalarının öyrənilməsi, təbliği və tətbiqi" adlı metodik tövsiyəsində ümumiləşdirilmişdir. Məktəbdə həmin metodik tövsiyədən hələ də istifadə olunmaqdadır.

✓ *Məktəbdə estetik tərbiyə işləri də geniş məzmunda aparılır.*

Təlim prosesi estetik tərbiyənin çox mühüm vasitəsi olub, şagirdlərin estetik zövq və bacarıqlarının formalaşmasında böyük rol oynayır. Bu sahədə xüsusilə musiqi, təsviri incəsənət, texnologiya, ana dili və ədəbiyyat fənlərinin imkanları genişdir. Ona görə də fənn müəllimləri P.Əhmədova, V.Qurbanova, M.Atakişiyeva, A.F.Atakişiyeva və T.Qocayeva bu imkanlardan səmərəli istifadə etməyə səy göstərirlər.

Dərslərdə aparılan estetik tərbiyə sinifdənxaric və məktəbdənkənar işlərdə daha da dərinləşdirilir və genişləndirilir. "Uşaq hüquqları aylığı", "Kitab günü" münasibəti ilə rəsm müsabiqələri, "Bacarıqlı əllər", "Səməni və novruz çiçəkləri", "Mənim üç rəngli bayrağım" devizi ilə əl işlərinin sərgisi, AXC-nin qurulmasına həsr edilmiş virtual sərgi, məktəb bədii özfəaliyyət kollektivinin çıxışları, təbiətə ekskursiyalar, idman yarışları, şagirdlərin Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə təşkil olunan

“Muzeylərimizi tanıyaq və tanıtdıraq” adlı interaktiv ekskursiyada iştirakı və s. bu cür sinifdənxaric işlərə nümunə ola bilər.

Bədii özfəaliyyət kollektivinin işinin yenidən qurulması, müntəzəm çıxışlarının təşkili, mahnı, sərgi, rəsm, şeir, rəqs, idman, bədii yaradıcılıq və s. üzrə müsabiqə və yarışlar təşkil etmək, istedadlı uşaqlarla fərdi iş, konsert, kinofilm, tamaşa, idman yarışlarına kollektiv baxışlar keçirmək, kollektiv musiqi dinlənilməsi, xalq çalğı alətləri və digər maddi-mənəvi mədəniyyət abidələri haqqında məlumatlar vermək, təbiətə, tarixi yerlərə, Oğuz və Qəbələ Diyarşünaslıq və H.Əliyev muzeylərinə ekskursiyalar uşaqların estetik zövqünün formalaşmasına ciddi təsir göstərir. Şagirdlərə milli adət-ənənələr, nitq etiketləri, beynəlxalq nəzakət qaydaları və s. barədə məlumatlar vermək, ”İstedad axtarırıq?”, Əllərim nəyə qadirdir?” və s. mövzularda müsabiqələr, ”Sinfinizin estetik tərtibatı sizi qane edirmi?” və s. mövzularda rəy sorğuları keçirmək isə ənənəyə çevrilmişdir. Bu işlər şagirdlərin estetik görüşlərinin inkişafına kömək göstərir.

✓ *Ekoloji tərbiyənin əsasını təbiətə sevgi və onun mühafizəsi işi təşkil edir.*

Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxışlar yaratmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq lazımdır. Buna görə də ekoloji tərbiyə işləri də unudulmur. Bu istiqamətdə həm dərslərin, həm də sinifdənxaric tədbirlərin imkanlarından

səmərəli yararlanılır.Yerli şəraitdən asılı olaraq ekoloji tərbiyə işinin müxtəlif formalarından istifadə olunur. Gənc təbiətçilər dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, ekologiya üzrə olimpiada və viktorinalar, ekologiya ayları, ekologiya reydləri, ekoloji kəşfiyyat və s. belə maraqlı formalardandır. Məktəbdə şagirdlərə ətraf mühitə və təbii sərvətlərə cəmiyyətin zərərli təsiri yolları barədə məlumatların verilməsi, onların ətraf aləmin çirkləndirilməsi mənbələri, o cümlədən kimyəvi proseslər və maddələrlə tanış edilməsi, ətraf mühitin qorunmasının əsas prinsipləri, qaydaları və aspektləri, keyfiyyət standartları və ekoloji nəzarət sistemi ilə tanış edilməsinə ciddi əhəmiyyət verilir. Ətraf mühiti qorumağın əsas istiqamət və metodlarının öyrədilməsi və ərazinin ekoloji vəziyyətini öyrənmək, tədqiq etmək, ekoloji kəşfiyyat işlərinə və təkliflər hazırlamağa cəlb etmək üçün ardıcıl iş aparılır. Bu sahədə fənn müəllimləri M.Əliyeva, A.İsayeva, Ə.İsmayılova, P.Əhmədova və İ.Vahabova zəngin iş təcrübəsi qazanmışlar.

Məktəbdə aparılan tərbiyəvi işlərdə, şagirdlərin əxlaqi, milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında uşaq təşkilatı da yaxından iştirak edir. Birliyin sədri Z.Əliyeva təşkilatın işini özünüidarə orqanlarının, uşaq və yeniyetmələrin özfəaliyyəti, təşəbbüskarlığı, əməkdaşlığı, prinsiplərindən çıxış edərək qurur. Təşəbbüslərə yaradıcı yanaşır, yeniyetmələrin qabiliyyət və bacarığını aşkara çıxarmaq üçün onlara imkan yaradır, asudə vaxtlarının səmərəli və maraqlı keçməsini təmin edir. Ona etibar olunan uşaqların sağlamlığının və təhlükəsizliyinin qayğısına

qalır. Z.Əliyeva "Şagird parlamenti"nin fəaliyyətinin təşkilində də yaxından iştirak edir.

Məktəb kitabxanası müəllimlərin peşə-ixtisas və ümumi mədəni səviyyəsinin yüksəldiməsi, müəllim və şagirdlərin mütaliə mədəniyyətinin formalaşmasında əvvəlki kimi metodik mərkəz rolunu davam etdirir. 01.01.2022-ci il tarixi vəziyyətinə burada toplanmış və ümumi dəyəri 9898 manat olan müxtəlif ədəbiyyatın 7621 manatını dərslik, 1799 manatını metodik, 478 manatını isə bədii ədəbiyyat təşkil edir. Müəllim və şagirdlər dərslik və metodik ədəbiyyatlarla tam təmin olunmuşlar.

Kitabxanaçı H.Ağayeva şagirdlərin mütaliə mədəniyyətinin formalaşdırılması, onların sinifdənxaric oxularının təşkili, kitab təbliği, müəllimlərin elmi-metodiki ədəbiyyatlarla təminatı və mədəni-kütləvi tədbirlərin, o cümlədən ümumməktəb tədbirlərinin hazırlanıb keçirilməsində yaxından iştirak edir.

Vaxtaşırı məktəbin əldə etdiyi uğurlar, qazanılmış iş təcrübələri, ayrı-ayrı müəllimlərin maraqlı iş təcrübəsi və nailiyyətləri, keçirilmiş təşkilati-pedaqoji tədbirlər haqqında "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Azərbaycan müəllimi","Təhsil", "Maarifçi", "İncəsənət", "Üç nöqtə", "Mingəçevir işıqları", "Qəbələ", "Savalan", "Oğuz yurdu" (keçmiş "Varlı həyat" və "Lenin bayrağı") qəzetlərində; "Azərbaycan məktəbi", "Təhsil", "Kurikulum", "Azərbaycan dili və ədəbiyyatı" jurnallarında və digər mətbuat orqanlarında çoxlu yazılar dərc olunmuşdur.








**23 aprel Ümumdünya kitab günü münasibəti ilə keçirilmiş tədbir**



Müəllim Ə.İsmayılovanın keçirdiyi "Biologiya gecəsi"ndən bir an




"Coğrafiya gecəs"i. Müəllimlər: A.İsayeva və M.Əliyeva



**Oğuz RPŞ-si ilə keçirilmiş “Narkomaniyaya yox deyək!” adlı tədbirdən**



**Rəsm müsabiqəsi qaliblərinin mükafatlandırılması**




**Qarabağ müharibəsinin iştirakçıları ilə görüş**



**Oğuz şəhərindəki Şəhidlər xiyabanının ziyarət olunması. noyabr 2022**




**XTQ-in mayoru, qazi P.Rzayevlə keçirilmiş görüşdən. noyabr 2021-ci il**




**Şəhid və veteran məzunların şərəfinə hazırlanmış "Xatirə guşəsi"**




Yaqublu kənd tam orta məktəbinin ilk buraxılışı. 1972-1973-cü dərs ili




**Veteran müəllimlərin "Xatirə lövhəsi"**



**AR-nın Təhsil naziri, akademik M.Mərdanov məktəbdə. 2003**




Məktəbin IX sinif şagirdləri. 01.X.2017-ci il



Ümumməktəb valideyn yığıncağı - dekabr 2022-ci il




**Müəllim kollektivinin Gəncə gəzintisi . 2016-cı il**



**Pedaqoji kollektivin Göygöl səfəri. 2018-ci il**



Kollektivin Qax-Zaqatala səfəri.



Əmək kollektivinin Qəbələ-İsmayıllı səfəri. 2021-ci il

- Psixoloji xidmət işlərinin təşkili.

Əldə edilmiş uğurlarda müəllimlərə, şagirdlərə və valideynlərə göstərilən psixoloji xidmətin də böyük rolu olmuşdur.

Məktəbdə psixoloji xidmətin təşkili işləri 2001-ci ildən başlamışdır. Məktəbin ilk psixoloqu Abbasov Saat Vahid oğlu olmuşdur.

2011-ci ildən bu işlər Leyla Sadıqova tərəfindən aparılır. Ötən dövrdə L.Sadıqova şagirdlərin təlim və tərbiyəsi sahəsindəki çətinlikləri, onların şəxsi və intellektual inkişafındakı qüsurları aradan qaldırmaq, bununla da təlim-tərbiyə sahəsində məktəbdə aparılan işin səmərəliliyini yüksəltmək, sosial cəhətdən fəal, əxlaqi keyfiyyətlərə sahib, yüksək ideya inamına malik şəxsiyyətin formalaşdırılmasında pedaqoji kollektivə köməklik sahəsində xeyli iş görə bilmişdür.

Psixoloq tərəfindən müəllim və şagirdlər arasında psixoloji dayanıqlığın təmin olunması üçün psixoprofilaktiki işlərə xüsusi önəm verilmişdir. Təlim prosesində uşaqların psixi inkişafında baş verə biləcək qüsurların qarşısının alınması üçün müntəzəm müşahidə və nəzarət işləri təşkil edilmişdir. Bu zaman əsas diqqət həmin qüsurları doğuran səbəblərin aşkar edilməsinə və aradan qaldırılması üçün üsul və vasitələrin müəyyənləşdirilməsinə yönəldilmişdir.

Psixoprofilaktiki işlərlə yanaşı, konsiltativ işlər də L.Sadıqovanın fəaliyyətlərinin əsasını təşkil etmişdir. Bu işlərin təşkilində əsas məqsəd bu və ya digər çətinliklərin mahiyyətini açmaq və onları aradan qaldırmaq üçün müvafiq psixoloji yollar göstərməkdən ibarət olmuşdur. Aşağıdakı hallarda məsləhətlər daha çox verilmişdir: şagirdlərin tədris materiallarını mənimsəmələrindəki çətinliklər, oxumaq həvəsinin olmaması və oxuya bilməmələri ilə bağlı, mutizm, bullinq və mobbing halları müşahidə ediləndə, müəllimlə sinif arasında münasibətlərdə anlaşılmazlıq olanda, şagirdlərin peşəyönümü, peşəseçmələrinə istiqamət verməklə bağlı və s.

Psixoloq L.Sadıqovanın fəaliyyətiində əsas yerlərdən birini də diaqnostik işlər tutur. Belə işlərin əsas üstün cəhətləri ondan ibarətdir ki, psixoloqun köməyi ilə şagirdlərin həm psixoloji, həm əqli, həm də şəxsi imkanları aşkara çıxarılır. Belə ki, ötən dövr ərzində bu məqsədlə şagirdlərlə keçirilmiş "Depressiyanın səviyyəsini müəyyən etmək" və "Məktəb şagirdlərin gözü ilə", "Şagirdlərin psixoloji durumu", "Xarakterlərin analizi", "Problemlərinizi həll etməyə qadirsinizmi?", "Peşəseçmə üçün anket sorğusu; müəllimlərlə keçirilmiş "Əsəb və həyəcanın ölçülməsi", "Sosial səviyyənin ölçülməsi", "Depressiya səviyyəsi"; valideynlərlə "Aqressiv uçaqlarla necə davranmalı" və digər çoxsaylı psixoloji test sorğuları keçirilmişdir.

Müntəzəm şəkildə L.Sadıqova tərəfindən ayrı-ayrı fənlər üzrə şagirdlərin mənimsəyə bilməmələrinin səbəblərini aşkara çıxarmaq, şagird intizamsızlıqlarının psixoloji səbəblərinin daqnostikası, şagirdlərin əqli inkişafının, şəxsiyyətinin və emosional-iradi xüsusiyyətlərinin diaqnostikası, şagirdlərin sinif yoldaşları ilə qarşılıqlı münasibətlərinin pozulmasının (sinifdə şəxsiyyətlərarası münasibətlərin pozulmasının səbəbləri) diaqnostikası, şagird – müəllim, sinif – müəllim, müəllim - valideyn münasibətlərinin pozulmasının psixoloji səbəblərinin diaqnostikası, uşaqların məktəbə hazırlığının psixoloji diaqnostikası, şagirdlərin ibtidai təhsil pilləsindən ümumi orta təhsil pilləsinə, oradan tam orta təhsil pilləsinə və yeniyetməlik dövründən ilk gəncliyə keçməyə hazır olmalarının psixoloji diaqnostikası ilə əlaqədar ardıcıl işlər aparılmış, müəllim, sinif rəhbərləri, məktəb rəhbərləri və valideynlərə psixoloji məsləhət və tövsiyələr verilmişdir. Pedaqoji-psixoloji xarakteristikalar hazırlanmasında sinif rəhbərlərinə tövsiyələr vermək üçün bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Risk qrupuna daxil olan və ya olma ehtimalı olan şagirdlərin müəyyən edilməsi, psixoloji bərpa planına uyğun şəkildə onlarla iş qurmaq, uğursuz ailələrdən və məcburi qaçqın ailələrindən olan şagirdlərlə və onların valideynləri ilə məşğul olmaq, psixoloji xəritələr hazırlamaq, məktəb rəhbərliyi və müəllimlərin

sifarişlərinin icrası psixoloq L.Sadıqovanın gündəlik işlərindəndir.

- COVİD-19 pandemiyası dövründə təlim-tərbiyə işlərinin təşkili.

Dünyanı cənginə almış koronavurus (COVİD-19) pandemiyası ilə əlaqədar bütün təhsil müəssisələrində olduğu kimi Yaqublu məktəbində də 2020-ci ilin mart ayının 3-dən idarəetmə, tədris və tərbiyə işləri onlayn platforma üzərindən həyata keçirilməyə başlanmışdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 mart 2020-ci il tarixli 01/411 saylı məktubuna uyğun olaraq məktəbin əmək kollektivinin bütün üzvləri mart ayının 29-dan növbədənkənar məzuniyyətə göndərilmişdi.

Müəllimlər tədris işlərini skype, WhatsApp qrupları, "Zomm" proqramı, "Microsoft Teams" platformaları üzərindən davam etdirməli olmuşdular. İlin sonuna kimi onlayn qaydada minlərlə dərs keçilmiş, dərs materialları paylanmış və tapşırıqlar verilmişdir.

Bu işlərdə Ş.Məmmədli, A.Allahverdiyeva, N.Süleymanova, S.Mustafayeva, A.İsayeva, X.Heydərova, S.Möylamova, A.Atakişiyeva, S.Heydərova, B.Qasımova, İ.Vahabova, P.Əhmədova, Y.Mənəfova, V.Qurbanova, G.Qasımova və digər müəllimlər daha çox fərqlənmişlər.

Müəllimlər, xüsusən sinif rəhbərləri tərəfindən uşaqların "Mədəniyyət" və "ARB Günəş" kanallarında

“Dərs vaxtı” verilişlərini (teledərsləri) izləməsi üçün ardıcıl təşkilati işlər aparılmışdır. Qısa müddətdə valideynlərin WhatsApp qrupları yaradılmış, onlarla müntəzəm telefon əlaqəsi təmin olunmuş, valideynlər uşaqların teledərsləri izləmələrinə nəzarət etməyə səfərbər olunmuşlar.

IX və XI siniflərdə buraxılış və qəbul imtahanları ilə əlaqədar məsafədən bir sıra tədbirlər həyata keçirilmişdir. Sinf rəhbərləri V.Qurbanova və İ.Vahabova tərəfindən IX və XI sinif şagirdləri ilə karantin qaydalarının şərtləri ciddi şəkildə gözlənilməklə fərdi görüşlər keçirilmişdir. Şagirdlərə imtahanların forması, proqramlardan çıxarılmış mövzular barədə məlumat verilmiş, onların WhatsApp ünvanlarına karantin şəraiti ilə əlaqədar imtahanların necə keçiriləcəyi (gözləmə, daxilolma, yoxlanma və s.) barədə videoçarxların linkləri göndərilmişdir. IX və XI sinif şagirdləri ilə həmçinin onlayn sınaq imtahanları təşkil olunmuşdur. Uşaqların DİM-in www.otk.az internet səhifəsində təşkil olunan pulsuz sınaq imtahanlarında iştirakları, əsasən, təmin olunmuşdur.

Məktəbin psixoloqu L.Sadıqova, UB rəhbəri Z.Əliyeva, kitabxanaçı H.Ağayeva və tərbiyə işləri üzrə direktor müavini R.Muğumova koronavurus (COVİD-19) pandemiyası dövründə evdə qalan şagirdlərin və onların valideynlərinin pedaqoji-psixoloji dəstəyə ehtiyacının zəruriliyini nəzərə alaraq şagird və valideynlərlə fərdi görüşlər keçirmiş, psixoloji maarifləndirmə,

konsultasiyalar və psixoprofilaktik işlər aparmış, bəzi şagirdlər üçün psixokorreksiya işləri təşkil etmişlər.

Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar karantin dövründə şagirdlərlə aparılan tərbiyə işləri də diqqətdən kənarda qalmamışdır. Onlarla xeyli sayda onlayn tərbiyəvi tədbirlər təşkil edilmişdir.

Pandemiya ilə əlaqədar karantin dövründə dil-ədəbiyyat müəllimləri V.Qurbanova, A.F.Atakişiyeva, A.M.Atakişiyeva və kitabxanaçı H.Ağayevanın təşkilatçılığı ilə "Evdə qal, mütaliə et, sağlam ol" devizi ilə "Mütaliə aylığı" və müsabiqə keçirilmişdir. Müsabiqə qalibləri onlayn səsvermə ilə müəyyən olunmuş, onların mükafatlandırılması həyata keçirilmişdir.

Aprel döyüşlərində şəhid olan qəhrəmanlarımızın xatirəsinə həsr olunmuş "Şəhidlər ölməz, Vətən bölünməz" adlı onlayn tədbir də yüksək səviyyədə keçmişdir. Tədbirdə şagirdlər yüksək fəallıq nümayiş etdirmişdilər.

Ümummilli liderimiz H.Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar şeir və rəsm müsabiqələri təşkil olunmuşdur. Şagirdlər arasında onlayn "Ən yaxşı təqdimat" müsabiqəsinin məktəb turu keçirilmiş, XI sinif şagirdi R.Hüseynova bu müsabiqənin rayon turunda uğurla çıxış etmişdir.

Şagirdlərimiz Oğuz RTŞ-nin "Evdə qal, evdə yarat" devizi ilə keçirdiyi onlayn hekayə və rəsm müsabiqələrinə də həvəslə qoşulmuş və uğurla iştirak etmişlər.

Uşaqlar müəllim Ş.Məmmədlinin rəhbərliyi ilə Türkiyədə təşkil olunan “e Twinning” layihəsi olan “Harten öte kadın” layihəsində onlayn qaydada uğurla iştirak etmiş, onlardan iki nəfərin şeirləri Türkiyədə çap olunmuş kitaba daxil edilmişdir.

28 May Respublika Günü münasibəti “Səni tərənnüm edirəm, Azərbaycan” devizi ilə onlayn şeir müsabiqəsi də maraqlı olmuş, uşaqların köməyi ilə animasiya filmi hazırlanmış və virtual sərgi keçirilmişdir.

Həmçinin Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş əl işlərinin onlayın sərgisi keçirilmiş və video çarxlar hazırlanmışdır.

2020/2021-ci dərs ili başlayandan dərslərə I-IV sinif şagirdləri həm ənənəvi, həm də distant; V-IX sinif şagirləri 01 oktyabra kimi, X-XI sinif şagirdləri isə 15 oktyabra kimi ancaq distant formada qoşulmuşlar.

V-IX sinif şagirdləri 01 oktyabrdan, X-XI sinif şagirdləri isə 15 oktyabrdan həm ənənəvi, həm də distant formada dərslərə davam etmişlər.

Onu da qeyd edək ki, karonavirus (COVİD-19) pandemiyasının təhlükəli hal alması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublkasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə” 29.X.2020-ci il tarixli 430 saylı Qərarına və Oğuz RTŞ-nın 30.X.2020-ci il tarixli 506 saylı əmrinə əsasən

02.XI.2020-ci il tarixdən məktəbdə təlim-tərbiyə prosesi yenidən ancaq distant (məsafədən) formada təşkil olunmağa başlanmışdır. Bütün idarəetmə və nəzarət işləri də ancaq onlayn platformalar üzərindən həyata keçirilmişdir.

Müəllimlər "Microsoft Teams" və digər platformalar (skype, WhatsApp qrupları, "Zomm" və s.) üzərindən tədrisi davam etdirmişlər. Bütün müəllimlərin 100 %-i, bütün şagirdlərin 78,3 %-i) "Microsoft Teams" platformasında qeydiyyatdan keçmişlər.

Bununla yanaşı, müəllimlər, xüsusən sinif rəhbərləri tərəfindən uşaqların "Mədəniyyət" və "ARB Günəş" kanallarında "Dərs vaxtı" verilişlərini (teledərsləri) izləməsi üçün də ardıcıl təşkilati işlər aparılmışdır. Bu günlərdə şagirdlərin distant dərslərə qoşulması və teledərsləri izləmələri üçün valideynlərin güc və imkanlarını səfərbər etmək məqsədi ilə müəllim və sinif rəhbərləri tərəfindən onlarla tez-tez onlayn görüş və söhbətlər keçirilmişdir.

İl ərzində "Microsoft Teams" və digər platformalar (skype, WhatsApp qrupları, "Zomm" və s.) üzərindən yenə də onlayn qaydada minlərlə dərs keçilmiş, dərs materialı paylanmış və tapşırıqlar verilmişdir. Xeyli sayda video-dərslər hazırlanaraq şagirdlərə göndərilmişdir. "Şərqdə ilk opera", "Albaniya" (Ş.Məmmədli), "Felin qrammatik məna növləri", "Qoşma" və "Təşbeh və metafora" (İ.Verdiyev), "İ.Əfəndiyevin həyat və

yaradıcılığı” (A.F.Atakişiyeva), “Enviroment” (A.Allahverdiyeva), “Elektrik sahəsinin intensivliyi” və “Elektrik qarşılıqlı təsiri” (N.Süleymanova), “Şəkilli mətnlər (R.Bayramov),“Benzol sırası karbohidrogenlərin kimyəvi xassələri” (İ.Vahabova), "Deutsche Autos" (S.Möylamova) “Fövqəladə hal zamanı nələri bilmək lazımdır” (G.Qasımova), “Peşələr necə yaranıb” (S.Heydərova) mövzusunda və onlarla digər mövzularda hazırlanmış video-dərsləri bunlara misal göstərmək olar.

Bu işdə müəllimlərdən Ş.Məmmədli, İ.Vahabova, N.Süleymanova, X.Heydərova, A.İsayeva, S.Möylamova, G.Qasımova, N.Həsənov, A.Atakişiyeva, S.Heydərova, B.Qasımova, P.Əhmədova, S.Mustafayeva, V.Qurbanova və digərləri daha çox fərqlənmişlər.

2020-2021-ci dərs ilində də kronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar karantin dövründə şagirdlərlə aparılan tərbiyə işləri diqqətdən kənarda qalmamışdır. Onlarla ilin sonuna kimi bir sıra onlayn tərbiyəvi tədbirlər təşkil edilmişdir.

Pandemiya ilə əlaqədar karantin dövründə dil-ədəbiyyat müəllimləri V.Qurbanova, A.F.Atakişiyeva və A.M.Atakişiyevanın yaxından köməkliyi ilə şagirdlər “Əsgərə məktub” aksiyasında fəal iştirak etmişlər.

Məktəbin əmək kollektivinin üzvlərinə və şagirdlərə onlayn müraciət nəticəsində (könüllülük əsasında) Silahlı Qüvvələrə Yardım Fonduna 700 manatdan çox vəsait köçürülmüşdür. Bundan başqa məktəbin əmək

kollektivinin və şagirdlərin təşəbbüsü ilə cəbhədə döyüşən əsgərlərimizə 180 cütdən çox əlcək və corab, isti paltar, təmizlik vasitələri, xeyli miqdarda təzə ərzaq məhsullarıgöndərilmişdir.

Oğuz RTŞ-nin 16.XI.2020-ci il tarixli 84 saylı əmrinə uyğun olaraq istisnasız bütün siniflərdə "Azərbaycan xalqının tarixi qələbəsi" mövzusunda onlayn dərslər keçirilmişdir. Həmin dərslərdə xalqımızın tarixi qələbəsi, ordumuzun şücaəti, Ali Baş Komandanın fəaliyyəti, şəhidlər, o cümlədən Oğuz şəhidləri və onların qəhrəmanlıqları barədə ətraflı məlumatlar verilmişdir.

Şagirdlərin fəal iştirakı ilə "Qarabağ Azərbaycandır" devizi ilə onlayn şeir və rəsm müsabiqələri keçirilmişdir.

Uşaqlar yenə də müəllim Ş.Məmmədlinin rəhbərliyi ilə Türkiyədə təşkil olunan "e Twinning" layihələrində onlayn qaydada uğurla iştirak etmişlər.

Çoxsaylı onlayn tərbiyəvi tədbirlərin təşklində sinif müəllimləri G.Qasımova, S.Heydərova, X.Heydərova, B.Qasımova, tarix müəllimi Ş.Məmmədli, təsviri incəsənət və texnologiya müəllimi P.Əhmədova, dil-ədəbiyyat müəllimləri V.Qurbanova, A.F.Atakişiyeva və A.M.Atakişiyeva, kimya müəllimi İ.Vahabova, alman dili müəllimləri S.Mustafayeva, S.Möylamova və digərləri daha çox fəallıq göstərmişlər.

Qeyd edilidyi kimi karantin dövründə nəzarət və idarəetmə ilə əlaqədar bütün işlər onlayn platforma üzərindən təşkil olunmuşdur. Bunun üçün "Microsoft

Teams" platforması, "Zomm" proqramı, skype platforması, müəllimlərin WhatsApp qrupunun imkanlarından səmərəli istifadə olunmasına səy göstərilmiş, icrası tələb olunan bütün normativ sənədlər, tapşırıq və göstərişlər barədə buradan məlumat verilmişdir. Pedaqoji şuralar və müşavirələr distant qaydada keçirilmişdir.

Bunlarla yanaşı, distant dərslərin təşkili, şagrdlərin bu dərslərə qoşulmasında bir sıra nöqsanlar da olmuşdur.İnternetin normal verilməməsi, telefon və İKT vasitələrinin çatışmazlığı və s. şagirdlərin distant dərslərdə iştirakına ciddi maneçilik törətmişdir.

Karantin dövründə əsas məsələlərdən biri də şagirdlərin və əmək kollektivi üzvlərinin sağlamlıqlarının qorunması olmuşdur. Məktəbdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05.02.2020-ci il tarixli F-75 saylı əmri ilə təsdiq edilmiş Tədbirlər Planına və Oğuz RTŞ-nin 07.02.2020-ci il tarixli 66 saylı məktubuna uyğun olaraq dünyanı cənginə alan Korona virusu, həmçinin digər yoluxucu xəstəliklər barədə 2020-ci ilin fevral ayında maarifləndirici tədbir keçirilmişdir.

Tədbirdən əvvəl Yaqublu kənd tibb məntəqəsinin tibb bacısı Aytən Sadıqova, Zərrab kənd tibb məntəqəsinin tibb bacısı Ayna Manaflı siniflərdə tibbi müşahidə və müayinələr aparmış, şagirdlərə müvafiq tövsiyələr vermişlər.

Akt zalında keçirilən tədbirdə tibb bacıları Aytən Sadıqova və Ayna Manaflı, məktəbin biologiya müəllimi Əmanət İsmayılova, o cümlədən çıxış edən müəllimlər Sərxan Əhmədov, Mehriban Əliyeva və Pərvanə Əhmədova tərəfindən Korona virusu, onun əsas əlamətləri, ölkəmizdə bu virusla mübarizə üçün həyata keçirilən tədbirlər, həmçinin digər yoluxucu xəstəliklər barədə geniş məlumatlar verilmişdir.

Tibb işçiləri yoluxucu xəstəliklərdən qorunmaq üçün öz tövsiyələrini də çatdırmış, müəllim və şagirdlərin suallarını cavablandırmışdılar.

Sonda korona virusu, həmçinin digər yoluxucu xəstəliklər, onlardan qorunmağın yolları və üsullarından bəhs edən video-çarx nümayiş etdirilmişdi. Belə tədbirlər il ərzində onlayn şəkildə davam etdirilmişdi.

Novbəti belə bir tədbir 13 yanvar 2022-ci il tarixdə keçirilmişdi. Oğuz RTŞ-nin 13 yanvar 2022-ci il tarixli 00-01-27/23 saylı məktubuna uyğun olaraq uşaqların və yeniyetmələrin sağlamlığının mühafizəsinə həsr olunmuş seminar-müşavirədən əvvəl əvvəl tibb işçiləri sinif otaqlarında olaraq vəziyyətlə - sinif otaqlarının quruluşu, dizaynı, mebellərin forması və ölçüləri, onların yerləşdirilməsi, otaqların tərtibatı, havalandırılması və işıqlanması normativləri, şagirdlərin səhhəti ilə maraqlandılar.

Müşavirədə tibb işçiləri A.Sadıqova və K.Muğumova, müəllimlər Ə.İsmayılova, İ.Vahabova, X.Heydərova,

P.Əhmədova, B.Qasımova, V.Qurbanova və digərləri tərəfindən şagirdlərə müntəzəm olaraq sağlamlığı qorumaq, ziyanlı vərdişlərə meyl etməmək, yoluxucu xəstəliklər və bu xəstəliklərdən qorunma yolları (xüsusən COVİD-19 pandemiyası dövründə), düzgün qidalanma haqqında geniş məlumatlar, tövsiyələr verilmiş və onların sualları cavablandırılmışdır.

- Xalqımızın II Qarabağ müharibəsindəki tarixi qələbəsinin tədrisdə əks etdirilməsi

44 günlük Vətən müharibəsi dövründə müəllimlərin əsas vəzifəsi ölkəmizin işğal altında olan ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi möhtəşəm Qələbənin təbliğinin və təşviqinin aparılması, müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsi barədə maarifləndirici tədbirlərin görülməsi olmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16.XI.2020-ci il tarixli F-512 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks etdirilməsi haqqında" Fəaliyyət Planından irəli gələn vəzifələrin və həmin vəzifələrin icrasının təmin edilməsi barədə Oğuz RTŞ-nin 16.XI.2020-ci il tarixli 84 saylı əmrinin icrası diqqət mərkəzində olmuşdur. Tədris prosesində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə Azərbaycan dövlətini şanlı qələbəyə aparan daxili və xarici siyasəti

barədə ətraflı məlumatlar verilmiş, Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü ilə bağlı məlumatların bütün fənlərin məzmununa uyğun şəkildə inteqrasiyası təmin olunmuşdur.

Müəllimlərimiz bütün siniflərdə Vətən müharibəsinə, Azərbaycan Ordusunun şanlı qələbəsinə həsr edilmiş "Azərbaycan xalqının tarixi qələbəsi" mövzusunda onlayn dərslər keçmişlər. Dərslərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Vətən müharibəsi dövründəki fəaliyyəti və Azərbaycan xalqının və Ordusunun dünya hərb tarixində açdığı yeni səhifə, qəhrəman döyüşçülərimiz və şəhidlərimiz, o cümlədən Oğuz şəhidləri ilə bağlı geniş məlumatlar verilmişdir.

Qarabağ uğrunda döyüşlərdə iştirak edərək torpaqlarımızın işğaldan azad edilməsində qəhrəmanlıqlar göstərmiş məzunlarımızı daha yaxından tanıtmaq, onların döyüş ruhunu mərdlik və cəsurluq nümunəsinə çevirmək, şagirdlərin ordu sıralarında xidmətə mənəvi-psixoloji cəhətdən tam hazırlanmasını təmin etmək üçün şagirdlərin köməyi ilə "Tarix yazan məzunlarımız" və "Məktəbimizin zabit məzunları" adlı video-çarxlar hazırlanmışdır. Həmin video-çarxlar "YouTube" kanalına, müəllim, valideyn və şagirdlərin vatçapp qruplarına qoyulmuşdur. Bundan başqa Vətən müharibəsinin iştirakçısı olmuş əsgər və zabit məzunlarımız haqqında "Vətənin qəhrəman oğulları" mövzusunda şagird təqdimatları hazırlanmışdır.

Şagirdlər arasında şanlı Ordumuzun zəfər yürüşünü tərənnüm edən şeir və mahnıların müsabiqəsi təşkil olunmuşdur. Müsabiqə şagird və valideynlər tərəfindən maraqla qarşılanmışdır. Müsabiqə qalibləri qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Şagirdlərimiz həmçinin onlayn şəkildə keçirilən "Qayıdış" rəsm müsabiqəsinə də qoşulmuşlar. Şagirdlərin müsabiqəyə onlayn qaydada təqdim etdikləri rəsmlərdə əsgər və zabitlərimizin qəhrəmanlıqları, Qarabağ və işğaldan azad olmuş digər bölgələrin kənd və şəhərləri, təbiəti, tarixi-mədəni abidələri, dini ibadətgahları sevgi və məhəbbətlə təsvir edilmişdir.

Azərbaycan xalqının tarixi qələbəsi, xalqımızın yekdilliyi, ordumuzun şücaəti, Ali Baş Komandan İ.Əliyevin fəaliyyəti, şəhidlər, o cümlədən Oğuz şəhidləri və onların qəhrəmanlıqları haqqında ətraflı məlumatlar toplamaq, xalqımızın qəhrəmanlıq ruhunu tərənnüm etmək üçün "Qarabağ Azərbaycandır!" mövzusunda keçirilmiş online inşa müsabiqəsi də maraqla qarşılanmışdır. Müsaqbiqədə 55 nəfərdən çox şagird iştirak etmişdir. Qaliblər diplom və fəxri-fərmanlarla təltif olunmuşlar.

Bundan başqa alman və ingilis dillərində "Karabakh is Azerbaijan!" adlı video-çarxlar hazırlanmışdır. Bu video-çarxlarda şagirdlərin Qarabağ haqqında söylədikləri şeirlər, Qarabağın məşhur şəxsiyyətləri, müharibə

qəhrəmanları, o cümlədən şəhidlər haqqında məlumatlar yer almışdır.

Şagirdlərin  Qarabağın tarixi və coğrafiyası, flora və faunası, mədəni abidələri, dini ibadətgahları, adət-ənənələri, şifahi xalq yaradıcılığı, tanınmış şəxsiyyətləri və s. barədə daha ətraflı məlumatlandırılmasını təşkil etmək məqsədi ilə gənc tarix müəllimi Ş.Məmmdəlinin təşkilatçılığı ilə “Qarabağ, yurdum mənim” və “Qarabağın məşhur şəxsiyyətləri” mövzusunda kahoot formasında hazırlanmış suallar əsasında onlayn “Bilik yarışı” keçirilmişdi.

- Məktəbin məzunları

1938-ci ilə kimi məktəbin ibtidai pilləsini, 1955-ci ilə kimi natamam orta pilləsini qurtaran məzunların sayı barədə əlimizdə konkret rəqəmlər yoxdur. Əhalinin say dinamikasının təhlili nəticəsində belə qənaətə gəlirik ki, 1938-ci ildən 1945-ci ilədək məktəbin ibtidai pilləsini təxminən 95 nəfər, 1945-ci ildən 1955-ci ilədək natamam orta pilləsini isə təxminən 155 nəfərdən çox  şagird bitirmişdir.Dəqiq məlumatalara görə 1955-1971-ci illərdə natamam məktəbi 245, orta məktəbi isə son 30 ildə 1027 nəfər şagird bitirmişdir.

Beləliklə, məktəb açılandan sonra buranı təxminən 1520 nəfərdən çox şagird bitirmişdir. Onların əksəriyyəti Oğuz rayonunun Yaqublu, Yenikənd, Top və Zərrab

kəndlərinin sakinləri olmuşlar. Az sayda olsa da, məzunların sırasında Respublikamızın başqa rayonlarının, o cümlədən işğal olmuş rayonların sakinləri də vardır.

Məktəbin məzunlarının, demək olar ki, hamısı həyatda öz layiqli yerini tutmuş, xalqına, Vətəninə, elinə-obasına faydalı adamlar olmuşlar.

Onlardan Azərbaycan televiziya və radiosunun bölgə müxbiri işləmiş, yazıçı-jurnalist, Jurnalistlər İttifaqı və Yazıçılar Birliyinin üzvü Pənah Əkbər oğlu Qurbanov; aktyor-rejissor Şəki Dövlət Teatrının ədəbi hissə müdiri işləmiş Əli Kərim oğlu Əliyev; yazıçı-rəssam, Azərbaycan Jurnalistlər və Rəssamlar İttifaqlarının, Yazıçılar Birliyinin üzvü, Mədəniyyət və İncəsənət İnstitutunun müəllimi, "İncəsənət" qəzetinin redaktoru olmuş Əşrəf Məmmədvəli oğlu İbrahimov; lent yazıları Azərbaycan radiosunun qızıl fondunda saxlanan klarnet və zurna ifaçısı Abbas Ələkbər oğlu Nağıyev; tanınmış mədəni-maarif işçisi Əvəz Rəhim oğlu Kazımov; uzun illər kənddəki Azərbaycan kolxozunun sədri olmuş, "Oktyabr inqilabı" ordenli Abduləli Hətəm oğlu İsmayılov; İxtiraçılar və Səmərəliləşdiricilər Cəmiyyətinin üzvü Novruz Davud oğlu İsayev; bir müddət Oğuz Rayon İcra Hakimiyyətinin başçısı olmuş Vaqif Qədir oğlu Davudov; Oğuz Rayon KTİ-də baş zootexnik, kənddəki kolxozda sədr işləmiş Tacəddin Qasım oğlu Əliyev; Oğuz şəhərindəki E.Abdullayev adına tam orta məktəbin direktoru olmuş Yaqub Məmmədəli oğlu Əliyev; Bakıda "Azərneftlayihə"

Tikinti Birliyində baş (təftişçi) mühasib işləmiş İlyas Abdulla oğlu Kərimov; sambo üzrə keçmiş SSRİ çempionu və SSRİ idman ustası, ümumittifaq dərəcəli hakim, ADBTİA-nın müəllimi olmuş, bir müddət Oğuz Rayon İdman Komitəsinin sədri işləmiş, I Qarabağ şəhidi Tofiq Qafar oğlu Rzayev (Tofiq Oğuz); uzun illər məktəbdə müəllim və direktor müavini, sonralar N.Süleymanov adına Zərrab kənd tam orta məktəbində direktor işləmiş Akif  Qədir oğlu Davudov; Bakı şəhərindəki 66 saylı məktəbin tanınmış müəllimi Əli Məmməd oğlu Verdiyev; uzun illər Yaqublu kənd XDS İK-nin sədri olmuş Narın Məmmədəli qızı İsayeva; 24 il Yaqublu kənd orta məktəbinin direktoru olmuş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri-fərmanı" və "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuş Heydər Əkbər oğlu Qurbanov; uzun illər təsərrüfatlarda sədr, sədr müavini və aqronom vəzifərində işləmiş İsayev Əbülqasım Məmməd oğlu; "Qırmızı Əmək Bayrağı" ordenli tütünçü Əsmayə Əhməd qızı Abdullayeva; kəndin tanınmış maarifçilərindən olmuş İsayev Süleyman Davud oğlu; "Tibb əlaçısı" və "Qabaqcıl səhiyyə işçisi" döş nişanı ilə təltif olunmuş, uzun illər əhalinin sağlamlığının keşiyində durmuş İsrəfil Rza oğlu Sadıqov; ömrünün 40 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş ibtidai sinif müəllimləri Muxtarov Mürsəl Şirzad oğlu, Maya Kərim qızı Əliyeva; kənddə ilk sənaye müəssisəsinin–üzümün ilkin emalı zavodunun tikilib başa

gəlməsində böyük əməyi olan Nuru Kəmaləddin oğlu Rəşidov; Oğuz şəhər Bələdiyyəsinin sədr müavini işləyən Arif Kərim oğlu Əliyev; Oğuz rayonunun qabaqcıl rabitə işçilərindən Fatma Hətəm qızı İsmayılova; əmək veteranlarından Allahverdi Həsən oğlu Verdiyev, Saməddin Kərim oğlu Kazımov, Əliyeva Pakizər Kərim qızı, qəhrəman ana Şaman Kərim qızı Həsənova, İsayev Məmmədəli Mehdi oğlu, Xudaverdi Həsən oğlu Verdiyev və onlarla digərlərinin adlarını fəxrlə çəkmək olar.

Onu da qeyd etməyi vacib sayırıq ki, I Qarabağ müharibəsinin şəhidlərindən 1958-1960-cı illərdə məktəbə müdirlik etmiş İsmayıl Rəhimovun oğlu, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Korğolu İsmayıl oğlu Rəhimov da 1961/1962-ci dərs ilində-I sinifdə Yaqublu məktəbində oxumuşdur.

Düz deyiblər ki, ot kökü üstə bitər. 1973-cü ildən bu günə kimi Yaqublu kənd tam orta məktəbini bitirmiş 1000-dən çox məzun da əvvəlkilər kimi öz məktəblərinə şərəf və başucalığı gətirmişlər.

Məktəb öz məzunları ilə fəxr etməkdə tamamilə haqlıdır. Məzunlarımız ölkəmizin və rayonumuzun çiçəklənməsində, torpaqlarımızın yağı düşməndən müdafiə olunmasında, kəndin sosial-iqtisadi inkişafında, maarif və mədəniyyətin canlanmasında əsas qüvvəyə çevrilmiş, öz işləri və işgüzar fəaliyyətləri ilə məktəblərinə layiq olduqlarını sübut etmişlər. Bunlara I Qarabağ müharibəsinin iştirakçıları Tofiq Rzayev (T.Oğuz), Tale

Babayev, Nüsrət Süleymanov, Mirabbas Ağayev, Cumar Allahverdiyev, Ağəli Ağayev, İmran Beydullayev, Ayaz Əliyev, Əjdər Beydullayev, Araz Verdiyev, Mübariz Heydərov, Şiraslan İsayev, Kərim Kazımov, Şahin İsayev, Cəbrayıl Kazımov, Cəlil Mənəfov, Kamran Hətəmov, Turan Mənəfov, Zaur Nütvəliyev, Asəf Verdiyev, Rəsul Sübəyev, Zəki Əfəndiyev, Ayaz Səfərəliyev və digərlərini, II Qarabağ müharibəsinin iştirakçıları Polad Rzayev, Qafar Rzayev, İlyar Muğumov, Qabil İsayev, Asim İsmayılov, Eldar İsmayılov, Toğrul Kazımov, Ruzi Mehdiyev, Vüqar Mənəfov, Fərid İsayev, Zəfər Muğumov, Pərviz İsayev, Roman Mənəfov, Rəhim Rəhimli, Zülfü Rzayev, Vasif Beydullayev, Rüfət Muğumov, Calal Mənəfov, Üzeyir İsayev, Rauf Tağıyev, Əli Ellazov, Ramil Həsənov və başqalarını nümunə göstərmək olar.

Yuxarıda adları çəkilənlərdən P.Rzayev, A.Verdiyev, Q.Rzayev, M.Ağayev, V.Mənəfov, C.Mənəfov, Z.Rzayev və digərləri döyüş meydanlarında həm də Milli Ordumuzun zabitləri kimi vuruşmuşlar.

II Qarabağ müharibəsində iştirak etmiş bütün məzunlarımız ölkə Prezidentinin müvafiq sərəncamları ilə "Ağdamın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə","Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif olunmuşlar.

Bunlardan başqa, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamları ilə XTQ zabiti, mayor, qazi Polad Rzayev "Azərbaycan Bayrağı" ordeni (Prezidentin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə), baş leytenant Araz Verdiyev isə "Hərbi xidmətlərə görə" medalı (Prezidentin 04 aprel 1996-cı il tarixli sərəncamı) ilə təltif edilmişlər.

I Qarabağ müharibəsində məktəbin məzunlarından 4 nəfər – Tofiq Rzayev (T.Oğuz), Tale Babayev, Nüsrət Süleymanov və Cumar Allahverdiyev müqəddəs şəhdilik zirvəsinə ucalmışlar. Məzunlar sübut etmişlər ki, Vətən üçün, torpaq üçün, onun yağı düşmənlərdən müdafiəsi, qorunması üçün ölümə də hazırdırlar. T.Rzayev, T.Babayev, N.Süleymanov və C.Allahverdiyevin həyat və döyüş yolu bütün şagirdlər və gənclər üçün örnəkdir.

Müxtəlif illərdə məktəbimizin məzunları olmuş müqəddəs şəhidlərimiz haqqında qısa məlumatları təqdim edirik.

Rzayev Tofiq Qafar oğlu (T.Oğuz) 1945-ci ilin yanvar ayının 19-da Oğuz (keçmiş Vartaşen) rayonunun Yaqublu kəndində anadan olmuşdur. İlk təhsilini Yaqublu məktəbində almışdır. Orta təhsilini isə Padar kənd orta məktəbində başa vurmuşdur.

1962-ci ildə Sumqayıt Texnologiya Texnikumuna daxil olmuş və buranı uğurla başa vurmuşdur. 1963-cü ildə sambo üzrə Azərbaycan, 1965-ci ildə isə keçmiş SSRİ çempionu olmuşdur.1965–1968-ci illərdə Rusiyanın

Leninqrad (Sankt-Peterburq) şəhərində hərbi xidmət keçmişdir. Hərbi xidməti başa vurandan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir.

1972–1974-cü illərdə Moldaviyanın Kuybışev şəhərində Politexnik İnstitutunda idman müəllimi işləmişdir. Sambo üzrə SSRİ idman ustası idi.

1974-cü ildə Azərbaycana qayıtmış və Azərbaycan Dövlət Tibb İnstitutu, İnşaat Mühəndisləri İnstitutu və Sumqayıt Texnologiya İnstitutunda baş müəllim işləmişdir. Respublika və ümumittifaq dərəcəli hakim idi.

1987-ci ildə doğma kəndi Yaqubluya qayıtmışdır. Bir müddət buradakı Üzümün ilkin emalı zavodunda işləmişdir.

1989-cu ildə Oğuz Rayon İdman Komitəsinə sədr təyin olunmuşdur. Ümumiyyətlə, T. Rzayevin Yaqublu kəndində və Oğuz rayonunda idmanın inkişafında böyük əməyi vardır.

O, 1988-ci ildən başlayan milli azadlıq hərəkatının fəal üzvlərindən biri olmuşdur. Oğuz rayonunda isə həmin hərəkatın əsas liderlərindən idi.

Nankor ermənilərin təcavüzkar fəaliyyətlərinə biganə qala bilməyən T.Rzayev 1989-cu ildə Oğuzdan Qubadlı rayonunun sərhəd kəndlərinin müdafiəsinə yollanan könüllülər dəstəsinə rəhbərlik etmişdi.

20 Yanvar hadisələri zamanı əsl həqiqətləri "Azadlıq" radiosu ilə bütün dünyaya çatdıranlardan biri olmuşdur. Qırğından sonra baş verənlərə etiraz edərək Oğuz Rayon

İdman Komitəsinin sədri vəzifəsindən istefa vermiş və qalan həyatını torpaqlarımızın erməni işğalçılarından qorunmasına həsr etmişdir.

1991-ci ildə altmiş nəfər oğuzlu gənclə birlikdə Şuşa şəhərinin müdafiəsinə yollanmışdır. Orada könüllülər batalyonunun komandiri təyin olunmuşdur. 1992-ci ilin may ayının 3-də isə briqada komandiri E.Orucov tərəfindən briqadanın qərargah rəisi təyin edilmişdir.

T.Rzayev 7-8 may tarixlərində Şuşa şəhərində "Zapravka", "Kolxozstroy", "Qaraj" ətrafında gedən qanlı döyüşlərin ən cəsur iştirakçılarından olub.

Döyüşçü yoldaşlarının dediyinə görə, ağır yaralı olan Tofiq onların atəş altından çıxmasına kömək edərkən başından ağır yara alıbmış. Dostlarını təhlükədən xilas eləsə də, onların təklif və təkidlərinə baxmayaraq özü döyüş meydanını tərk etməmişdi.

Araşdırmalar və faktlar göstərir ki, o Şuşanın son döyüşçülərindən biri olub, axır nəfəsinə kimi vuruşmuşdur. Təəssüf ki, biz hələ də Tofiq Rzayevin son taleyi haqqında dəqiq heç nə bilmirik.

Amma T.Oğuzun ruhu rahatdır. Çünki oğulları Polad və Qafar, Yaqublunun digər igid oğlanları azğın düşməndən onun və bütün şəhidlərimizin qisasını alıblar.

Babayev Tale Bəyənulla oğlu 8 noyabr 1964-cü ildə Oğuz (Vartaşen) rayonunun Yaqublu kəndində anadan olmuşdu. Ağdərənin və Güllüdağın gül ətirli və saf havasını uda-uda, mayası halallıqdan yoğrulmuş bir ailədə böyümüşdü. Kiçik yaşlarından atasını itirmişdi.

Yaqublu kənd orta məktəbinin VIII sinfini bitirəndən sonra ehtiyac üzündən

təhsilini qiyabi formada davam etdirməklə "Azərbaycan" sovxozunda işə girmişdi. Bir neçə il heyvandarlıq sahəsində çalışmışdır.

1984–1986-cı illərdə Qazaxıstanın Semipalatinsk şəhərində həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurandan sonra isə bir neçə il Rusiyanın müxtəlif şəhərlərində yaşamış və işləmişdi.

1991-ci ildə doğma kəndi Yaqubluya qayıtmışdı. 1992-ci ilin mart ayında könüllü olaraq cəbhəyə yola düşmüşdü. Onların rotası Şuşa rayonunun Kosalar kəndini müdafiə edirdi.

1992-ci ilin mart ayının 29-da səhər tezdən rotaya düşmən hücumunu qabaqlamaq üçün hücuma keçmək əmri verildi. Müxtəlif istiqamətlərdən hücum başladı. Düşmənin bir neçə postu darmadağın edildi. Qanlı döyüş bir neçə saat çəkdi. Bu Talenin son döyüşü oldu. O, Vətən uğrunda öz canını qurban verdi. Allah dərgahına–şəhidlik zirvəsinə ucaldı.

Oğuz şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur. (T.Babayev həmin xiyabanda dəfn olunmuş ilk şəhiddir) Onun bu torpaqda uyumağa hamıdan çox haqqı vardır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 1993-cü il tarixli 606 saylı qərarı ilə T.Babayevin

adı təhsil aldığı Yaqublu kənd tam orta məktəbinə verilmişdir.

Məktəbdə şəhid T.Babayevin xatirəsinə ayrıca abidə düzəldilmiş və xüsusi guşə hazırlanmışdır.

Süleymanov Nüsrət Muradəli oğlu. 17 aprel 1971-ci ildə Oğuz (keçmiş Vartaşen) rayonunun Yaqublu kəndində anadan olmuşdu. Onun qismətinə az, lakin mənalı və şərəfli bir ömür payı düşdü.

Orta təhsilini 1978-1988-ci illərdə Yaqublu kənd orta məktəbində alıb. Məktəbi bitirəndən sonra bir müddət Üzümün İlkin Emalı zavodunda işləmişdi.

1989-1991-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdu. Hərbi xidmətini keçmiş Almaniya Demokratik Respublikasında (ADR) keçirmişdi.

1991-ci ildə hərbi xidmətdən qayıdan Nüsrət “Azərbaycan” kolxozunda sürücü işləyirdi. Lakin hər gün eşitdiyi qara xəbərlər onun da sakit həyatını əlindən almışdı. Minlərlə digər idid oğlanlarımız kimi Nüsrət də düşmənə qarşı intiqam hissi ilə yaşayırdı.

N.Süleymanov 1992-ci ilin sentyabr ayında cəbhəyə yollandı. Bir müddət Tərtər və Laçın rayonlarının müxtəlif bölgələrində döyüşən N.Süleymanov əsl döyüşçü kimi püxtələşmişdi. O, döyüşçü dostlarının və komandanlığın rəğbətini qazanmışdı.

N.Süleymanov 1992-ci il oktyabr ayının 9-da Laçın rayonunun Xınalılar kəndi yaxınlığındakı Sarıbaba dağı ətrafında gedən ağır döyüşdə həlak oldu. Şəhidlik

zirvəsinə ucaldı, tək bir ananın yox, minlərlə ananın övladı oldu.

Oğuz rayonunun Yaqublu kəndində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 sentyabr 1995-ci il tarixli 215 saylı qərarı ilə N.Süleymanovun adı qonşu Zərrab kənd tam orta məktəbinə verilmişdir.

Allahverdiyev Cumar Allahverdi oğlu. 03 dekabr 1963-cü ildə Oğuz (keçmiş Vartaşen) rayonunun Yenikənd kəndində anadan olmuşdur. 1970-ci ildə Yaqublu kənd orta məktəbinin I sinfinə daxil olmuş və 1979-cu ildə həmin məktəbin IX sinfini bitirmişdir.

1979-cu ildən ərazidəki "Azərbaycan" üzümçülük sovxozunun süd-əmtəə fermasında əmək fəaliyyətinə başlamışdır.1982 -1984-cü illərdə Rusiyanın Primorsk şəhərində həqiqi hərbi xidmətdə olmuşdur.

Hərbi xidməti başa vurandan sonra "Azərbaycan" sovxozunda əmək fəaliyyətini davam etdirmiş və qısa müddət ərzində təcrübəli mexanizator kimi tanınmışdır.1993-cü ilin noyabr ayında Milli Ordu sıralarına çağrılmış və cəbhəyə göndərilmişdir.

Ağdərədə və Tərtərin Çaylı və Qırmızıkənd kəndlərinin ətrafında gedən qanlı döyüşlərdə iştirak etmişdir. Öz igidliyi və cəsarəti ilə döyüşçü dostlarının hörmətini və rəğbətini qazanmışdır. Döyüş tapşırıqlarını nümunəvi qaydada yerinə yetirmişdir.

Cumar 1994-cü ilin fevral ayının 13-də Tərtər rayonundakı “Tnaşen-1” postu yaxınlığında gedən döyüşdə itkin düşmüşdür.

Məktəbin nəinki kənddə, o cümlədən rayonda və ölkəmizdə müxtəlif vəzifələrdə işləmiş və hazırda işləyən onlarla məzunu olub və var.

Belələrinə Moskva Dövlət Unuversitetinin məzunu, Azərbaycan Respublikası Ekologiya Nazirliyinin 7 saylı regional ekologiya və təbii sərvətlər idarəsinin sektor müdiri işləyən Nizami Hidayət oğlu Sübəyevi, Moskva Əmək və Sosial Münasibətlər Akademiyasının məzunu, “Azərbaycan” sovxozunun sədri işləmiş Nəriman Hüseynəli oğlu Tağıyevi, Novoçerkask Politexnik İnstitutunun məzunu Aygün Yaqub qızı İsayevanı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunları – AMEA-nın Sumqayıt şəhərindəki Polimer Materialları Elmi-tədqiqat İnstitutunun şöbə müdiri Nəriman Allahverdi oğlu Verdiyevi və Azərbaycan İstilik Elektrik Stansiyası MMC-də istilik cihazları və avtomatlaşdırma sexinin rəis müavini işləyən Eldəniz Əbülfət oğlu Haqverdiyevi, “Azərneftyağ” Neft emalı zavodunda uzun müddət istehsalat şöbəsinin rəis müavini və  sex rəisi işləmiş, müharibə veteranı, “ Hərbi xidmətlər görə medalı” ilə təltif olunmuş Araz Xudaverdi oğlu Verdiyevi, GDU-nun məzunları – Mingəçevir şəhərindəki 8 saylı məktəbdə direktor müavini işləmiş Bahar Abduləli qızı Abbasovanı,Yaqublu məktəbində uzun illər tədris işləri üzrə direktor müavini işləmiş Nazim Sultan oğlu

Həsənovu və Oğuz şəhərindəki E.Abdullayev adına tam orta məktəbdə tərbiyə işləri üzrə direktor müavini işləyən Adil Saat oğlu Heydərovu, N.Süleymanov adına Zərrab kənd tam orta məktəbinin direktoru Qadir Ələsgər oğlu Abdullayevi belə məzunlara nümunə göstərmək olar.

ADBTİ Akademiyasının məzunu, Oğuz Rayon "Məhsul" kənd könüllü idman cəmiyyətinin sədri və RTŞ-də metodist vəzifələrində işləmiş Qismət Qəzənfər oğlu Babayevi, Azərbaycan Dövlət Aqrar Universitetinin məzunları – Dövlət Sosial Müdafiə Fondunun Şəki-Zaqatala filialının pensiya təminatı şöbəsinin aparıcı mütəxəssisi Mirələm Müzəffər oğlu Həşimovu, Oğuz Rayon İcra Hakimiyyəti Başçısının Yaqublu İƏD üzrə nümayəndəsi Bəxtiyar Abduləli oğlu İsmayılovu və nümayəndəliyin əməkdaşı Mirimdad İsmayıl oğlu Ağayevi,Yaqublu Bələdiyyəsinin sədri Arif İsmayıl oğlu Əliyevi, hazırda Oğuz Suvarma Sistemləri İdarəsində mühəndis işləyən Eyvaz Sübə oğlu Mirzəyevi, Texniki Universitetin məzunu, Azərenerji Səhmdar Cəmiyyətinin Oğuz Rayon Elektrik Şəbəkəsinin elektrik mühəndisi Şirin Bəşər oğlu Salahovu, ADPU-nun məzunu, Azərbaycan Respublikasının Əməkdar müəllimi, bir neçə kitabın müəllifi İmran Allahverdi oğlu Verdiyevi, hazırda Almaniyada yaşayan, orada mədəniyyət və incəsənətimizin yorulmaz təbliğatçısı, Azərbaycan diasporasının fəallarından olan, Qərbi Azərbaycan İştimai Birliyinin ideologiya şöbəsinin rəhbəri Əntiqə Qafar qızı Rzayevanı, hal-hazırda İsveçdə yaşayan və oradakı Azərbaycan diasporasının fəal üzvlərindən biri olan Elbrus

Əbülfət oğlu Haqverdiyevi, Almaniyada yaşayan və ordakı Azərbaycan diasporasının fəallarından Sadıq Məmmədbağır oğlu Hüseynovu, hal-hazırda Rusiya Federasiyasında yaşayan, lakin kənddə öz xeyriyyəçilik işləri ilə hamının hörmətini və rəğbətini qazanmış məzunlardan ATU-nin məzunu Tarel Məmmədəli oğlu İsayevi, Alay Novruz oğlu İsayevi, Rəhim Əvəz oğlu Kazımovu, Gündüz Süleyman oğlu İsayevi, Səhhət Süleyman oğlu İsayevi, Ceyhun Əvəz oğlu Kazımovu, uzun illər təsərrüfat, icra və bələdiyyə orqanlarında məsul vəzifələrdə işləmiş Akif Saat oğlu Heydərovu, İlham Ələfsər oğlu Mənəfovu, Mehman Tacəddin oğlu Əliyevi və digərlərini də məktəbin unudulmaz məzunları sırasına aid etmək olar.

Məktəbin məzunlarının bir qismi ali təhsillərini keçmiş SSRİ-nin və xarici ölkələrin ali məktəblərində - Moskva Dövlət Universitetində, Moskva Əmək və Sosial Münasibətlər Akademiyasında, Novoçerkask Politexnik İnstitutunda, Karakanda Polis Akademiyasında, Saratov Dövlət Universitetində, Kiyev Dövlət Universitetində, Lvov Politexnik İnstitutunda, Daşkənd Dövlət Universitetində, Donetsk Pedaqoji İnstitutunda, Tbilisi Dövlət Aqrar Universitetində, Türkiyənin Biləcik Universitetində və digər ölkələrdə almışlar. Çox sevindirici haldır ki, məzunlarımızın səsi indi də xarici ölkələrin ali təhsil müəssisələrindən gəlməkdə davam edir.

Məzunlar öz məktəblərinə şərəf və şöhrət gətirmiş və heç vaxt məktəblə əlaqələrini kəsməmişlər. Çünki doğma məktəblərinə və müəllimlərinə olan sevgi buna imkan

vermәmişdir. Onlar hәmişә mәktәbin fәaliyyәti ilә maraqlanmış, öz hәyatlarında mәktәbin vә müәllimlәrinin rolunu dönә-dönә etiraf etmişlәr. Mәsәlәn, tanınmış mәzunlardan yazıçı-jurnalist, Rәssamlar vә Jurnalistlәr İttifaqlarının, Azәrbaycan Yazıçılar Birliyinin üzvü, “İncәsәnәt” qәzetinin redaktoru Ә.İbrahimov özünün “Sultan Mәhәmmәd“ romanını uzun illәr Yaqublu mәktәbin direktoru olmuş H.Qurbanova ithaf etmişdir. Azәrbaycan televiziya vә radiosunun bölgә müxbiri işlәmiş, yazıçı-jurnalist, Jurnalistlәr İttifaqı vә Yazıçılar Birliyinin üzvü  Pәnah Әkbәr oğlu Qurbanov isә mәktәb kitabxanasına bağışladığı kitabına belә bir aftoqraf yazmışdı: “Mәnә hәyat vәsiqәsi vermiş, xatiratımda unudulmaz iz qoymuş doğma mәktәbim vә Yaqublu kәndi yaradıcılığımın әsas mәnәvi dayağı vә mövzusudur. Kitabı da bu istәk vә mәhәbbәtlә hәdiyyә edirәm.” Azәrbaycan Respublikasının Әmәkdar müәllimi İ.Verdiyev isә müәllifi olduğu vә 2003-cü ildә çap olunmuş “Yaqublu mәktәbi” kitabını mәktәbin tarixinin, orada illәrlә formalaşmış iş tәcrübәsinin, doğma müәllimlәrinin qabaqcıl vә nümunәvi fәaliyyәtinin araşdırılmasına hәsr etmişdir.

Vaxtaşırı mәktәbin keçmiş mәzunları ilә görüşlәrin tәşkili vә keçirilmәsi artıq bir әnәnә halını almışdır.

Bu gün Yaqublu kәndindә yaşayan әhalinin, demәk olar ki, hamısı orta tәhsilә malikdir. Hazırda kәnddә 70 nәfәrdәn çox ali, 60 nәfәrdәn çox orta-ixtisas tәhsilli vәtәndaş yaşayır. Onların, demәk olar ki, hamısı Yaqublu mәktәbinin mәzunları olublar.


Unudulmur
IZ RZAYEV TOFİQ QAFAR o. - Tofiq Oğuz


BABAYEV TALE BƏYƏNULLA o.


SÜLEYMANOV NÜSRƏT MURADƏLİ o.


Allahverdiyev CUMAR Allahverdi o.



- Ailə və içtimaiyyətlə iş.

Son illər məktəbin ailə və içtimaiyyətlə əlaqələri xeyli yaxşılaşmışdır. Məktəb Valideyn Komitəsinin fəaliyyətində canlanma yaranmışdır. Bu işlərdə Valideyn Komitəsinin sədri N.Hətəmovanın böyük əməyi vardır.

Məktəb rəhbərliyi tərəfindən ümumməktəb və sinif valideyn yığıcaqlarının, birgə mədəni-kütləvi tədbirlərin təşkilinə, hazırlanmasına və keçirilməsinə, valideynlərlə fərdi və kollektiv pedaqoji tədbirlərin keçirilməsinə, onlarla aparılan pedaqoji və psixoloji maarifləndirmə işlərinə diqqət artırılmışdır.

Ailələrə getmək və şagirdlərin ev şəraiti ilə tanış olmaq və müvafiq tövsiyələr vermək,"Açıq qapı" günləri təşkil etmək, pedaqoji yardıma ehtiyacı olan valideynlərin müəyyən olunması və onlar üçün pedaqoji mühazirələr, fərdi və qrup halında söhbətlər, seminar və ya treninqlər, valideyn lektoriyaları təşkil etmək, gənc valideynlər üçün məsləhət saatları keçirmək, "narahat ailələr"lə işlərə xüsusi fikir vermək, valideynlərə göstərilən psixoloji xidmət işlərinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Keçirilən tədbirlərində valideynlərin və içtimaiyyətin nümayəndələrinin iştirakı təmin edilir.

Məsələn, 2018-ci ilin mart ayında nənə və babaların uşaqların tərbiyəsindəki rolunu nəzərə alaraq məktəbdə "Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir" devizi ilə I–IX siniflərdə təhsil alan şagirdlərin nənə və babalarının yığıncağı keçirilmişdir.

Yığıncaqdan əvvəl nənə və babalar dərslərdə və 31 Mart Azərbaycanlıların Soyqırımı günü münasibəti ilə keçirilən tədbrlərdə iştirak etdilər.

Akt zalında keçirilən yığıncaqda məktəbin tərbiyə işləri üzrə direktor müavini R.Muğumovanın "Uşaqların təlim-tərbiyəsində nənə və babaların valideynlərlə əlbir fəaliyyəti"; psixoloq L.Sadıqovanın "Nəvələrlə münasibət necə qurulmalıdır?"; Uşaq Birliyinin rəhbəri Z.Əliyevanın "Nənə və babaların uşaqların tərbiyəsində diqqət etməli məqamlar" mövzularında maarifləndirici mühazirələri dinlənilmişdi.

Sonra nənə-baba və nəvələr arasında sağlam münasibət qurmağın yolları barədə qeyri-formal debat olmuşdu.

Zəngin həyat təcrübəsinə malik nənə və babalardan Y.İsayev, G.Kamilov, R.Əhmədov, S.Babayev, İ.Sadıqov, S.Kazımova, X.Qurbanova, T.Əliyev, V.Kərimov, S.Mirzəyev, H.Hətəmova, D.Mövlamov, Ə.Səfərəliyev, A.Səfiyev, N.Hüseynova, G.Namazov, X.Cəfərov, müəllimlərdən V.Qurbanova, N.Həsənov, Ə.İsmayılova, İ.Vahabova, R.Bayramovun və digərlərinin nəsihət və məsləhət dolu çıxışları maraqla qarşılanmışdı.

Yığıncağın sonunda nənə və babalara nəvələrlə səmərəli ünsiyyət qurmağı əks etdirən bukletlər paylanmışdı.

2018-ci ilin oktyabr ayında keçirilmiş "Açıq qapı" günündə isə valideyn və içtimaiyyətin nümayəndələri məktəbin maddi texniki bazası və iş şəraiti ilə maraqlanmış, dərslərdə vvə psixoloji test sorğusunda

içtirak etmiş, istedadlı uşaqlarla aparılan işlərlə tanış olmuş, idman yarışına və əl işlərindən ibarət sərgilərə tamaşa etmiş, müəllim və məktəb rəhbərləri ilə görüşərək öz rəy, təklif və tənqidi qeydlərini söyləmişlər.

Günün ikinci yarısında isə ümumməktəb valideyn yığıncağı keçirilmişdir. Rayon Təhsil Şöbəsinin müdiri cənab E.Kərimov və inspektor A.Şəfiyevin də iştirak etdiyi yığıncaqda valideyn komitəsinin sədri N.Hətəmova, məktəbin direktoru İ.Verdiyev, psixoloq L.Sadıqova, sahə tibb bacısı A.Sadıqova və məktəbin müəllimləri “Uşaq şəxsiyyətinin formalaşmasında valideynlərin rolu və vəzifəsi”,“Buraxılış və qəbul imtahanlarının yeni modeli haqqında”, “Valideyn-övlad münasibətlərinin psixoloji xüsusiyyətləri”, “Uşaqların sağlamlığı vacib məsələdir” və “Uşaqların mütaliəsinə valideyn nəzarəti” barədə faydalı məlumat və tövsiyələr vermişlər. Çıxış edən valideynlər qeyd edilən məsələlərə öz münasibətlərini bildirmişlər

Oğuz RTŞ-nin müdiri cənab E.Kərimov ümumməktəb valideyn yığıncağında çıxış edərək öz məsləhət və tövsiyələrini vermiş, yığıncağın işini yekunlaşdırmışdır.

2021-ci ilin okyabr ayında keçirilən valideyn iclasından əvvəl valideynlər müxtəlif dərslərdə iştirak etmiş, müəllimlərlə fərdi görüşlər keçirmiş, şagirdlərin əl işlərinin sərgisinə tamaşa etmiş, məktəbin iş şəraiti ilə tanış olmuşlar.

Yığıncaqda "Uşaqlara qarşı bullinq hallarının qarşısının alınmasında məktəb və ailənin rolu" və "Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin rolu" mövzularında Valideyn Komitəsinin sədri

N.Hətəmova və tədris işləri üzrə direktor müavini N.Süleymanovanın təqdim etdikləri məruzələr geniş müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Yığıncaqda həmçinin psixoloq L.Sadıqovanın "Valideyn-övlad münasibətlərinin psixoloji-pedaqoji aspektləri" mövzusunda maarifləndirici mühazirəsi dinlənilmişdir.

9 fevral 2022-ci il tarixdə növbəti ümumməktəb valideyn yığıncağı keçirilmişdir. Yığıncaqda təhsil prosesinin iştirakçılarına qarşı bullinq və mobbing hallarının aradan qaldırıması, şagird-valideyn, şagird-müəllim,müəllim-müəllim,müəllim-valideyn münasibətləri və buraxılış imtahanları ərəfəsində valideynlərin əsas vəzifələri barədə geniş fikir mübadiləsi və məsləhətləşmələr aparılmışdır. İşgüzar şəraitdə keçən yığıncaqda qarşılıqlı münasibətlərin normal səviyyədə saxlanması üçün səmərəli təkliflər irəli sürülmüşdür.

Ailə və içtimaiyyətin nümayəndələri ilə belə tədbirlərin təşkili və keçirilməsi müntəzəm hal almışdır. Məktəbin ailə və içtimaiyyətlə əlaqələrinin möhkəmləndirilməsi təlim-tərbiyə işlərinin keyfiyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərməkdədir.

İnanırıq ki, Yaqublu kəndi və onun məktəbi gələcəkdə də yeni-yeni uğurların ünvanı olacaq, inkişaf edərək çiçəklənib gözəlləşəcək. Övladlarımız burada şən və xoşbəxt yaşayacaq, mükəmməl təhsil alacaq, yeni tarix yazacaq və bu tarixin müəllifləri olacaqlar.

## Son söz

Nəhayət, son söz deməyin vaxtı çatdı. Sonda gələcək nəslimizin nümayəndələrinə bir daha məşhur tarixçi, akademik Z.Bünyadovun sözləri ilə müraciət edirik: “Hər bir alim, yazıçı, jurnalist, bütövlükdə qələm çalanlar öz kəndlərinin, qəsəbələrinin, şəhərlərinin tarixini yazmağa təşəbbüs göstərsinlər. Doğrudur, bu çətindir, lakin faydalıdır.”

Çünki hər bir kənd, qəsəbə və şəhər öz tarixləri, fədakar və tanınmış insanları ilə yaddaşlara həkk olur, tarixə düşür.

Gələcəkdə kəndimizin tarixi haqqında çəkinmədən yazın, qoy onun keçmiş tarixinin işıqlı tərəfləri gələçəyinə şam tutsun. Bu işlərdə sizə indidən xeyir-dua verir, uğurlar arzulayırıq.

Biz isə gələcəkdə xatırlanmaq ümidi ilə sizlərdən ayrılırıq.

# MƏNBƏLƏR

1. "Azərbaycan Respublikasının coğrafi problemləri, Oğuz rayonu", Bakı-2001
2. İbrahimov Ə. – "Talelər", Bakı-1971
3. Махмуд из Хиналуга: "События в Дагестане и Ширване" (XIV-XVвв.)Махачкала -1997
4. Vaqifqızı L. "Şəki folklor mühiti", Bakı-2012. AMEA-nın Folklor İnstitutu
5. Qurbanov A. "Azərbaycan onomologiyasının əsasları", II cild, Bakı-2019
6. Paşayev A. "Türk mənşəli beynəlmiləl onomastik vahidlər (müqayisəli onomastika", (Bakı-2017)
7. https://hozir.org/gurcustanda-turk-menseli.html?page=7
8. http://zim.az/gurcustan/368-sazli-szl-baked.html
9. Çobanova H. "Gürcüstan ərazisindəki türk mənşəli etnotoponimlərin linqvistik xüsusiyyətləri" (dissertasiya, əlyazma hüququnda), Bakı-2021
10 . Allahmanlı M. "Səfəvilərin böyük ideoloqu" məqaləsi, "Kredo" qəzeti, 04 aprel 2019-cu il
11.Институт востоковедения РАН. Институт Истории, Археологии и Этнографии Дагестанский Научного ЦентраРАН:«Albania Caucasica»МоскваИВ РАН-2015.
12. Ререидские документы Матенадарана (III). Шариатские нотариалъные документы (XVII –XVIII вв.)Ереван – 2018

13. “Azərbaycan tarixi” (1900-1920), V cild, Bakı, Elm nəşriyyatı -2008.
14. Oğuz Rayon Dövlət Arxiv,fond 48, siyahı 2, saxlama vahidi 3,20,22, 23, 25, 28
15. https://books.google.az/books?id=LlHWh9prA_8C...
16. AMEA Tarix İnstitutunun Elmi əsərləri, 2016-cı il, cild 60. Səhifə: 96-114
17. Bakı Universitetinin xəbərləri (Hümanitar elmlər seriyası”, 2014, № 2
18. Verdiyev İ. – “Yaqublu və yaqublular”, Sumqayıt-2003
19. Cavadova Z.Ə. – “Şimal-qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsrin əvvəlləri – 70-ci illəri”, Bakı-2002
20. Cavadov Q. və Hüseynov R. “Udilər” (tarixi etnoqrafik tədqiqat-təkrar nəşr) Elm, Bakı -1999. Səh: 96-97
21. Oğuz Rayon Dövlət Arxivi, f-69, s-1, sx-19; b-1, sv.-13)
22. “Varlı həyat” qəzeti, 26 sentyabr 1940-cı il. Q.Rzayevin “Yaqublulularін gözəl iş nümunələri” məqaləsi
23. Oğuz Rayon Dövlət Arxivi, f-69,s-1, s/x 1, b-1, vər. 52
24. https://www.az.emb-japan.go.jp/upload/pdf/Opening-Ceremony-Oguz-Shamkir-MedicalPoint-15-16.04.13_az.pdf
25. “Lenin bayrağı” qəzeti, 26 aprel 1975-ci il

26. “Lenin bayrağı” qəzeti, 18 noyabr 1976-cı il
27. Oğuz Rayon Dövlət Arxivi, f-69,s-1, s/v- 4, b-1, vər: 34
28. Oğuz Rayon Dövlət Arxivi, f-69,s-1, s/v 1, b-1
29. H.Əhmədov H. – “XIX əsr Azərbaycan məktəbi”, Bakı-2000
30. Vahabov İ. “Oğuz təhsili” (I hissə), Çaşıoğlu, Bakı-2005
31. Verdiyev İ. “Yaqublu məktəbi”, Çaşıoğlu, Bakı-2003
32. http://www.oguz-ih.gov.az/news/72.html
33. Oğuz Rayon Dövlət Arxivi, f-49,s-1,s/x-12, b-1, vər: 15-16
34. “Oğuz yurdu” qəzeti, 17 sentyabr 1996-cı il)
35. Oğuz rayonunun 2002-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinə dair statistik məlumatlar (“Abituriyent” jurnalının 2002-ci il tarixli XII sayına əlavə). Bakı-2002
36. “Azərbaycan müəllimi” qəzeti, 14 mart 2014-cü il
37. “Oğuz yurdu” qəzeti, 30 noyabr 2021-ci il
38. “Abituriyent” jurnalı, oktyabr 2001-ci il № 12
39. “Oğuz rayonunun 2018-ci il məzunlarının buraxılış və qəbul imtahanlarındakı nəticələrinə dair statistik məlumatlar” –“Abituriyent” jurnalının 12-ci sayına əlavə. Bakı-2018
40. http://mekteb.edu.az/az/62/62015a2020_4a.htm
41. “Respublika” qəzeti, 26 sentyabr 2002-ci il

# ƏDƏBIYYAAT


1. Kalankatuklu M : “Albaniya tarixi”, M.Koş: “Alban salnaməsi”. Avrasiya Pres, Bakı-2006

2. “Kitabi-Dədə Qorqud” ensiklopediyası (I-II cild). Yeni nəşr evi, Bakı-2000

3. Ş.İ.Xətai: “Əsərləri”, Şərq-qərb, Bakı-2005

4. Azərbaycan toponimlərinin eksiklopedik lüğəti (I-II cild), Şərq-qərb, Bakı-2007

5. Əhmədov T. “Azərbaycan toponimikasının əsasları”, Bakı-1991

6. Rzayev Y. “Bura Oğuzdur” (Oğuz rayonu haqqında məlumat-informasiya kitabı), Mingəçevir-2004

7. Hüseynli N: “Oğuzdur elim mənim”, Nasir, Bakı-2008

8. “Üç nöqtə” qəzeti, 27 sentyabr 2018-ci il

9. “Oğuz yurdu” 15 noyabr 2021-ci il

10. “Azərbaycan müəllimi” 4 aprel 2002-ci il

11. Mərdanov M. :”Azərbaycan təhsil tarixi” (I cild), Təhsil, Bakı-2011

12. ASE, V cild, Bakı-1981

13. Talıbov Y., Sadıqov F.,Quliyev S.:“Azərbaycanda məktəb və pedaqoji fikir tarixi”, Ünsiyyət, Bakı-2000

14. A.Ü.Türkiyat Araştırmaları Enstüsü Dergisi (TAED) 48, Erzurum, 2012, 305-342. Dr. M.Tezcan: “Yabgu unvanı və kullanımı (kuşanlardan ilk müslüman türk devletlerine kadar)”

15. Verdiyev İ. “BMT-nin “Uşaq Hüquqları Konvensiyası”nın müddəalarının öyrənilməsi, təbliği və tətbiqi” (Metodik tövsiyə) Çaşıoğlu, Bakı-2002

16. Tanrıverdi Ə. “Qədim türk mənbələrində yaşayan şəxs adları”, Nurlan, Bakı-2009




**Oğuz rayonunun xəritəsi**

## MÜNDƏRİCAT

Müəllifdən.................................................... 7

I HİSSƏ
YAQUBLU KƏNDİ – DÜNYAYA AÇILAN QAPIMIZ

Kəndin coğrafi mövqeyi və təbiəti........................ 10
Kəndin adının etimologiyası haqqında................... 14
Kəndin keçmişinə qısa səyahət............................ 23
Kənd əhalisinin tarixi və say dinamikası................. 27
Kəndin iqtisadiyyatı haqqında............................. 45
Kəndin sosial-mədəni həyatı barədə...................... 58
Kənd müstəqillik uğrunda mübarizə və Qarabağ müharibələri illərində.............................. 70
Yaqublunun yaradıcı insanları.......................... 72

II HİSSƏ
YAQUBLU MƏKTƏBİ – HAMIMIZIN MƏKTƏBİ

Məktəbin açılması və maddi-texniki bazanın möhkəmləndirilməsi................................. 76
Məktəbin unudulmaz müəllimləri və texniki işçiləri... 87
Məktəbin rəhbərləri barədə qısa xatırlatma............ 99
Məktəb XX əsrdə.............................................. 115
Məktəb XXI əsrin əvvələrində (2000-2022 illər)....... 124
Son söz.......................................................... 231
MƏNBƏLƏR ................................................... 232
ƏDƏBIYYAAT.................................................. 235

Mətbəənin direktoru: Dilqəm Yusifov
Kompyuter  tərtibatçısı:  Rübabə  Mustafayeva

Hazır deopozitivlərdən çap olunmusdur.
Çapa verilmişdir  16.03.2022-ci il
Fiziki çap vərəqi 14,87. Sifariş 3. Nüsxə 200

Azərbaycan Respublikaı
“Mingəçevir Poliqrafiya Müəssisəsi” MMC
D.Əliyeva 2 a